Xalqın qəzeti!

# Xalq qəzeti

№ 65 (31034) 17 aprel 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan – Türkiyə dostluğu və qardaşlığı hər gün yeni uğurlarla, töhfələrlə zənginləşir

*Azərbaycan Prezidenti İlham Əliyev Türkiyəyə işgüzar səfərə gəlib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 5-ci Antalya Diplomatiya Forumunda iştirak etmək üçün aprelin 16-da Türkiyəyə işgüzar səfərə gəlib.**

Antalya Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Antalya şəhərinin valisi Hulusi Şahin və digər rəsmi şəxslər qarşıladılar.

*AZƏRTAC*

## Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

**Hörmətli cənab Prezident!**
**Əziz Qardaşım!**

Kahramanmaraşda yerləşən məktəbə silahlı hücum nəticəsində əksəriyyəti uşaq olmaqla çox sayda insanın həlak olması və yaralanması xəbərini dərin sarsıntı və kədər hissi ilə qarşıladıq.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətləniriк, uşaqlara qarşı yönəlmiş bu qəddarlıq əməlini qətiyyətlə pisləyirik.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, səbir diləyir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 aprel 2026-cı il**

## H.B.Məmmədovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Hikmət Baba oğlu Məmmədov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 aprel 2026-cı il**

## Azərbaycan iqtisadiyyatı son 10 ildə



Səhifə ⇨ 8

## Yaxın Şərqdə hərbi gərginlik enerji böhranını dərinləşdirir



Səhifə ⇨ 11

## "Sülh körpüsü"ndə etimad axtarışlarına növbəti töhfə




Səhifə ⇨ 5

## Pərakəndə ticarətdə "kampaniya" və "endirim" oyunları




Səhifə ⇨ 8

## Müharibə canilərini müdafiə Bakıya siyasi təzyiq cəhdidir

Səhifə ⇨ 4

## Strateji Tərəfdaşlıq Xartiyasının regional sülhə təsiri



Səhifə ⇨ 3

## TRIPP layihəsi: geoiqtisadi maraqların yeni mərkəzi



Səhifə ⇨ 3

## "Casus-2", yoxsa seçki "çətiri"?



Səhifə ⇨ 3

## Bakı–Moskva: təyyarə olayı və "buzların əriməsi"



Səhifə ⇨ 4

# Azərbaycan–Rusiya iqtisadi əməkdaşlıq komissiyasının iclası



**Aprelin 16-da Zəngilan şəhərində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 24-cü iclası keçirilib.**

Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfindən sədri, Baş nazirin müavini Şahin Mustafayev və Hökumətlərarası Komissiyanın Rusiya tərəfindən sədri, Rusiya hökumətinin sədr müavini Aleksey Overçukun sədrliyi ilə keçirilən iclasda hər iki ölkənin müvafiq dövlət strukturlarının rəhbərləri və səlahiyyətli nümayəndələri iştirak ediblər.

İclasda komissiyanın Azərbaycan tərəfdən həmsədri Şahin Mustafayev çıxış edərək azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verib. Ş.Mustafayev bildirib ki, işğal dövründə tamamilə dağıdılmış infrastruktur hazırda müasir standartlara uyğun şəkildə bərpa olunur, yollar, körpülər, tunellər, inşa edilir, yaşayış və sosial obyektlər yaradılır.

Baş nazirin müavini bildirib ki, Azərbaycan Rusiya ilə münasibətdə mehriban qonşuluq, qarşılıqlı anlaşma və bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə sadiqdir.

Qeyd olunub ki, ikitərəfli əməkdaşlığın ardıcıl və dinamik inkişafı prezidentlər İlham Əliyev və Vladimir Putin tərəfindən həyata keçirilən siyasi iradə və strateji kursla müəyyən olunur. Xüsusilə 2022-ci ildə imzalanmış müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin ikitərəfli münasibətlərə mühüm təkan verdiyi vurğulanıb.

Şahin Mustafayev Azərbaycan və Rusiya prezidentlərinin ötən ilin oktyabrında Düşənbədə keçirilmiş görüşünün ikitərəfli əməkdaşlıqla yeni mərhələnin əsasını qoyduğunu, mart ayında Bakıda baş tutmuş yüksəksəviyyəli təmasların isə praktik nəticələr verdiyini bildirib. O, mürəkkəb regional şəraitə baxmayaraq, əməkdaşlığın davamlı inkişaf etdiyini xüsusi qeyd edib.

Baş nazirin müavini Azərbaycanın regional sabitliyə və humanitar əməkdaşlığa verdiyi töhfələrə toxunaraq İran ərazisindən Rusiya vətəndaşlarının təxliyəsində göstərilən operativ dəstək, eləcə də Rusiya humanitar yardımının Azərbaycan ərazisindən tranziti üçün yaradılan şərait vurğulayıb. Bildirilib ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi mövcud mürəkkəb geosiyasi şəraitdə də etibarlı və fasiləsiz fəaliyyət göstərərək öz rəqabətqabiliyyətini sübut edib.

İqtisadi məsələlərə toxunan Ş.Mustafayev qeyd edib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan ərazisindən müxtəlif istiqamətlərdən, o cümlədən Rusiyadan Ermənistana yüklərin daşınması ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması regionda etimadın möhkəmləndirilməsinə və nəqliyyat-logistika əməkdaşlığının genişlənməsinə xidmət edir. Hazırda Azərbaycan ərazisindən tranzitlə Ermənistana, təxminən, 26 min ton yük daşınıb.



Kənd təsərrüfatı məhsulları üzrə ticarətin xüsusi əhəmiyyət daşıdığı vurğulanıb. Qeyd edilib ki, Rusiya bazarı Azərbaycan qeyri-neft ixracının əsas istiqamətlərindən biri olaraq qalır.

Şahin Mustafayev vurğulayıb ki, Azərbaycan–Rusiya münasibətlərinin əsas istiqamətlərindən biri ticarət-iqtisadi əməkdaşlıqdır. Onun sözlərinə görə, 2025-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 4,9 milyard ABŞ dollarına çatıb. Çıxışda investisiya əməkdaşlığının müsbət dinamikası xüsusi qeyd edilib. Bildirilib ki, Rusiyanın Azərbaycana yatırdığı ümumi investisiyaların həcmi 10,5 milyard ABŞ dollarını, o cümlədən qeyri-neft sektorunda 2,9 milyard dolları ötüb. İnvestisiya əməkdaşlığı müsbət dinamika nümayiş etdirir və Azərbaycanda 1400-dən çox Rusiya şirkəti fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycan investisiyalarının da Rusiya iqtisadiyyatında mövqelərinin möhkəmləndiyi, sanatoriya, sənaye və istehsal layihələrinin uğurla icra olunduğu bildirilib.

Baş nazirin müavini nəqliyyat-logistika sahəsini əməkdaşlığın prioritet istiqamətlərindən biri kimi dəyərləndirib. Xüsusilə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafının strateji əhəmiyyəti vurğulanıb, dəhliz üzrə infrastrukturun modernləşdirilməsi və rəqəmsallaşdırmanın yükdaşımaların həcmini əhəmiyyətli dərəcədə artıracağı qeyd olunub. Bildirilib ki, 2028-ci ildən etibarən Azərbaycan ərazisindən illik daşımaların həcmi azı 5 milyon ton, sonrakı mərhələdə isə 15 milyon ton səviyyəsinə çatdırılacaq.

O, Araz vadisi iqtisadi zonasında "KamAZ" servis mərkəzinin və Qubadlının Mahruzlu kəndində Həştərxan qubernatorluğu tərəfindən uşaq bağçasının tikintisini yüksək qiymətləndirib və Rusiya tərəfinə təşəkkür edib.

Rusiya tərəfdən çıxış edən Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuk Azərbaycan-Rusiya əməkdaşlığının strateji xarakter daşıdığını deyib. O, nəqliyyat-logistika, sənaye və aqrar sahələrinin əsas prioritetlər olduğunu bildirib, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafının regional və beynəlxalq ticarət əlaqələrinin genişlənməsində mühüm rol oynadığını vurğulayıb. Overçuk Zəngilanda aparılan bərpa işlərini yüksək qiymətləndirərək bu ərazilərin birgə layihələr üçün yeni imkanlar yaratdığını qeyd edib.

İclas zamanı tərəflər ticarət, investisiya, maliyyə, nəqliyyat, kənd təsərrüfatı, energetika, turizm və humanitar sahələr üzrə əməkdaşlığın mövcud vəziyyətini və perspektivlərini müzakirə edib, qarşılıqlı maraq doğuran məsələlər üzrə koordinasiyanın gücləndirilməsinin vacibliyini vurğulayıblar.

A.Overçuk Rusiya Federasiyası tərəfindən İran İslam Respublikasına göndərilimiş humanitar yardımın Azərbaycan ərazisindən keçərək ünvana çatdırılmasında göstərdiyi yardıma görə təşəkkürünü bildirib.

Sonda Azərbaycan–Rusiya münasibətlərinin qarşılıqlı hörmət, etimad və tərəfdaşlıq prinsipləri əsasında inkişaf etdiriləcəyi, əldə olunmuş razılaşmaların ardıcıl şəkildə icrasının davam etdiriləcəyi vurğulanıb.

İclasın yekunlarına dair Ş.Mustafayev və A.Overçuk Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 24-cü iclasının Protokolunu imzalayıblar.

Zəngilan səfəri çərçivəsində Azərbaycan–Rusiya iqtisadi əməkdaşlıq məsələləri üzrə Dövlət Komissiyasının 24-cü iclasının iştirakçıları Zəngilan şəhərində, Ağalı kəndində olub, Ağbənd avtomobil körpüsü, Horadiz–Ağbənd dəmir yolu layihəsi, habelə sərhəd-keçid məntəqəsinin infrastrukturunun tikintisi ilə tanış olublar. Qeyd edilib ki, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu "Şimal–Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin yeni qolunun əsas komponenti, Horadiz–Ağbənd dəmir yolu Zəngəzur dəhlizinin mühüm halqasını formalaşdıracaq.

***XQ***

# Sahibə Qafarovanın İstanbul görüşləri

**Aprelin 16-da Milli Məclisin Sədri Sahibə Qafarova İstanbulda keçirilən Parlamentlərarası İttifaqın (PAİ) 152-ci Assambleyası çərçivəsində Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşüb.**



Milli Məclisin Sədri iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş potensialın mövcud olduğunu diqqətə çatdırıb, parlamentlərarası əlaqələrin rolundan danışıb. O bildirib ki, bu gün qanunverici orqanlarımız arasında çox səmərəli əməkdaşlıq qurulub.

Dünən Rusiya və Azərbaycan xarici işlər nazirliklərinin Azərbaycan təyyarəsinin 2024-cü il dekabrın 25-də Aktau yaxınlığında qəzaya uğraması barədə birgə bəyanatına toxunan Valentina Matviyenko baş vermiş bədbəxt hadisənin nəticələrinin tənzimlənməsinin əhəmiyyətini qeyd edib və bir daha başsağlığını çatdırıb. Federal Şuranın sədri İrandakı müharibə fonunda Rusiya vətəndaşlarının İrandan təhlükəsiz şəkildə çıxarılması üçün Azərbaycanın göstərdiyi yardıma görə təşəkkürünü bildirib.



Prezident İlham Əliyevlə və Birinci vitse-prezident Mehriban Əliyeva ilə keçirdiyi görüşləri məmnunluqla xatırlayan Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko bu görüşlər barədə təəssüratlarını bölüşüb. Ölkələrimiz arasında münasibətlərin səviyyəsindən razılıq ifadə olunub, qarşılıqlı əlaqələrin inkişafında iki ölkənin dövlət başçılarının mühüm rolu qeyd edilib.

Söhbət zamanı Milli Məclisin Sədri Sahibə Qafarova iki ölkənin xarici işlər nazirliklərinin sonuncu bəyanatının əhəmiyyətini vurğulayıb.

*

**Milli Məclisin Sədri Sahibə Qafarova həmin gün Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva ilə də görüşüb.**

Görüş zamanı iki qardaş ölkə arasında əlaqələrin mövcud vəziyyətindən məmnunluq ifadə edilib. Söhbətdə parlamentlər arasında həm ikitərəfli qaydada, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətinə toxunulub. Tərəflər parlament təşkilatları çərçivəsində həmrəylikdən və qarşılıqlı dəstəkdən məmnunluqlarını ifadə ediblər. Bu çərçivədə PAİ-nin mühüm platforma olduğu diqqətə çatdırılıb, eyni zamanda, qeyd edilib ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi də iki ölkə parlamentinin əməkdaşlığı üçün mühüm önəm daşıyır.

*

**Dünən Milli Məclisin Sədri Sahibə Qafarova Mərakeş Krallığı Parlamentinin Müşavirlər Palatasının sədri Mohamed Ould Erraşid ilə də görüşüb.**

Görüşdə Azərbaycan və Mərakeş arasında mövcud əlaqələrin səviyyəsi yüksək qiymətləndirilib, siyasi dialoqun inkişafından, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək və həmrəylikdən məmnunluq ifadə olunub.



Görüşdə parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlərin inkişafında mühüm alət olduğu qeyd olunub. Bu baxımdan, parlament komitələri və dostluq qrupları arasında təmasların genişləndirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Sonda Milli Məclislə Mərakeş Krallığı Parlamentinin Müşavirlər Palatası arasında Anlaşma Memorandumu imzalanıb.

***XQ***

# Azərbaycan–Rusiya münasibətləri çoxşaxəli və davamlı xarakter daşıyır

**Azərbaycan–Rusiya münasibətləri çox sıx və çoxşaxəlidir. Dövlət başçıları səviyyəsində davamlı təmaslar mövcuddur və hökumətlərarası komissiya çərçivəsində konkret tapşırıqlar icra olunur.**

Bu barədə jurnalistlərə açıqlamasında Rusiya Federasiyası Baş nazirinin müavini Aleksey Overçuk deyib: "Bizim əməkdaşlığımız həqiqətən də hərtərəflidir. Azərbaycan tərəfi Rusiya ilə münasibətlərin inkişafına böyük maraq göstərir".

O qeyd edib ki, Zəngilanda keçirilən iclasda aidiyyəti qurumlara ticarət strukturunun təhlili və dövriyyənin artırılması üzrə tapşırıqlar verilib: "Bu, ölkələrimizdə yeni iş yerlərinin yaradılması və birgə inkişaf üçün vacibdir".

Rusiya rəsmisi, regionda nəqliyyat-logistika infrastrukturunun inkişafını yüksək qiymətləndirib. Onun sözlərinə görə, avtomobil yolları şəbəkəsi artıq formalaşıb, həmçinin Ermənistanın Mehri istiqamətinə gedən dəmir yolu xətti də xeyli dərəcədə hazırdır. "Biz beynəlxalq keçid məntəqəsindəyik və burada həm "Şimal–Cənub", həm də "Şərq–Qərb" nəqliyyat dəhlizlərinin tərkib hissəsi olan yeni körpünü görürük. Rusiya Federasiyası bu infrastrukturun tezliklə işlək vəziyyətə gətirilməsində maraqlıdır".

Overçuk əlavə edib ki, yaradılan müasir logistika infrastrukturu gələcəkdə Rusiya, İran, Azərbaycan, Naxçıvan və Türkiyə istiqamətlərində yükdaşımaların daha səmərəli həyata keçirilməsinə imkan verəcək: "Bu layihə ölkələrimiz üçün birgə fayda yaradacaq".

A.Overçuk bildirib ki, Rəşt–Astara dəmir yolunun tikintisinin beynəlxalq "Şimal–Cənub" nəqliyyat dəhlizinin formalaşdırılması baxımından strateji əhəmiyyət daşıyır. Bu layihə İran limanlarını Rusiya limanları, o cümlədən Baltik dənizi istiqamətində və Moskva ilə birləşdirən mühüm logistika xəttidir: "Biz Rəşt–Astara dəmir yolunun




çatışmayan hissəsinin tikintisi prosesindəyik. Hesab edirik ki, bu, "Şimal–Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşdırılmasının mühüm elementidir. Buna görə də biz bu layihəyə çox böyük maraq göstəririk".

Rusiya rəsmisinin sözlərinə görə, müharibə başlamazdan əvvəl layihə üzrə dəmir yolu üçün torpaq sahələrinin alınması prosesi aktiv şəkildə həyata keçirilib və İran tərəfi ilə əldə edilmiş razılaşmalara uyğun olaraq böyük hissə artıq satın alınıb. Baş nazirin müavini deyib ki, Rusiya şirkətləri artıq topoqrafik-geodeziya işlərinə başlayıb və faktiki olaraq tikinti üçün geodeziya şəbəkəsi formalaşdırılıb: "Yəni faktiki tikinti işləri artıq başlamışdı. Şərait imkan verən kimi biz bu işi bərpa edəcəyik".

***XQ***

# Süni intellekt və sərhəd mühafizəsində şəffaflıq

**Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbində "Sərhəd təhlükəsizliyinin təmin olunmasında müasir informasiya texnologiyalarının və süni intellektin rolu" mövzusunda elmi-praktik seminar keçirilib.**



Tədbirdə İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev, həmçinin Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının və İnformasiya Texnologiyaları İnstitutunun elmi işçiləri iştirak ediblər.

Çıxış edənlər müasir dövrdə informasiya texnologiyalarının və süni intellektin sürətli inkişafının sərhəd təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynadığını vurğulayıb, bu sahədə qabaqcıl təcrübələrin tətbiqinin vacibliyini diqqətə çatdırıblar.



Seminar çərçivəsində mövzu üzrə təqdimatlar dinlənilib, qarşılıqlı fikir mübadiləsi aparılıb, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Daha sonra Xüsusi Məktəbin kursantlarının musiqili çıxışı dinlənilib, onların informasiya texnologiyaları və süni intellektlə bağlı hazırladıqları videotəqdimatlar nümayiş olunub.

***XQ***

# Strateji Tərəfdaşlıq Xartiyasının regional sülhə təsiri

## *ABŞ-ın Qafqaz siyasətində Azərbaycanın əvəzolunmaz mövqeyi*

**Cənubi Qafqaz regionu dünyanın aparıcı güc mərkəzlərinin maraq dairəsində mərkəzi mövqeyə yüksəlib. Vaşinqton administrasiyasının regiondakı strateji hədəfləri yenilənib, rəsmi Bakı ilə münasibətlər yüksək müttəfiqlik səviyyəsinə çatıb. Bakıda aprelin 15-də keçirilən görüşlər beynəlxalq nəqliyyat, həmçinin təhlükəsizlik sisteminin gələcəyini müəyyən edən mühüm addımlardandır. İqtisadiyyat naziri Mikayıl Cabbarovun ABŞ Dövlət Departamentinin İqtisadi, Enerji və Biznes Məsələləri Bürosunun baş müşaviri Rebekka Neff, ABŞ Ticarət və İnkişaf Agentliyinin Avropa və Avrasiya üzrə ölkə meneceri Sara Leminq ilə apardığı danışıqlar qlobal strateji proseslərin tərkib hissəsidir. Tərəflərin müzakirə etdiyi detallar ümumi beynəlxalq siyasətin yeni yol xəritəsini formalaşdırır. Zahirən ticarət platforması kimi təqdim edilsə də, toxunulan mövzular dərin siyasi, eləcə də geostrateji təhlükəsizlik vizyonunu nümayiş etdirir.**



**ARAYIŞ:** *Azərbaycan-ABŞ Strateji Tərəfdaşlıq Xartiyası ilə bağlı işçi qrupunun yaradılması qərarı 2025-ci ilin avqustunda Vaşinqton görüşündə verildi, 10 fevral 2026-cı ildə Bakı şəhərində rəsmiləşdirilib. Sənəd Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ABŞ-ın vitse-prezidenti Ceyms Devid Vens tərəfindən imzalanaraq təsdiqlənib. Razılaşma regionda sülhün qorunmasını, Orta Dəhlizin inkişaf etdirilməsini, qlobal ticarət əlaqələrinin genişləndirilməsini, habelə siyasi, texnoloji, institusional ortaq fəaliyyəti təmin edən qlobal hüquqi aktdır. Xartiya iki dövlət arasında qlobal təhlükəsizlik mexanizmlərini müttəfiqlik formasına keçirən ali sənəd sayılır.*

Vaşinqtonun Cənubi Qafqaz xəttindəki fəallığı təsadüfi xarakter daşımır. Qərb geosiyasəti üçün Şərq ilə Qərb arasındakı əlaqələndirici vasitənin tamamilə müstəqil əllərdə olması xüsusi əhəmiyyətə malikdir. Dövlətlərarası münasibətlərdə Azərbaycanın mütləq üstünlükləri diqqət mərkəzindədir. Bakı uzaqgörən xarici siyasət kursuna görə ən etibarlı tərəfdaş kimi qəbul olunur. Vaşinqton Azərbaycanın Avrasiya tranzit qovşağındakı tənzimləyici roluna güvənərək regionla bağlı uzunmüddətli planlarını tətbiq edir. ABŞ rəhbərliyi xüsusilə cərəyan edən sürətli transformasiyalar dönəmində Şərqi Avropa və Mərkəzi Asiya arealında daha praqmatik yanaşma sərgiləməyə başlayıb. Yeni geostrateji doktrina sırf nəqliyyat infrastrukturunun ələ alınması vasitəsilə regional rəqiblərin sıxışdırılmasına hesablanıb. Bütün tərəflərlə məsafəli, lakin qətiyyətli rəftar etmək bacarığı Vaşinqtonun planlarında respublikamızı əvəzedilməz ölkəyə çevirir. 15 aprel görüşündə müzakirə predmeti kimi seçilən prioritet sahələr arasında süni intellekt, rəqəmsallaşma, irimiqyaslı texnoloji layihələr xüsusi vurğulanıb. Süni intellekt yarışında qlobal inhisara can atan Amerika hökuməti regionda yüksək texnologiyalar məkanının formalaşmasını hədəfləyir. Texnoloji sıçrayışın həyata keçirilməsində Qərb şirkətlərinin iştirakı ölkəmizin daxili informasiya təhlükəsizliyinin qorunmasını şərtləndirəcək. Kibertəhlükəsizlik sahəsində atılan ortaq addımlar hibrid müharibə təhdidlərinin tam qarşısının alınması istiqamətində fəaliyyət göstərir.

Regional təhlükəsizlik mühitinin mürəkkəbləşdiyi dövrdə Qərbin siyasi iradə nümayiş etdirməsi beynəlxalq dövlətlərin planlarına təsir göstərir. Uzun illər davam edən sükut dövrü sona çatıb. Beynəlxalq təşkilatların mövcud passivliyi qarşısında Amerika diplomatiyası təşəbbüsü tamamilə ələ alaraq Qafqazda mütləq aktivliyə keçib. Məsələnin ən həssas nöqtəsi məhz ölkəmizin regionda yeganə müstəqil qərargah funksiyasını daşımasıdır. Cənub və Şimal qonşularımızın yürütdüyü fərqli imperialist xətlərə rəğmən rəsmi Bakı təmkinli manevrlərlə təhdidləri dəf etməyi bacarır. ABŞ hökuməti Bakının güclü iradəsini diqqətlə incələdikdən sonra məhz respublikamızla uzunmüddətli koalisiya qurmağa qərar verib. Dövlətimizin milli maraqları çərçivəsində formalaşan xarici siyasət kursu qlobal qüvvələrin bölgədə atacağı addımların əsas bələdçisinə çevrilib. Vaşinqtonla ikitərəfli təmaslar heç vaxt sadəcə iştirak naminə xarakteri daşımır, əksinə, daimi müdafiə kəmərinin inşasını nəzərdə tutur.

Danışıqların zirvə nöqtəsində duran digər təşəbbüs "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) adı altında təqdim edilən beynəlxalq tranzit layihəsidir. Zəngəzur dərəsindən keçəcək tarixi yol bütün qitənin hərəkət mexanizmini kökündən dəyişdirəcək. Vaşinqtonun ortaq vasitəçiliyi sayəsində əldə edilən təməl protokola əsasən qurulacaq yeni struktur materikin ən qabaqcıl keçid mərkəzi olacaq. Marşrut respublikamızın əsas hissəsini Naxçıvanla bağlamaqla yanaşı, Asiyanı Avropa ilə qovuşduracaq xüsusi dəhlizdir. Mərkəzi kəşfiyyat idarələrinin, qlobal institutların diqqətlə izlədiyi bəhs edilən marşrut ənənəvi güclərin inhisarçı qüdrətini tamamilə zərərsizləşdirir. TRIPP layihəsinin beynəlxalq sənədlərdə qəbul edilməsi illərlə aparılan sərt diplomatik savaşın məntiqi yekunudur. Keçmiş mərhələlərdə marşrutun çəkilişinə süni əngəllər yaratmağa cəhd edən, bölgəyə kənar silahlı qruplaşmalar yerləşdirməyə çalışan dövlətlər artıq prosesdən tamamilə kənarlaşdırılıb. Amerikalı nümayəndələrin paytaxtımızda apardıqları aktiv məsləhətləşmələr TRIPP konsepsiyasının fiziki və kiber təhlükəsizliyini təmin etməyi nəzərdə tutulur. Şərq və Qərbi birləşdirən coğrafi xətt tranzit ölkələrin suverenliyini qorumaq missiyasını icra edəcək.

Əsrlər boy müxtəlif dövlətlərin qarşıdurma zonası hesab edilən Qafqaz, nəhayət, qlobal sabitlik mərkəzinə çevrilir. Əvvəlki dövrlərdə rəsmi Moskva əlindəki hərbi-siyasi vasitələrdən istifadə edərək regionu sıxıntı içərisində saxlamağı bacarırdı. Eyni zamanda, Cənub istiqamətindən gələn dini-siyasi motivli müdaxilələr coğrafiyanın sərbəst nəfəs almasını mümkünsüz hala gətirirdi. Lakin paytaxtımızın qətiyyətli, zərgər dəqiqliyi ilə hesablanmış təhlükəsizlik siyasəti mövcud asılılıq zəncirlərini yox səviyyəsinə endirdi. Rəsmi Bakı əvvəlcə daxili problemlərini təməlli həll etdi, sonradan qlobal alyansların diqqətini cəlb edərək nizamlayıcı funksiya yerinə yetirdi.

Tarixi ardıcıllıqla yanaşdıqda bütün konseptual addımların təməlində innovativ idarəetmə protokolları durur. TRIPP xüsusi əhəmiyyətə malik strateji elementlərlə təchiz olunaraq yaradılıb. Layihənin coğrafi tərtibatı yalnız malların daşınmasını nəzərdə tutmur. O, eyni zamanda, fiber-optik magistralların, enerji transmissiya borularının şaxələndirilməsini, həmçinin fərqli miqyaslı informasiya inteqrasiyasını əhatə edir. Qitələrarası düyün məhz Zəngəzur ərazisində reallaşacaq. Vaşinqton mövcud prosesləri ali diplomatik intellektlə sürətləndirməyi bacarıb. Nəticədə, mütləq beynəlxalq hüquqa əsaslanan struktur ərsəyə gəlib.

Beynəlxalq arenada yeni nizam formalaşan anlarda kənar müqavimət hallarının peyda olması labüd görünür. Mütləq nəzərə alınmalıdır ki, irimiqyaslı layihələr bəzi mərkəzlərdə qorxu yaradır. Çünki mövcud inkişaf kənar ölkələrin məhdudlaşdırıcı manevrlərini darmadağın edir. Xarici kəşfiyyat idarələrinin təxribat fəaliyyətləri işləksiz mexanizmə dönüşür. Formalaşan reallıq daxilində Vaşinqtonla yaradılan rəsmi müttəfiqlik gələcək hər aqressiya təhlükəsini yaranmadan əvvəl zərərsizləşdirir. Azərbaycan praqmatik yanaşma ilə qitələrarası gücləri bir platformada toplayan əsas hərəkətverici qüvvədir. Müzakirələrin açıq müstəvilərdə, böyük nümayəndə heyətləri çərçivəsində cərəyan etməsi xəbərdarlıq səciyyəsi daşıyır ki, şəffaf şəkildə bütün məqsədlər irəliyə doğru addımlayır. Amerika rəsmiləri də bəhs edilən nizamı dəstəkləyərək ikitərəfli müzakirələrdə yüksək etimad nümayiş etdirirlər.

*Yusif ŞƏRİFZADƏ*
*XQ*

# "Casus-2", yoxsa seçki "çətiri"?

## *Avropa İttifaqı Ermənistana ikinci mülki missiya göndərir*

**Bu gün Cənubi Qafqazın üç ölkəsi öz siyasi trayektoriyasını böyük ölçüdə müəyyənləşdirərək gələcək yolunu cızıb. Azərbaycan təkcə yerləşdiyi bölgədə deyil, qlobal miqyasda davamlı, müstəqil və balanslı xarici siyasət yürütməyi bacaran lider ölkə kimi sayılıb-seçilir.**

Gürcüstan konstitusiya ilə təsbit olunmuş Avro-Atlantik kursunu qorumaqla yanaşı, regional riskləri sığortalamaq məqsədilə ehtiyatlı siyasət yürüdərək həm Qərb, həm də Şərq ilə iqtisadi-tranzit əlaqələrini uğurla diversifikasiya edir. Ermənistan isə onilliklər boyu bağlı olduğu təhlükəsizlik arxitekturasından kəskin şəkildə qoparaq mürəkkəb geosiyasi axtarışlar fonunda bölgədəki siyasi aktivliyini artırmağa çalışır. Lakin keçid dövründə nisbətən iradəsiz xarici siyasət sərgiləyən rəsmi İrəvan faktiki olaraq Rusiya və Qərb arasında gərgin mübarizə meydanlarından birinə çevrilib.

İyunun 7-də Ermənistanda keçiriləcək parlament seçkiləri ölkənin gələcək siyasi kursunu böyük ölçüdə müəyyən edəcək. Baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi hakim partiyanın qələbəsi Ermənistanın avrointeqrasiya xəttini daha da gücləndirəcək və Rusiya ilə münasibətlərdəki mövcud çatları genişləndirəcək. Əks ssenari isə Kremlin ölkədəki təsir dairəsini bir müddət də qorumasına şərait yaradacaq. Həm Qərb, həm də Rusiya üçün Ermənistanda nüfuz imkanlarını artırmaq baxımından həlledici olan bu seçkilər ərəfəsində Kremlin seçki prosesinə mümkün birbaşa müdaxilə imkanlarına biganə qalmaq istəməyən Avropa İttifaqı (Aİ) ölkələrinin səfirləri aprelin 15-də Brüsseldə Ermənistana yeni mülki missiyanın (EUMP) göndərilməsi barədə qərar qəbul ediblər. Strateji və praktiki məsləhətlər verməklə təhlükəsizlik qurumlarına dəstək olmağı və Ermənistanın hibrid təhdidlərə qarşı dayanıqlığını artırmağı hədəfləyən "ikinci missiya" faktiki olaraq bölgədə Rusiyanın təsirini zəiflətmək məqsədini gizlətmir. Bəs, mahiyyət etibarilə bu yeni missiyanın əvvəlkindən fundamental fərqləri nədən ibarətdir və pərdəarxası məqsədlər hansılardır?

2022-ci il oktyabrın 6-da Praqada keçirilən Zirvə toplantısı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev, Fransa prezidenti Emmanuel Makron, Ermənistanın baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel arasında görüşün nəticəsi olaraq 2 aylıq müddətdə razılaşdırılan Avropa İttifaqının Ermənistandakı mülki missiyasının fəaliyyəti ötən il yanvarın 30-da qəbul edilən yeni qərarla 2027-ci il fevralın 19-na qədər uzadılıb. Rəsmi Bakı bu proseslə bağlı mövqeyini dəfələrlə bəyan edərək bildirib ki, Azərbaycanın razılığı olmadan sərhəddə yerləşdirilən bu missiyanın fəaliyyəti qəbuledilməzdir. Şərti sərhəddə gərginliyin və atışmaların qarşısını almaq bəhanəsi ilə bölgəyə ezam olunmuş bu heyətin monitorinqləri dövründə Ermənistan tərəfindən Azərbaycan mövqelərinin dəfələrlə atəşə tutulması missiyanın effektivliyini ciddi şübhə altına qoyub.

(ardı 4-cü səhifədə)

**Cənubi Qafqaz uzunmüddətli münaqişə dövrünü geridə qoyaraq iqtisadi tərəfdaşlıq və geosiyasi yenidənqurma mərhələsinə keçib. Nikol Paşinyan və Vladimir Putin arasında son görüş bu dinamikanı yenidən gündəmə gətirməklə regiondakı strateji prioritetlərin dəyişdiyini göstərdi. Ekspertlərin "post-münaqişə transformasiyası" adlandırdığı bu dövr Ermənistan–Azərbaycan münasibətlərindəki sabitlik, kommunikasiyaların açılması və TRIPP kimi mühüm layihənin aktuallaşması ilə xarakterizə olunur.**

# TRIPP layihəsi: geoiqtisadi maraqların yeni mərkəzi

Bu çərçivədə Nikol Paşinyanın "Tramp marşrutu" (TRIPP) layihəsini yenidən ön plana çıxarması İrəvanın yürütdüyü siyasətin məntiqi nəticəsidir. Baş nazir açıq şəkildə bəyan edib ki, İrəvan və Vaşinqton arasında strateji əhəmiyyət kəsb edən bu təşəbbüsün qısa müddətdə reallaşdırılması Ermənistan üçün prioritetdir. Bu bəyanatın Moskva təmaslarından sonra səsləndirilməsi İrəvanın həm Rusiya, həm də Qərb istiqamətində balanslaşdırılmış siyasət yürütmək cəhdindən xəbər verir.

Parlamentdəki "hökumət saatı"ndakı çıxışında Paşinyan qeyd edib ki, Ermənistan tərəfi ABŞ-dan layihəyə ən yüksək səviyyədə marağın davam edəcəyi ilə bağlı təminatlar alıb. Dövlət Departamentinin "TRIPP Cənubi Qafqazda sülh və rifahın təşviqi baxımından ABŞ-ın prioritetlərindən biri olaraq qalır və Tramp administrasiyası onun gerçəkləşdirilməsində qərarlıdır" – açıqlaması onun təkcə iqtisadi deyil, həm də ciddi geosiyasi çəkiyə malik olduğunu təsdiqləyir. Bu, eyni zamanda layihənin reallaşmasına qarşı çıxanların iddialarını ciddi şəkildə zəiflədərək onların arqumentlərinin təsir gücünü azaldır və mövqelərini daha da dayanıqsız və inandırıcılıqdan uzaq vəziyyətə salır.

Baş nazirin sözlərinə görə, son dövrlər layihənin icra tempi nəzərəçarpacaq dərəcədə artıb. Marşrut çərçivəsində elektrik qolları təkcə Ermənistan daxilində deyil, həm də ölkə hüdudlarından kənarda mövcuddur".

Baş nazir əlavə edib ki, Azərbaycanın dəmir yolu vasitəsilə tədarüklərin başlaması Ermənistanın xarici şoklara qarşı dözümlülüyünü artırıb. Şübhəsiz ki, bu nəqliyyat arteriyası olmasaydı, xüsusilə Hörmüz boğazı ətrafında yaranmış geosiyasi gərginlik Ermənistanın enerji təhlükəsizliyinə və iqtisadiyyatına qat-qat ağır zərbə vura bilərdi.

Məlumdur ki, bu addımın reallaşmasında Prezident İlham Əliyevin qərarı həlledici rol oynayıb və Paşinyanın bu qərara görə təşəkkür etməsi siyasi ritorikada yeni mərhələnin başladığını göstərir. Mövcud geosiyasi transformasiya TRIPP layihəsinin icrasına yaşıl işıq yandırmaqla, regionun iqtisadi gələcəyi üçün yeni perspektivlər açır. Həmçinin Ermənistanın Azərbaycandan Türkiyəyə və əks istiqamətdə tranzitə hazır olması regionda qarşılıqlı iqtisadi asılılıq modelini formalaşdırır. Bu yanaşma klassik təhlükəsizlik dilemmasını zəiflədərək iqtisadi rasionalizmi ön plana çıxarır.

* * *

TRIPP layihəsi münaqişə risklərini azaldan və Cənubi Qafqazı qlobal sistemə inteqrasiya edən strateji platformadır. ABŞ-dan alınan dəstək Ermənistana onilliklərdir davam edən təcriddən çıxmaq, daxili istehsalı xarici bazarlara çıxarmaq və büdcəyə sabit tranzit gəlirləri cəlb etmək imkanı verir. Logistik və enerji diversifikasiyası isə İrəvanın beynəlxalq arenada manevr imkanlarını genişləndirərək, onu regional arxitekturanın aktiv iştirakçısına çevirir.




ötürücü xətlərinin planlaşdırılandan daha tez inşasının müzakirə olunması layihənin konseptual mərhələdən praktiki müstəviyə keçdiyini göstərir. O da bildirilir ki, Tramp marşrutunun həyata keçirilməsinə digər ölkələrin də qoşulması gözlənilir. Layihənin idarə olunması mərhələsində də oxşar əməkdaşlıq formatı istisna edilmir.

Paşinyanın xüsusi qeyd etdiyi digər məqam isə Azərbaycanın da bu prosesdə maraqlı tərəf kimi çıxış etməsidir. Bu detal regionda iqtisadi layihələrin siyasi ziddiyyətləri neytrallaşdırdığı yeni bir əməkdaşlıq mühitindən xəbər verir. Bu, göstərir ki, TRIPP ikitərəfli təşəbbüs deyil, Cənubi Qafqazın əsas nəqliyyat və enerji arteriyasına çevriləcək geniş regional platformadır.

Layihənin reallaşması üçün regiondakı geosiyasi mühit də əhəmiyyətli dərəcədə sabitləşib. Baş nazir bu vəziyyəti son dövrdə ikitərəfli əlaqələrlə yanaşı, həm də İran ətrafında formalaşan risklərin azalması ilə əlaqələndirib. O, Strasburqdakı çıxışında da bildirib ki, 1991-ci ildən bəri ilk dəfə Ermənistan–Azərbaycan sərhədində səkkiz ay ərzində heç bir itki qeydə alınmayıb. Bu fakt təhlükəsizlik mühitinin fundamental şəkildə dəyişdiyinin əyani göstəricisidir. Yerli medianın "sərhəddə səssizliyin institusionallaşması" kimi xarakterizə etdiyi yeni reallıq həm hərbi, həm də sosial sabitliyin bərpası anlamını daşıyır.

Digər tərəfdən, regional nəqliyyat kommunikasiyalarının bərpası siyasi proseslərlə paralel şəkildə sürətlənib. 2025-ci ilin noyabrında Azərbaycan və Gürcüstan marşrutu ilə hərəkət edən qatarın Ermənistana çatması beynəlxalq analitiklər tərəfindən regionun blokadadan faktiki çıxışı kimi qiymətləndirilir. Paşinyan parlamentdəki çıxışında bu hadisənin strateji əhəmiyyətini vurğulayaraq qeyd edib ki, ABŞ, Azərbaycan və Ermənistan hökumətləri kommunikasiyaların açılmasını bir nömrəli prioritet hesab edirlər. O, həmçinin əlavə edib ki, Azərbaycan dəmir yolunun Ermənistan üçün açılması reallaşmasaydı, qlobal böhranlar və inflyasiya ölkə iqtisadiyyatına daha ağır zərbələr vura bilərdi.

Paşinyan həmçinin vurğulayıb ki, Azərbaycandan neft məhsullarının idxalı ölkə vətəndaşlarına 10 milyardlarla dram qənaət etmək imkanı yaradıb. Onun sözlərinə görə, bu tədarüklər daxili bazarda uzun illər davam edən monopoliyanın tamamilə aradan qaldırılmasında həlledici amil olub: "Bu prosesin 8 il çəkməsinin səbəbi mütəşəkkil mafioz strukturlarla mübarizə aparmağımızdır. Bu mafiyanın qolları təkcə Ermənistan daxilində deyil, həm də ölkə hüdudlarından kənarda mövcuddur".

**BMTM-in aparıcı məsləhətçisi Sultan Zahidov** mövzu ilə bağlı bildirib ki, bu proses Azərbaycan–Ermənistan münasibətlərində yeni mərhələnin göstəricisidir və davamlı sülhə birbaşa töhfə verir: "Sülh nəzəriyyəsinə (və ya kapitalist sülh nəzəriyyəsi) əsasən, dövlətlər arasında fəal ticarət əlaqələri mövcud olduqda münaqişə ehtimalı azalır. İkinci Dünya müharibəsindən sonra Fransanın və Almaniyanın təcrübəsi bunun aydın nümunəsini təqdim edir. Strateji baxımdan önəmli Rur regionunda əməkdaşlıq, eləcə də Kömür və Polad Birliyi və digər sazişlərin yaradılması davamlı sülhün əsasını qoydu".



Beləliklə, TRIPP layihəsi Cənubi Qafqazda 30 ildən çox hökm sürən klassik "təhlükəsizlik dilemması"nı müasir "iqtisadi rasionallıq" modeli ilə əvəz edən fundamental transformasiyadır. Nikol Paşinyanın bu təşəbbüsü strateji prioritet kimi təqdim etməsi və rəsmi Bakının nəqliyyat blokadasını aradan qaldıran praktiki addımları regionun artıq hərbi rəqabət meydanı deyil, qlobal logistik qovşaq olmaq iradəsini nümayiş etdirir.

TRIPP, sadəcə, bir yol deyil, həm də sülhü qoruyan institusional mexanizmdir. Layihənin uğuru Ermənistanın təcriddən çıxması, Azərbaycanın Avrasiya miqyasında əvəzolunmaz tranzit mərkəzi kimi mövqeyini gücləndirməklə yanaşı, gəlir əldə etmək baxımından da faydalıdır. Beynəlxalq təcrübə, xüsusilə Fransa və Almaniya arasındakı tarixi barışıq nümunəsi göstərir ki, strateji resursların və marşrutların birgə idarəetməyə verilməsi uzunmüddətli sülhün ən etibarlı qarantıdır.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# “Casus-2”, yoxsa seçki “çətiri”?

(əvvəli 3-cü səhifədə)

Hazırda sayı 225 nəfərə çatan missiyanın ötən ilin 8 avqustunda baş tutan Vaşinqton görüşündən sonra hələ də bölgədə qalması və fəaliyyətini davam etdirməsi, mövcud reallıqlar fonunda, yumşaq desək, yersiz görünür.

* * *

Aİ-nin Ermənistanda 2 il müddətinə planlaşdırdığı yeni “Tərəfdaşlıq Missiyası” (EUPM) regionda onsuz da kövrək olan sabitliyi növbəti dəfə ciddi sınaq qarşısında qoyur. Lakin bu addımın pərdəarxası məqamlarına diqqət yetirdikdə, hədəfin heç də Azərbaycan deyil, birbaşa Rusiyanın bölgədəki mövcudluğu olduğu aydın görünür. Təxminən 20-30 nəfərlik beynəlxalq heyətlə fəaliyyətə başlayacaq yeni mülki missiya, əslində, Ermənistanın daxili siyasi konfiqurasiyasını Kremlin onilliklərlə formalaşdırdığı təsir rıçaqlarından təmizləmək məqsədi daşıyır.

Xüsusilə də qrupun mandatında seçki proseslərinə nəzarət, kibertəhlükəsizlik standartlarının tətbiqi və informasiya manipulyasiyasına qarşı mübarizə kimi bəndlərin yer alması Qərbin rəsmi İrəvan daxilində özünə sadiq və Rusiyadan asılı olmayan yeni siyasi mühit yaratmaq niyyətindən xəbər verir. Şübhəsiz ki, Bakı bu cür birtərəfli addımları öz suverenliyinə və sülh prosesinə kənar müdaxilə kimi qiymətləndirib narahatlığını ifadə etsə də, məsələnin kökündə daha çox Qərbin Ermənistandakı strateji institutları Moskvanın nəzarətindən qoparmaq cəhdi dayanır. Çünki əvvəlki EUMA təcrübəsi də bir daha sübut etdi ki, bu cür missiyalar regionda real etimad yaratmaq əvəzinə, daha çox böyük güclərin rəqabət meydanında propaqanda alətinə çevrilir. Beləliklə, Brüsselin “təhlükəsizliyi möhkəmləndirmək” adı altında atdığı bu addım, görünür, Cənubi Qafqazda Rusiyanı sıxışdırıb çıxarmaq üçün qurulan yeni hərbi-siyasi poliqonun tərkib hissəsidir və bu da bizi həm seçkilərə qədər, həm də seçkilərdən sonra kifayət qədər maraqlı hadisələrin gözlədiyindən xəbər verir.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*

**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**



Yeni missiyanın Azərbaycana birbaşa aidiyyəti yoxdur. Bu, daha çox Rusiya amili ilə bağlıdır. Yəni Ermənistandakı seçki proseslərinə mümkün müdaxilələrin qarşısını almaq, mövcud hökumətə dəstək vermək və revanşist qüvvələri müşahidə altında saxlamaq məqsədi daşıyır. Müdaxilə meyilləri isə artıq açıq müstəvidədir. Məsələn, Rusiya tərəfi Ermənistan baş naziri ilə görüşdə Rusiyayönümlü qüvvələrə şərait yaradılmasını və onların seçkilərdə iştirak edərək hakimiyyət dəyişikliyinə nail olmaq istəklərini gizlətməmişdi.

Buna bənzər müdaxilə cəhdləri Moldova seçkilərində də kifayət qədər qabarıq və mənfi formada özünü göstərmişdi ki, həmin vaxt Avropa ölkələri Moldovaya ciddi dəstək nümayiş etdirdilər. İndi eyni missiyanın Ermənistanda həyata keçirilməsi planlaşdırılır.

Hesab etmirəm ki, bu vəziyyət Azərbaycanı ciddi narahat etməlidir. Çünki “rusmeyilli qüvvələr” kimi tanınan qruplar (məsələn, Samvel Karapetyan, Qagik Tsarukyan və b.) Azərbaycan–Ermənistan arasında sülhün əldə olunmasına və münaqişənin tamamilə bitməsinə qarşı çıxılar. Əgər bu qüvvələr Rusiyadan dəstək alırsa və Avropa buna qarşı Paşinyan iqtidarına kömək edirsə, bu, bizim maraqlarımıza zidd deyil, əksinədir.

O ki qaldı missiyanın yerləşməsinə, bəli, bizim tərəfdar olduğumuz sülh prinsiplərində qeyd olunub ki, sülh əldə edildikdən sonra Azərbaycan-Ermənistan sərhədlərində heç bir üçüncü dövlətin qüvvəsi yerləşdirilməməlidir. Ona görə də həmin missiya sərhədlərdən uzaqlaşdırılaraq İrəvanda fəaliyyət göstərəcəksə, buna etiraz etmək üçün əsas yoxdur. Bu, onların daxili işi hesab olunur.



### *Ekspert rəyi*

**İrina TSUKERMAN,**
**beynəlxalq hüquq üzrə**
**amerikalı ekspert**



Yeni missiyanın fəaliyyəti, şübhəsiz ki, Moskvada xüsusi qıcıq yaradacaq. Qərb Ermənistana hibrid təhdidlərə qarşı dayanıqlılığın gücləndirilməsi bəhanəsi ilə müdaxilə edərək ölkədə rus təsirini sıfıra endirməyə çalışır. Bu gün Moskvanın ünvanladığı sual bundan ibarətdir: Rəsmi İrəvan üçün hansı siyasi gedişin – Rusiya, yoxsa Qərb amilinin daha uğurlu olacağına və ən nəhayət, Ermənistanda təhlükəsizliyin hansı kənar qüvvələrə həvalə edilməsinə kim qərar verməlidir: xalq, yoxsa hökumət?

Məhz buna görə Rusiya bu missiyanı parlament seçkiləri ərəfəsində siyasi təsir aləti kimi qiymətləndirir. Nazirliklərə, ekspert dairələrinə və institutlara çıxışı olan, dayanıqlılıq, dezinformasiya ilə mübarizə, seçki mühitinin qorunması kimi sahələrdə işləyən istənilən xarici qurum daxili siyasi balansın bir hissəsinə çevrilir. Moskvanın yanaşmasına görə, Aİ təkcə müşahidəçi deyil, həm də seçki mühitini formalaşdırmağa çalışan aktordur.

Rusiyanın cavabı böyük ehtimalla üç cəbhədə formalaşacaq: informasiya, iqtisadi və daxili siyasi. Moskva iddia edəcək ki, Avropa missiyası neytral deyil və anti-Rusiya gündəmi daşıyır, Ermənistan isə Qərbin regiondakı möhkəmlənməsi üçün platformaya çevrilir. Eyni zamanda, Rusiya iqtisadi rıçaqlardan istifadə edərək enerji, logistika və ticarət kimi sahələrdə təzyiqi artıra bilər. Daxili müstəvidə isə bu məsələ hakimiyyətə qarşı arqument kimi təqdim olunacaq bu, xüsusilə seçkiqabağı dövrdə fəallaşacaq.

Yekunda qeyd edə bilərəm ki, Ermənistandakı yeni Aİ missiyası regional müstəvidə üçqat effekt yaradacaq. Rusiya üçün bu addım İrəvanın Qərbin siyasi-təhlükəsizlik orbitinə doğru qəti addımlarla irəlilədiyinin rəsmi sübutu olacaq. Azərbaycan tərəfi üçün isə missiyanın fəaliyyəti sülh danışıqları prosesində Ermənistanın atacağı hər bir addımı daha diqqətlə və ehtiyatla izləmək üçün ciddi əsaslar formalaşdıracaq. Ermənistanın özünə gəldikdə, İrəvan bu prosesdən müəyyən fayda və dividendlər qazanacaqsa da, eyni zamanda, Moskva ilə münasibətlərin daha da pisləşməsinə səbəb olacaq.

# Müharibə canilərini müdafiə Bakıya siyasi təzyiq cəhdidir

## *Miriam Leksmann və onun kimilər qulaqlarında nəyi sırğa etməlidirlər?*

**Dünya Avropa Parlamentinin deputatı, qurumun Beynəlxalq Əlaqələr Komitəsinin üzvü Miriam Leksmann kimi ermənipərəst qiyafəyə bürünmüş ədalətsiz və haqsız yanaşma daşıyıcılarından, saxtakarlardan xali deyil. Artıq duruma nə təəssüflənir, nə də təəccüblənirik. Axı leksmanları çox görmüş, onların əndazəsiz çıxışlarına dəfələrlə şahidlik etmişik.**

Yada salaq ki, ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Birgə Bəyannamə imzalananda M.Leksmann özünün digər ermənipərəst korrupsioner dostları ilə birgə bəyanat yaymış və Ermənistan ərazilərində Azərbaycan qoşunlarının olduğunu iddia etmişdi. İndi isə bu xanım bildirib ki, “Avropa İttifaqı və ABŞ Azərbaycana erməni əsirlərini azadlığa buraxması üçün təzyiq göstərməlidir”.



Ümumən, dünyada, o cümlədən, Avropada Azərbaycanla təzyiq dilində danışmağın mümkünlüyünü ağlına vuranların hələ də qalması bir bəladır. Amma məsələ bunda deyil. Baxın, slovakiyalı parlamentari Leksmann daha çox insan hüquq və azadlıqları, bəşəri dəyərləri müdafiə etməsi ilə seçilir. İlk sual budur ki, nəyə görə o, sadalanan prinsipləri məhz Ermənistanın xeyrinə gündəmə gətirir? Məgər reallıqları görmək və qiymətləndirmək bu qədərmi çətindir?

Reallıq budur ki, Leksmanın və onun kimilərinin erməni əsir dedikləri şəxslər müharibə cinayətkarıdırlar və günahları sübuta yetirilib. Yəni mövzunu siyasi ritorika alətinə çevrilmək yolverilməz və qəbuledilməzdir. Görəsən, xanım deputat o dövrün müasiri olsaydı, İkinci Dünya müharibəsinə görə Nürnberqdə mühakimə edilmiş cinayətkarların azadlığa çıxmaları üçün çağırış səsləndirərdimi? Əlbəttə ki, yox! Nə o səsləndirərdi, nə də onun ermənipərəst həmkarları. Elə isə ortaya başqa suallar çıxır: bu şəxslər indi nə üçün ortaya düşüblər? Leksmanların Azərbaycanın ədalət mühakiməsini şübhələndirmələri nəyə xidmətdir?

Əslində, bu suallara cavabı lap başlanğıcda dolayısı ilə verdik. Məsələ ondadır ki, Leksmann və onun kimilər qatı ermənipərəstdirlər və onların çirkinlikləri və eybəcərlikləri ali dəyərləri, habelə insan hüquq və azadlıqlarını vasitəyə çevirmələri, bu dəyərlərlə manipulyasiya yolu tutmalarıdır. Belə yanaşmanın bir yumşaq adı var. Söhbət riyakarlıqdan gedir. Daha bir sual riyakarlığın nə üçün meydana çıxması ilə bağlıdır.

Təkcə M.Leksmanın yox, ümumən Avropa Parlamentinin, demək olar, bütün deputatlarının qitənin erməni lobbi və diaspor təşkilatları ilə sıx əlaqədə olmaları, bu təşkilatların təmsilçilərindən rüşvət alaraq xirtdəyədək çirkaba bulaşmaları indinin söhbəti deyil. Yəni leksmanlar özlərində barəsində söz açdığımız insan hüquq və azadlıqları kimi ali dəyərləri asanlıqla, loru dildə desək, bazarlığa çıxarmaq potensialını daşıyırlar. Özü də bu zaman heç bir mənəvi əzab və iztirab çəkməyəcək qədər həyasızdırlar. Onların həyasızlıqları isə bütövlükdə Avropa demokratiyası üçün böyük utancdır.

Leksmanların həyasızlıqları həm də ona görə böyük utancdır ki, Azərbaycan tərəfindən günahları sübuta yetirilmiş müharibə cinayətkarları olan ermənilərin basdırdıqları minalar hələ də can almaqdadır. Görəsən, xanım parlamentari bundan danışarmı? Əlbəttə ki, danışmaz. Çünki onun ağzını köpükləndirməyinin və ucuz populizmi işə salmağının yalnız ermənipərəstlik motivi var. Hansısa bəşəri məqsəd naminə fikir bildirib çağırış etmək belələri üçün lazımsızdır. Çünki xeyirləri yoxdur. Axı Leksmann və onun kimilər primitiv düşünəcəli, ancaq öz xeyirlərini güdən hissiz manqurtdurlar.

Sonda bir məqamın üzərində də dayanaq. Məlumdur ki, daimi olaraq Avropanın erməni lobbi və diaspor təşkilatlarından “qidalanan” leksmanların dilə gəlmələri çox vaxt hansısa fərdi təşəbbüsdən qaynaqlanmır. Belə buyruq qulları, adətən, hansısa mərkəzlərin öz nəzərlərində böyütdükləri, qlobal önəm verdikləri siyasi tapşırıqları yerinə yetirmək üçün ortaya atılırlar. Heç şübhəsiz, indi də vəziyyət eynidir.

Nəzərə alaq ki, Leksmann adi ermənipərəst deyil, eyni zamanda, Ermənistanın hazırkı iqtidarı olan baş nazir Nikol Paşinyan administrasiyasının fəal təbliğatçısıdır. Deməli, ayının min oyununun bir armudun başında olduğunu düşünək. Leksmann və onun kimilər Bakı həbsxanalarında yatan müharibə canilərinin azadlığa çıxmaları üçün ona görə çalışırlar ki, Paşinyan və komandası qarşıdan gələn parlament seçkilərində üstün mövqeyə yiyələnsin, hay ictimai rəyində müsbət qarşılansın və yekunda bütün bunlar iqtidarın qələbəsi reallığını doğursun.

Əlbəttə, Azərbaycanda da Paşinyanın seçki qalibi olmasını istəyənlər çoxdur. O mənada ki, hazırda o və komandasının üzvləri cəmiyyətimiz üçün ən yaxşı erməni obrazının təmsilçiləridirlər. Nəzərə alaq ki, belə bir obrazın formalaşması adi məsələ sayıla bilməz. Amma...

Rəsmi Bakı Ermənistanla ticarət əlaqələrinin inkişafını sülhün başlıca komponenti olaraq dəyərləndirir və qonşusuna neft məhsullarını ixrac edir. Bu ixrac nəticəsində Paşinyan və iqtidarının təmsilçiləri ölkələrində yanacağın qiymətinin aşağı düşməsindən seçkiqabağı dividend kimi yararlanırlar. Yararlansınlar, buna sözümüz yoxdur.

“Əmması” budur ki, Leksmann kimi yağışdan sonra çıxmış göbələyə bənzərlər əlavə nə üçünsə özlərinə əl qatmasınlar. Eləcə də onları ortaya atanlar düşünsünlər ki, Azərbaycandakı ictimai rəy müharibə cinayətkarlarının sərbəst buraxılmalarına icazə vermir. Azərbaycan dövləti cəmiyyəti qarşısına almır və almaz.

Deməli, sülh və əmin-amanlıq, habelə bunun üçün yuxarıda göstərdiyimiz ticarət təşəbbüsləri və jestlər öz yerində, cinayətkarlar layiq olduqları cəzanı çəkməlidirlər. Hər hansı güzəştdən söhbət gedə bilməz. Leksmanların və onları hərəkətə gətirənlərin bu reallığı qulaqlarında sırğa etmələri şərtdir. Onlar onu da düşünməlidirlər ki, cəfəng məsələləri qaldırmaqla Ermənistana və erməni iqtidarına xeyir vermir, ancaq ziyan vururlar.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Bakı–Moskva: təyyarə olayı və “buzların əriməsi”

## *Azərbaycan və Rusiya XİN-in birgə bəyanatına sözardı 6 məqam*

**Azərbaycan və Rusiya arasında “buzlar əriməyə” başlayıb. Hər halda, hər iki ölkənin xarici işlər nazirliklərinin yaydıqları birgə bəyanata görə durumu belə qiymətləndirmək mümkündür. Ümumən isə 2024-cü il dekabrın 25-də baş vermiş təyyarə olayı ilə bağlı sənəd bir neçə cəhətdən önəmlidir. Yazımızda bu mənada 6 məqam üzərində dayanacağıq.**

**Birinci məqam.** Məlumdur ki, sözügedən hadisə Bakı və Moskva arasında ciddi soyuqluq yaratmış, sonra yaşananlar isə bu soyuqluğun əhatə dairəsini xeyli dərinləşdirmişdi. O qədər dərinləşdirmişdi ki, hətta bəzən diplomatik əlaqələrə son qoyulacağı təsəvvürü də formalaşmışdı. Hazırkı bəyanat belə bir xoşagəlməz vəziyyətə qarşı, bir növ, ciddi immunitet təminatıdır.



**İkinci məqam.** Məsələ Azərbaycanın prinsipiallığı ilə bağlıdır. Məlum olduğu kimi, dövlətimiz ilk gündən qətiyyətli davranmış, təyyarə olayına obyektiv hüquqi qiymətin verilməsini və hadisənin baş verməsində əli olanların qanun qarşısında cavabdehlik daşımalarını tələb etmişdir. Hazırkı bəyanat bunun baş verəcəyinə əminlik yaradır.

**Üçüncü məqam.** Hüquqi qiymətdən söz düşmüşkən, uzun müddət mövcud istiqamətdə, belə demək mümkünsə, axsamalar baş vermişdi. Bəyanatda “Rusiya Federasiyasının hava məkanında hava hücumundan müdafiə sisteminin qeyri-ixtiyari fəaliyyəti nəticəsində “Azərbaycan Hava Yolları”na (AZAL) məxsus Embraer 190 tipli təyyarənin Aktau şəhəri yaxınlığında qəzaya uğraması” ifadəsi yer alır. Hava hücumundan müdafiə sistemi işə düşübsə, onun qeyri-ixtiyari və ya hansısa başqa səbəbdən fəaliyyətə başlaması bir o qədər önəmli deyil. Əsas nəticədir. Nəticə isə budur ki, təyyarəmiz yerdən atəşə məruz qalıb. Deməli, atəş açanlar cəzalarını almalıdırlar. Birgə bəyanat bu məqamın vurğulanması baxımdan da təminat mahiyyəti daşıyır.

**Dördüncü məqam.** Bir daha Azərbaycanın prinsipiallığı üzərində dayanaq. O da məlumdur ki, uzun müddət təyyarə olayı ilə əlaqədar açılmış cinayət işi, demək olar, dondurulmuşdu. Lakin Azərbaycan və Rusiya prezidentləri ötən il oktyabrın 9-da Düşənbədə görüşdülər və həmin təmas zamanı hadisəyə obyektiv qiymətin verilməsinə dair anlaşma əldə olundu.

Amma qəribədir ki, bu anlaşmadan sonra Rusiyadan Azərbaycan Baş Prokurorluğuna məktub ünvanlanmış və məlum cinayət işinə xitam verildiyi bildirilmişdi. Əlbəttə, rəsmi Bakı bununla razılaşmamış, diqqəti Düşənbə görüşünün ab-havasına yönəltmişdi. Yəni bu mənada da hazırkı bəyanat ölkəmizin prinsipial davranışının məntiqi nəticəsi sayıla bilər.

**Beşinci məqam.** Bəyanatda bildirilib ki, tərəflər təyyarə olayı ilə bağlı kompensasiyanın ödənilməsi də daxil olmaqla, qəzadan irəli gələn məsələlərin müvafiq şəkildə həlli barədə razılığa gəliblər. Bu məqamın rəsmi sənəddə vurğulanması ədalətli yanaşma baxımından son dərəcə vacibdir. Eyni zamanda, sənəddə təyyarə olayına obyektiv münasibət xüsusunda atılan addımlar Azərbaycanla Rusiya arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti çərçivəsində faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tərəflərin ortaq səylərini nümayiş etdirdiklərinin təzahürü olaraq qiymətləndirilib. Əslində, ən başından məsələyə məhz mövcud prizmadan yanaşılmalı idi. Rəsmi Bakının zaman-zaman bildirdiyi də elə bu olub.

**Altıncı məqam** az öncə ifadə etdiyimiz fikrin davamıdır. Azərbaycan və Rusiya XİN-in birgə bəyanatında Bakı–Moskva münasibətlərinin qarşılıqlı hörmət, etimad və tərəflərin maraqlarının nəzərə alınması əsasında davamlı inkişafa, mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə və iki ölkənin xalqlarının mənafeyi naminə əməkdaşlığın genişlənməsinə töhfə verəcəyinə inam aşılanıb.

Deməli, əvvəldə haqqında söz açdığımız buzların əriməsi məntiqi yerindədir. Bu məntiqi daha da qüvvətləndirən isə sənədin ən sonundakı səmimi tondur. Yazımızı həmin tonu şərhsiz diqqətə çatdırmaqla, habelə Azərbaycan–Rusiya münasibətlərinin mehriban qonşuluq xarakterinin daha da dərinləşəcəyinə ümid bəsləməklə bitiririk: “Təyyarə qəzası nəticəsində həyatını itirmiş şəxslərin ailələrinə və yaxınlarına bir daha dərin hüznlə başsağlığı verir və faciədən zərər çəkmiş hər kəslə bu əvəzolunmaz itkinin ağrı-acısını bölüşürük”.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Dini siyasi alətə çevirmək mənəvi cinayətdir

## *Ağdamda keçirilən regional konfransda belə cəhdlər kəskin pislənildi*

**Müasir dünyanın üzləşdiyi ən ağrılı və həssas problemlərdən biri insanların inancı ilə manipulyasiya, müxtəlif dini məzhəblər üzərində ideoloji və siyasi təxribat oyunlarıdır. Azərbaycanda dövlət-din münasibətləri möhkəm hüquqi baza və səmərəli institusional mexanizmlər əsasında qurulub. Ölkənin ali qanununda – Konstitusiyada təsbit olunmuş dünyəvilik prinsipi ilə vicdan azadlığı təmin edilir, dini icmaların fəaliyyəti qanunvericiliklə tənzimlənir. Əslində, bu hüquqi mexanizmlər həm dini azadlıqların qorunmasına, həm də milli dəyərlərə yad, zərərli ideoloji təsirlərin qarşısının alınmasına xidmət edir.**





Çağdaş dövrdə istənilən siyasi quruluşda dövlət-din münasibətlərinin düzgün və balanslı şəkildə tənzimlənməsi cəmiyyətdə daxili sabitliyi, onun təhlükəsizliyini və davamlı inkişafını şərtləndirən amillər kimi böyük əhəmiyyətə malikdir. Mövhumat və fanatizm kimi, dini radikallıq da heç bir dinin mahiyyətini, onun bəşəri dəyərlərini əks etdirmir. Və yaxın tarixin təcrübəsi göstərir bu kimi təhdidlərə qarşı mübarizə ideoloji, maarifləndirici və sosial müstəvilərdə davamlı şəkildə aparılmaldır.

Erməni işğalından azad edilmiş Ağdamda 2 gün davam edən regional konfransda müzakirə olunan əsas mövzular mövcud qanunvericiliyin təkmilləşdirilməsi istiqamətləri, habelə hüquqi və institusional mexanizmlərin gücləndirilməsi və profilaktik tədbirlər idi. Bu sırada dini radikalizmin ictimai-siyasi sabitliyə təhdid kimi özəl mövzu da yer alırdı.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə düzənlənən tədbirdə Dövlət Komitəsinin, Ağdam Rayon İcra Hakimiyyətinin rəhbərliyi, Milli Məclisin deputatları, hüquq-mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri, ilahiyyatçılar, din xadimləri və dini icma sədrləri iştirakı ediblər. Konfransda maarifləndirmə işinin prioritetləri ilə bağlı geniş fikir mübadiləsi aparılıb, tədbir çərçivəsində “Dəyişən dünyada dövlətin din siyasətinin prioritetləri” və “Dini radikalizm ictimai-siyasi sabitliyə təhdid kimi” mövzular üzrə panellər təşkil olunub. Belə həssas mövzuları əhatə edən regional konfransın məhz Ağdam rayonunda təşkil edilməsi həm də rəmzi məna daşıyır.

*

Mövzu ilə bağlı **XQ-yə açıqlama verən Milli Məclisin deputatı, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov** əvvəlcə Azərbaycanda unikal din modelinin mövcud olduğunu bildirdi. Ölkəmizdə bütün xalqların və dinlərin nümayəndələrinin sülh və qarşılıqlı anlaşma şəraitində yaşadığını deyən C.Məmmədov Azərbaycan bu siyasəti əsrlərlə davam etdirildiyini və bunun bir ənənə forması aldığını önə çəkdi: “Müəyyən dövrlərdə müxtəlif dinlərin nümayəndələri məhz ölkəmizə ona görə pənah gətiriblər ki, burada onlara münasibət dözümlü və tolerant olub. Bu, xalqımızın tarixi uğurudur.

Ötən əsrin 90-cı illərinin əvvəllərində ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyevin ən çox diqqət yetirdiyi məsələrdən biri məhz dövlət-din münasibətlərinin tənzimlənməsi idi. Onun mütəmadi olaraq müxtəlif dini konfessiyaların rəhbərləri, din xadimləri və sahənin mütəxəssisləri ilə görüşləri, eləcə də Roma Papasının Azərbaycana səfəri bu siyasətin qorunub saxlanmasına xidmət edirdi. Ulu öndərin ən böyük xidmətlərindən biri kimi Dini İşlər üzrə Dövlət Komitəsinin yaradılmasını qeyd etmək istərdim. Bu, olduqca önəmli bir məsələ idi. Eyni siyasət bu gün davam etdirilir”.

Müasir dünyada İslam ölkələrinə qarşı bir neçə alətdən istifadə olunduğunu vurğulayan deputat din amilinin düşünülmüş şəkildə ortaya atılmasına diqqəti çəkdi: “Dini zəmində münaqişələrin, qarşıdurmaların yaradılması yolu ilə ölkələrdə daxili sabitliyin, birgəyaşayışın pozulması hallarını müşahidə edirik. Bu, çox aktual məsələdir və hazırda oxşar ssenarini Azərbaycanda da gerçəkləşdirməyə cəhd edən qruplar var. İranda baş verən proseslər dini ideologiya məsələsinin nə qədər önəmli və aktual olduğunu bir daha göstərdi.

Bu da bir reallıqdır və biz bunu etiraf etməlyik ki, Azərbaycanın dini mühiti kənar təzyiqlərin təsirinə məruz qalır. İstər İran, istər ərəb ölkələri, istərsə də Türkiyədəki müəyyən qrupların ölkəmizin dini atmosferinə təsirləri mövcuddur. Təəssüf ki, biz bu cür zərərli təmayüllərin qarşısını lazımi səviyyədə, həm də tam ala bilmirik. Son vaxtlar sosial şəbəklərdə – saxta profillərdə, müxtəlif qruplarda aparılan müzakirə və diskussiyalara diqqət yetirdikdə bunun əyani şahidi oluruq...”.

Azərbaycanda daxili ictimai-siyasi sabitliyi pozmaqdan ötrü həm Şimal, həm də Cənub qonşumuz tərəfindən vaxtaşırı etnik məsələrin qabardılmağa çalışıldığını, qarşıdakı mərhələlərdə də bunun təzahür edəcəyini istisna saymayan C.Məmmədov bununla bağlı tədbirlərin keçirilməsinin, müzakirə və diskussiyaların aparılmasının faydasını qeyd etdi: “Hesab edirəm ki, bununla bağlı iş iki istiqamətdə aparılmalıdır. Bölgələrdə fəaliyyət göstərən din xadimləri Azərbaycan dövlətinin bu yöndə apardığı siyasətdən, gördüyü işlərdən məlumatlıdırlar.

Dini komitənin nümayəndələrinin, konfessiya və icmaların rəhbərlərinin bir araya gəlməsində yalnız fayda var. Hesab edirəm ki, bundan daha vacib məsələ yerlərdə insanlarla, dindar kütlə ilə maarifləndirmə işlərinin aparılmasıdır. Yəni kütlənin buna daha çox ehtiyacı var. Yad təriqətlərin, təmayüllərin təsirə düşənlərin, böyük əksəriyyəti sosial mediadadır. Bu gün məhz bu dini kütlə arasında məqsədyönlü təbliğat işi aparmaq vacibdir. Çox geniş auditoriyanı əhatə edən bu şəbəkədə xüsusi səhifələrin və saytların yaradılması effektiv fəaliyyət sayıla bilər”.

Bu sahənin mütəxəssisinin sözlərinə əlavə olaraq bir məqamı da qeyd etməyi vacib sayırıq. Bu gün dünya sönməyən münaqişə ocaqlarının təhdidi ilə üz-üzədir. Xüsusilə cənub qonşumuzun cəlb olunduğu Yaxın Şərq münaqişəsi ilə bağlı davam edən proseslər fonunda Azərbaycanın Qarabağ iqtisadi rayonu olan Ağdamda dini mövzuda regional konfransın keçirilməsi aktuallığı ilə seçildi. Bu konfrans, eyni zamanda, müəyyən dövrlərdə və müxtəlif ölkələrdə öz faydaları üçün dindən silah, alət kimi istifadə edərək İslama ləkə gətirən pozuculuq fəaliyyəti göstərən qüvvələrə verilən tutarlı cavabdır.

Həmin qüvvələrin cəmiyyətimizin dini-ideoloji dayaqlarına zərər vurmağa cəhd etdikləri də sirr deyil. Regionun və dünyanın sağlam qüvvələri belə zərərli təmayüllərə, dini alətə çevirmək cəhdlərinə qarşı birgə sipər çəkməlidirlər. O cümlədən din xadimlərimiz fəaliyyətlərini günün tələblərinə uyğun şəkildə qurmalı, bu zaman dövlətçilik və vətənpərvərlik prinsiplərini əsas götürməlidirlər.

***İ.HƏSƏNQALA***
***XQ***

# “Sülh körpüsü”ndə etimad axtarışlarına növbəti töhfə

**Aprelin 10-dan 12-dək Qəbələdə “Sülh körpüsü” təşəbbüsü çərçivəsində Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti, ekspert dairələri və media nümayəndələrinin iştirakı ilə növbəti – sayca dördüncü görüş keçirildi. Bundan öncəki görüşlər Bakı və İrəvanda baş tutmuşdu. Sonuncu iki görüşü əlamətdar edən cəhət iştirakçıların quru sərhədi keçməklə qarşılıqlı səfərlər etməsindədir. Yəni 2026-cı il fevralın 13-14-də İrəvanda keçirilən üçüncü görüşün iştirakçıları – Azərbaycan nümayəndə heyəti Ermənistana quru sərhədi vasitəsilə getmişdilər. Bu zaman rəsmi olaraq müəyyən edilmiş, delimitasiya və demarkasiya olunmuş hissədən keçərək, bütün müvafiq sərhəd və pasport nəzarəti prosedurlarına əməl edilmişdi.**



Qəbələ görüşünün iştirakçıları da eyni prosedur qaydalarına əməl etməklə Azərbaycana gəldilər. Bu keçidin özü “Sülh körpüsü” təşəbbüsünün Azərbaycan və Ermənistan cəmiyyətləri arasında etimadın möhkəmləndirilməsi istiqamətində atılmış növbəti simvolik addım kimi qiymətləndirilir.

Görüşün sonunda keçirilən mətbuat konfransında “Sülh körpüsü” təşəbbüsünün koordinatoru, “Erməni şurası” analitik mərkəzinin prezidenti Areq Koçinyanın səsləndirdiyi fikirlər diqqəti cəlb edir. O bildirib ki, erməni nümayəndə heyətinin sərhədi delimitasiya və demarkasiya olunmuş hissədən keçməsi özü-özlüyündə mühüm simvolik addımdır. Onun sözlərinə görə, bu, sülhün nə qədər real olduğunu və Vaşinqtonda, ondan əvvəl isə liderlərimizin Əbu-Dabidəki görüşündə razılaşdırılmış sülh gündəliyinin həyata keçirilməsinə nə qədər yaxın olduğumuzu təsdiq edir.

A.Koçinyan hesab edir ki, bu təşəbbüsün özü və bir erməni ekspert kimi bu gün Azərbaycanda olması həmkarları ilə birlikdə mətbuat konfransı keçirməsi artıq mövcud istiqamətdə ciddi addımdır: “Lakin bu sahədə digər mühüm işlər də görülür. Məsələn, yanacaq və digər mallar Azərbaycandan və ya onun ərazisindən tranzitlə Ermənistana daşınır. Bütün bunlar birlikdə tərəflərin etimadı möhkəmləndirmək istəyini nümayiş etdirir. Əlbəttə ki, bu cür tədbirlər heç vaxt çox ola bilməz. Bu iş davam etdirilməlidir”.

A.Koçinyanın səsləndirdiyi fikirlər “Sülh körpüsü” təşəbbüsünün sadəcə simvolik platforma olmadığını, daha geniş siyasi proseslərlə paralel inkişaf etdiyini göstərir. Onun vurğuladığı üç əsas istiqamət – sülh sənədinin hazırlanması, sərhədlərin delimitasiya və demarkasiyası, həmçinin kommunikasiyaların açılması – əslində, regionda dayanıqlı sabitliyin əsas sütunları hesab olunur. Bu baxımdan, erməni nümayəndə heyətinin məhz delimitasiya olunmuş sərhəd hissəsindən keçməsi təkcə texniki prosedur deyil, həm də İrəvanın mövcud reallıqları qəbul etməyə məcbur qaldığını nümayiş etdirən mühüm siyasi siqnaldır.

Koçinyanın Vaşinqton və Əbu-Dabi görüşlərinə istinad etməsi isə onu göstərir ki, proses artıq lokal çərçivəni aşaraq beynəlxalq vasitəçilərin aktiv iştirakı ilə daha sistemli mərhələyə keçib. Bununla yanaşı, onun kommunikasiyaların açılması və tranzit daşımalarla bağlı dedikləri real əməkdaşlıq elementlərinin formalaşdığını göstərir. Bu isə uzun illər qarşıdurma şəraitində yaşamış iki cəmiyyət üçün yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Bununla belə, bütün bu açıqlamalar fonunda əsas məsələ praktiki addımların davamlı olub-olmamasıdır. Çünki siyasi bəyanatlarla yanaşı, real nəticələr yalnız konkret razılaşmaların icrası ilə mümkündür. “Sülh körpüsü” kimi təşəbbüslər isə bu mürəkkəb prosesdə daha çox etimad mühitinin formalaşdırılmasına xidmət edən əlavə alət kimi çıxış edir.

Ermənistan nümayəndə heyəti rəhbərinin səsləndirdiyi digər fikirlər də maraq doğurur. O bildirib ki, Ermənistan və Azərbaycan regionda ən uzun sərhədi bölüşür. Bu sərhəd kontinental Avropada səkkizinci ən uzun sərhədlərdən biridir: “Bu, iki kiçik respublika üçün maraqlı fakt olmaqla yanaşı, ciddi çağırışdır. Mövcud vəziyyətdə 38 illik münaqişə fonunda irəliləmək son dərəcə çətindir. Hər iki tərəfdə böyük travma, münaqişələrlə dolu tarix mövcuddur. Bu baxımdan, prosesin həddindən artıq sürətlə aparılması ona zərər verə bilər”.




Onun sözlərinə görə, şimalda və ətrafda baş verən geosiyasi proseslər gözləmir. “Xüsusilə də bu mürəkkəb dünyada – şimalda, cənubda, qərbdə müharibə var, bəzi yerlərdə “soyuq müharibə”ni xatırladan gərginliklər mövcuddur, şərqdə də oxşar vəziyyət hökm sürür. Bu isə regionumuzun sabitliyə olan ehtiyacını daha da artırır. Yəqin ki, çox insan “flightradar” xəritələrində yayılan görüntüləri görüb.

Çox sayda təyyarə Cənubi Qafqaz üzərindən uçur. Çünki şimaldan uçuşlar mümkün deyil, cənub da məhduddur. Nəticədə qərbə iki əsas bağlantı qalır və bu, regionun əhəmiyyətini artırır. Bu şəraitdə normallaşma və sülh əsas prioritetə çevrilir. Bu məsələ Qərbdə, xüsusilə Avropa və ABŞ-də da diqqət mərkəzindədir. Məhz buna görə regiona maraq bu qədər artıb. Balans tapmaq lazımdır. Bir tərəfdən, mövcud geosiyasi və daxili siyasi irəliləyişi itirməmək üçün kifayət qədər sürətli hərəkət edilməlidir, digər tərəfdən isə nəzərə alınmalıdır ki, normallaşmanın əsas prinsiplərindən biri tələsməməkdir. Həddindən artıq sürət prosesi zədələyə bilər”.

Koçinyanın bu fikirləri Ermənistan tərəfinin sülh prosesinə yanaşmasında ehtiyatlı və mərhələli xəttin üstünlük təşkil etdiyini göstərir. O, uzunmüddətli münaqişənin yaratdığı psixoloji və siyasi yükü əsas arqument kimi önə çəkərək, sürətli addımların riskli ola biləcəyini vurğulayır. Bu yanaşma müəyyən mənada reallığı əks etdirsə də, eyni zamanda, prosesi ləngidə biləcək faktor kimi də çıxış edir. Diqqətçəkən məqamlardan biri isə onun geosiyasi vəziyyətə istinadıdır. Regionun artan tranzit və strateji əhəmiyyəti fonunda sülhün vacibliyinin qabardılması göstərir ki, İrəvan artıq Cənubi Qafqazın qlobal proseslərdə rolunu daha praqmatik qiymətləndirməyə başlayıb. Bununla belə, “tələsməmək” tezisi müəyyən suallar doğurur. Çünki mövcud imkan pəncərəsi uzunmüddətli olmaya bilər və prosesin uzadılması həm regional sabitlik, həm də real nəticələrin əldə olunması baxımından risklər yaradır.

Onu da qeyd edək ki, A.Koçinyan İrəvana qayıtdıqdan sonra keçirilən mətbuat konfransında Azərbaycandakı yolların vəziyyətinin, eləcə də Bakının şəhərsalma mədəniyyətinin onlarda xoş təəssürat doğurduğunu bildirib. Koçinyanın İrəvanda səsləndirdiyi bu fikirlər Azərbaycan reallıqlarının kənardan müşahidəsi baxımından diqqətəlayiqdir. Onun xüsusilə yol infrastrukturu və Bakının şəhərsalma mədəniyyəti ilə bağlı müsbət təəssüratlarını bölüşməsi, regionda formalaşmış bəzi stereotiplərlə real mənzərə arasındakı fərqi ortaya qoyur. Bu cür yanaşmalar, hər nə qədər fərdi müşahidələrə əsaslansa da, qarşılıqlı anlaşma mühitinin formalaşmasına müəyyən töhfə verə bilər.

Eyni zamanda, bu fikirləri Azərbaycanın son illərdə keçdiyi inkişaf yolu kontekstində qiymətləndirmək vacibdir. Ölkəmiz üçün müharibə mərhələsi artıq geridə qalıb və hazırda əsas prioritet quruculuq, tikinti və abadlıq işlərinin genişləndirilməsidir. İnfrastruktur layihələri və şəhər mühitinin yenilənməsi də məhz bu strategiyanın tərkib hissəsidir. Bu baxımdan, səsləndirilən müsbət qeydlər Azərbaycanın seçdiyi inkişaf kursunun erməni müşahidəçilər tərəfindən də diqqətdən kənarda qalmadığını göstərir.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan və Rusiyanın Zəngilan mesajı

*Bərpa, əməkdaşlıq və yeni iqtisadi gerçəklik*



**Dünən Zəngilan şəhəri mühüm beynəlxalq iqtisadi dialoqa ev sahibliyi etdi. Azərbaycan-Rusiya iqtisadi əməkdaşlıq məsələləri üzrə Dövlət Komissiyasının 24-cü iclasının keçirilməsi əlaqələrin yeni başlanğıc nöqtəsi kimi tarixə düşdü. Rusiya tərəfindən hökumət sədrinin müavini Aleksey Overçukun idarə etdiyi iclasda iki ölkənin dövlət qurumlarının rəhbərləri və səlahiyyətli nümayəndələri iştirak etdilər.**

Qeyd edək ki, iclası, sadəcə, növbəti texniki görüş kimi qiymətləndirmək düzgün olmaz. Çünki uzun müddətli "pauza"-dan sonra regional siyasətin, həm də iqtisadi maraqların kəsişdiyi strateji bir xətt kimi Zəngilanın seçilməsi gələcəkdə görüləcək işlərin miqyasından da xəbər verir.

Ümumiyyətlə, Azərbaycan ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq ticarət münasibətlərindən daha geniş məzmun qazanıb. Burada əsas məsələ iqtisadi qarşılıqlı asılılığın siyasi sabitlik alətinə çevrilməsidir. Rəsmi Bakı uzun müddətdir ki, çoxvektorlu xarici siyasət yürüdür və bu siyasətin əsas elementlərindən biri böyük güclər arasında tarazlığı qorumaqdır. Rəsmi Moskva ilə iqtisadi əlaqələrin dərinləşdirilməsi bu balansın mühüm sütunlarından biri kimi çıxış edir. Xüsusilə Qərb-Rusiya münasibətlərinin gərgin olduğu bir dövrdə Azərbaycanın neytral, lakin praqmatik mövqeyi ona əlavə strateji manevr imkanları qazandırır. Bu baxımdan, 2022-ci ildə imzalanmış müttəfiqlik sənədi və yüksək səviyyəli təmaslar iki ölkə arasında münasibətlərin real iqtisadi-siyasi məzmun daşıdığını göstərir.

## Geosiyasətdən geoiqtisadiyyata keçid

Rusiya tərəfdən çıxış edən Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuk Azərbaycan-Rusiya əməkdaşlığının strateji xarakterini dilə gətirərək nəqliyyat-logistika, sənaye və aqrar sahələrinin əsas prioritetlər olduğunu bildirdi və "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafının regional və beynəlxalq ticarət əlaqələrinin genişlənməsində mühüm rol oynadığını vurğuladı. Həmçinin Zəngilanda aparılan bərpa işlərini yüksək qiymətləndirərək, bu ərazilərin birgə layihələr üçün yeni imkanlar yaratdığını qeyd etdi.

Əlbəttə, yeni dünya nizamında Rusiyaya qarşı tətbiq olunan sanksiyalar və iqtisadi blokadanı nəzərə alsaq, Azərbaycanın geosiyasi və iqtisadi neytrallığı, "qazan-qazan" prinsipi, etibarlı əməkdaşlıq ünvanı olması Overçukun nitqini əsaslandırır. Məlumdur ki, "Şimal–Cənub" nəqliyyat marşrutu regional güc balansını dəyişən faktordur. Bu dəhliz vasitəsilə Cənubi Qafqaz qlobal ticarət xəritəsində alternativ tranzit mərkəzinə çevrilir. Məlumdur ki, ənənəvi Şərq-Qərb xəttindən fərqli olaraq, Şimal–Cənub xətti Hind okeanından Rusiyaya və Avropaya çıxış verir. Rusiya üçün bu dəhliz Qərb bazarlarına alternativ çıxış yolları yaradır, Azərbaycan isə tranzit ölkə kimi strateji çəkisini artırır. Təsadüfi deyil ki, 2026-cı ilin ilk 2 ayında "Şimal–Cənub" dəhlizi üzrə tranzit daşımalar 23 faiz artıb. Bu dövrdə dəmir yolu daşımalarında 61 faiz, avtomobil daşımalarında isə 13 faiz artım qeydə alınıb. Bununla yanaşı, 2028-ci ildən etibarən Azərbaycan ərazisindən illik daşımaların həcmi azı 5 milyon ton, sonrakı mərhələdə isə 15 milyon ton səviyyəsinə çatdırılacaq.

Bir məqamı da vurğulayaq ki, bu layihə təkcə Azərbaycan və Rusiyanı deyil, İran və digər ölkələri də vahid iqtisadi platformada birləşdirir. Nəticə etibarilə, nəqliyyat infrastrukturu artıq sadəcə iqtisadi deyil, həm də siyasi təsir vasitəsinə çevrilir. Bu isə Azərbaycanın regionda "logistika mərkəzi" statusunu gücləndirir.

## Azad edilmiş ərazilərə qonşu köməyi

İclasda komissiyanın Azərbaycan tərəfdən həmsədri Şahin Mustafayev çıxış edərək azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri barədə də ətraflı məlumat verib. O bildirib ki, işğal dövründə tamamilə dağıdılmış infrastruktur hazırda müasir standartlara uyğun şəkildə bərpa olunur, yollar, körpülər, tunellər, inşa edilir, yaşayış və sosial obyektlər yaradılır. Həmçinin iclasda qeyd olundu ki, Araz vadisi iqtisadi zonasında "KamAZ" servis mərkəzinin və Qubadlının Mahruzlu kəndində Həştərxan qubernatorluğu tərəfindən uşaq bağçasının tikintisi gedir.

Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən layihələr çərçivəsində 1400 kilometrdən artıq avtomobil yolu çəkilib, 120 kilometrdən çox dəmir yolu xətti inşa olunub, 7 tunel istifadəyə verilib, daha 31 tuneldə qazma işləri tamamlanıb, 392 körpü tikilib. Eyni zamanda, 3 beynəlxalq hava limanı artıq istismara verilib. Hazırda 75 mindən çox insan doğma torpaqlarda yaşayır, işləyir və təhsil alır.

## İqtisadiyyatın "statistika" üzü

Məlumdur ki, iki ölkə arasında ötən il ticarət dövriyyəsi 4,9 milyard ABŞ dollarına çatıb. Burada Rusiyanın Azərbaycana yatırdığı ümumi investisiyaların həcmi da xüsusi diqqət çəkir. 10,5 milyard ABŞ dollarlıq maliyə portfeli və qeyri-neft sektoruna 2,9 milyard dollarlıq investisiya müsbət dinamikanı nümayiş etdirir. Həmçinin ölkəmizdə 1400-dən çox Rusiya şirkəti fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycan investisiyalarının da Rusiya iqtisadiyyatında mövqelərinin möhkəmləndiyi, sanatoriya, sənaye və istehsal layihələrinin uğurla icra olunduğu bildirilib.

Rusiya Baş nazirinin müavini Aleksey Overçukun da diqqətə çatdırdığı kimi, hazırkı iclas Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonunda keçirilir və bu, regionda əməkdaşlığın yeni mərhələsini əks etdirir. Rusiya tərəfi Azərbaycan ərazisində həyata keçirilən investisiya və inkişaf layihələrində yerli biznesin daha fəal iştirakını dəstəkləyir. İki ölkə arasında hesablaşmaların əsas hissəsi milli valyutalarla aparılır ki, bu da iqtisadi inteqrasiyanı daha da gücləndirir.

Digər tərəfdən, turist axını məsələsi də iclasın gündəliyində idi. Qeyd olundu ki, 2025-ci ildə qarşılıqlı turist axını 701,5 min nəfər təşkil edib ki, bunlardan təxminən 500 min Rusiya vətəndaşı Azərbaycana, 200 minə yaxın Azərbaycan vətəndaşı isə Rusiyaya səfər edib.

Sonda isə deyə bilərik ki, Azərbaycan–Rusiya iqtisadi münasibətləri geoiqtisadi sistemin mühüm tərkib hissəsinə çevrilir. Bu proses ölkəmizin tranzit, enerji və investisiya mərkəzi kimi rolunu gücləndirir, eyni zamanda, regionda sabitlik və iqtisadi inteqrasiyanın dərinləşməsinə xidmət edir.

*Nurlan ABDALOV*
*XQ*

### *Ekspert rəyi*



**Zahid MƏMMƏDOV,**
**İqtisad Universiteti İqtisadi Araşdırmalar İnstitutunun direktor müavini, professor**

Zəngilanda keçirilən iclas yeni mərhələdə iki ölkə arasındakı iqtisadiyyatın başlanğıc nöqtəsidir. Azərbaycan ilə Rusiya Federasiyası arasında iqtisadi münasibətlər əsasən qarşılıqlı maraqlar, regional nəqliyyat-logistika inteqrasiyası və müxtəlif sektorların paralel inkişafı üzərində qurulub. İki ölkə arasında ticarət dövriyyəsi ildən-ilə artan dinamika nümayiş etdirir. Azərbaycan Rusiyaya əsasən kənd təsərrüfatı məhsulları — meyvə-tərəvəz, eləcə də neft məhsulları ixrac edir. Rusiyadan isə taxıl, ərzaq məhsulları, metallurgiya və maşınqayırma məhsulları, həmçinin sənaye avadanlıqları idxal olunur.

Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri kimi qeyri-neft ixracında xüsusi yer tutur. Ən mühüm birgə layihələrdən biri nəqliyyat sahəsində "Şimal–Cənub" beynəlxalq nəqliyyat dəhlizidir. Bu marşrut Azərbaycanın strateji tranzit ölkə kimi rolunu daha da gücləndirir.

Enerji sahəsində əməkdaşlıq daha çox koordinasiya xarakteri daşıyır. Neft bazarında qiymət sabitliyinin qorunması, qaz tədarükü və regional enerji təhlükəsizliyi məsələləri üzrə qarşılıqlı fəaliyyət davam edir. Bu kontekstdə "SOCAR" ilə "Qazprom" arasında əlaqələrin inkişafı xüsusi əhəmiyyət kəsb edir.

Rusiya bazarı Azərbaycan kənd təsərrüfatı məhsulları üçün əsas ixrac istiqamətlərindən biri olaraq qalır. Eyni zamanda, Rusiya şirkətləri Azərbaycanda sənaye, tikinti və bank sektorlarında aktiv fəaliyyət göstərir. Azərbaycan sərmayələri də Rusiyada əsasən ticarət və xidmət sahələrinə, eləcə də, sənaye layihələrinin inkişafına yönəldilir.

Bununla yanaşı, mövcud əməkdaşlıq müəyyən çətinliklərdən də xali deyil. Valyuta dalğalanmaları, gömrük prosedurları və logistika məsələləri, həmçinin bazarların şaxələndirilməsi zərurəti qarşıda duran əsas çağırışlar kimi qiymətləndirilir. Perspektiv baxımdan, gələcəkdə qeyri-neft sektorunda əməkdaşlığın genişləndirilməsi, rəqəmsal iqtisadiyyat və logistika texnologiyalarının inkişafı, eləcə də regional ticarət inteqrasiyasının dərinləşdirilməsi prioritet istiqamətlər kimi nəzərdə tutulur. Bu çərçivədə Azərbaycanın Şimali Qafqaz regionları və Həştərxan vilayəti ilə iqtisadi əlaqələrinin daha da gücləndirilməsi xüsusi önəm daşıyır.

**Azərbaycan Dövlət İqtisad Universitetində iqtisadçı Eldəniz Əmirovun müəllifi olduğu "Azərbaycan iqtisadiyyatının investisiya absorbsiyası: iqtisadi diplomatiya və sərmayə siyasətinə dair analitik baxış" adlı kitabın təqdimatı keçirildi. Mərasimdə elmi ictimaiyyətin, dövlət qurumlarının nümayəndələri, iqtisadçı ekspertlər və tələbələr iştirak edirdilər.**

# Azərbaycan iqtisadiyyatında sərmayə diplomatiyası






Müəllif Eldəniz Əmirov çıxışında kitabın ərsəyə gəlmə prosesindən bəhs edərək bildirdi ki, tədqiqatın əsas məqsədi Azərbaycanın investisiya cəlbetmə qabiliyyətini kompleks şəkildə araşdırmaq, iqtisadi diplomatiyanın bu sahədə rolunu müəyyənləşdirmək və sərmayə siyasətinin daha effektiv modellərini ortaya qoymaqdan ibarətdir. Onun sözlərinə görə, qlobal iqtisadi çağırışların artdığı bir dövrdə ölkələrin rəqabət üstünlüyü məhz investisiyaları nə dərəcədə səmərəli "udmaq" qabiliyyətindən asılıdır.

Tədbirdə çıxış edən UNEC-in rektoru Ədalət Muradov kitabın əhəmiyyətinə toxunaraq qeyd etdi ki, birinci rübün iqtisadi yekunlarının açıqlandığı bir dövrdə belə bir əsərin işıq üzü görməsi xüsusi aktuallıq kəsb edir. Onun sözlərinə görə, bu cür tədqiqatlar ölkənin iqtisadi siyasətinin daha dərindən anlaşılmasına və yeni yanaşmaların formalaşmasına mühüm töhfə verir.

Digər tərəfdən, iqtisadi göstəricilərin mövcud vəziyyətinə diqqət çəkərək vurğulandı ki, ümumi daxili məhsulun artım dinamikası arzuolunan səviyyədə deyil. Yeni ildə dövlət büdcəsi xərclərinin gözlənilən səviyyədə artırıla bilməməsi ÜDM-də zəifləməyə təsir edən əsas amillərdən biri kimi çıxış edir. Müəllifin fikrincə, bu kimi mənfi tendensiyaların aradan qaldırılması üçün ən effektiv istiqamətlərdən biri investisiyaların cəlb olunmasının genişləndirilməsidir.

Ümumiyyətlə, kitabda Azərbaycanın iqtisadi potensialı, investisiya qəbulu imkanları və bu sahədə mövcud çağırışlar geniş şəkildə təhlil edilir. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə "güzəştlər vadisi" konsepsiyası çərçivəsində investisiya mühitinin formalaşdırılması ilə bağlı maraqlı yanaşmalar da əsərdə öz əksini tapıb.

Tədbir çərçivəsində çıxış edən digər iştirakçılar da kitabın elmi-praktik əhəmiyyətini vurğulayaraq, onun iqtisadi siyasətin formalaşdırılmasında və qərarvermə prosesində faydalı mənbə olacağını bildirdilər.

Sonda müəllif tərəfindən iştirakçıların sualları cavablandırıldı, məclis iqtisadi müzakirələr və fikir mübadiləsi ilə yadda qaldı.

*NA BDALOV,*
*R.İBRAHİMOV (foto)*
*XQ*

# ACE platformasından 2,1 milyon ton neft çıxarılıb

**Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənməsi çərçivəsində inşa edilən "Azəri Mərkəzi Şərqi" (ACE) platformasından neft hasilatına başlanılmasından 2 il ötür. Cari il aprelin 15-dək sözügedən platformadan 2,1 milyon ton neft çıxarılıb. Bu barədə Energetika Nazirliyi məlumat yayıb.**

Qeyd edək ki, ACE texnoloji və rəqəmsal baxımdan ən qabaqcıl platformalardan biridir. Onun innovativ layihələndirilməsi insan əməyi tələb edən prosesləri avtomatlaşdırmağa imkan verir. Bu da əməliyyatların daha təhlükəsiz və səmərəli aparılmasını təmin edir.

Yeri gəlmişkən, 2017-ci il sentyabrın 14-də AÇG-nin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında sazişə düzəliş edilib. Bununla bağlı əldə olunmuş razılaşmaya əsasən, AÇG yataqlar blokunun işlənməsi 2050-ci ilədək uzadılıb.

*XQ*



# Qaz hasilatı da, nəqli də artıb



**Cari ilin yanvar–mart aylarında Azərbaycanda 12 milyard 507 milyon kubmetr təbii qaz hasil olunub. Hasilatın həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 48 milyon kubmetr və ya 0,4 faiz artıb. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.**

Bildirilib ki, ümumi hasilatın 9 milyard 858 milyon kubmetri əmtəəlik təbii qazın payına düşüb ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 67 milyon kubmetr və ya 0,7 faiz çoxdur. Hesabat dövründə hasilat sənayesində istehsal olunan məhsulun ümumi dəyəri 8,7 milyard manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz azdır.

Komitənin məlumatına əsasən, ilin ilk rübündə Azərbaycanın magistral kəmərləri ilə 11 milyrad 125,1 milyon kubmetr qaz nəql edilib. Bu isə ötən ilin müvafiq dövrünə nisbətən 3,3 faiz artım deməkdir. Qaz nəqlinin 50,8 faizi Cənubi Qafqaz boru kəmərinin (Bakı-Tbilisi-Ərzurum) payına düşüb. Sözügedən boru kəməri vasitəsilə "Şahdəniz" qaz-kondensat yatağında hasil edilən qaz ixrac edilir. Hesabat dövründə bu kəmərlə 5 milyard 653,4 milyon kubmetr qaz ötürülüb. Bu da 2025-ci ilin eyni dövrü ilə müqayisədə 3,8 faiz çoxdur.

Xatırladaq ki, ötən il ölkənin magistral qaz kəmərləri ilə 40 milyard 235,6 milyon kubmetr qaz nəql edilib. Qaz nəqlinin 57,5 faizi Bakı-Tbilisi-Ərzurum boru kəməri ilə həyata keçirilib. Belə ki, il ərzində bu kəmərlə ötürülən qazın həcmi 23 milyard 143,9 milyon kubmetr təşkil edib.

*XQ*

# Ermənistanla ticarət əlaqələri sülhün dayaqlarını möhkəmləndirir

## *38 məhsul üzrə 300 milyon dollarlıq illik idxal-ixrac gerçəkləşəcək*

**Bu ilin mart ayında Azərbaycan Ermənistandan ilk dəfə 960 ABŞ dolları dəyərində mal idxal edib. Bu barədə Dövlət Gömrük Komitəsi məlumat yayıb. Bundan başqa, ilin I rübündə Azərbaycan Ermənistana 5 milyon 757 min ABŞ dolları dəyərində məhsul ixrac edib. Bunun 1 milyon 537 min dollarlıq hissəsi mart ayının payına düşüb. Ermənistana ixracdan əldə olunan gəlirlər Azərbaycanın ümumi ixrac gəlirlərinin 0,1 faizini təşkil edib.**



Cari ilin yanvar–mart aylarında Azərbaycan xarici ölkələrlə, ümumilikdə, 9 milyard 407 milyon ABŞ dolları dəyərində ticarət əməliyyatları həyata keçirib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 21,9 faiz azalma deməkdir. Hesabat dövründə xarici ticarət dövriyyəsinin 5 milyard 402 milyon ABŞ dolları ixracın, 4 milyard 5 milyon ABŞ dolları isə idxalın payına düşüb. Son bir il ərzində ixrac 15,4 faiz, idxal isə 29,3 faiz azalıb. Nəticə etibarilə, xarici ticarət balansında 1 milyard 398 milyon ABŞ dolları həcmində müsbət saldo formalaşıb. Bu göstərici illik müqayisədə 93,4 faiz artım deməkdir.

Məlum olduğu kimi, Azərbaycan Ermənistana neft məhsullarını tədarük edir. Bu istiqamətdə sonuncu göndəriş aprelin 11-də 15 vaqon olmaqla, ümumilikdə, 887 ton dizel yanacağının ixracı baş tutub. İki ölkə arasında sərhədlərin uzun illər bağlı olması və bunun indi də davam etməsi iqtisadi əlaqələrin yalnız dolayı kanallar üzərindən mümkün edir. Əməliyyatlar Gürcüstan vasitəsilə həyata keçirilir. Qeyd edək ki, Azərbaycandan Ermənistana, ümumilikdə, 6 min 312 ton dizel yanacağı, 979 ton Aİ-92 markalı benzin və 2 min 955 ton Aİ-95 markalı benzin göndərilib.

Azərbaycanın Ermənistandan ilk dəfə mal idxal etməsini bəzi ekspertlər "test xarakterli iqtisadi təmas" kimi dəyərləndirir. Mütəxəssislərin fikrincə, rəsmi Bakı və İrəvan bu cür əlaqələrin praktik olaraq necə işlədiyini yoxlayır. Yəni hər iki tərəf riskləri və imkanları nəzərdən keçirir.

Azərbaycan və Ermənistan arasında iqtisadi əlaqələrin yeni qurulmasına baxmayaraq, hər iki ölkə SSRİ dövründə qarşılıqlı olaraq mal mübadiləsi aparıblar. Lakin o dövrdə Azərbaycan və Ermənistan iqtisadi əlaqələri klassik mənada ixrac–idxal münasibətləri üzərində qurulmamışdı. Bu, Sovet İttifaqı daxilində mərkəzləşdirilmiş planlı təsərrüfat sisteminin tərkib hissəsi kimi formalaşmışdı. Azərbaycan SSR əsasən enerji və xammal bazası kimi çıxış edirdi. Rəsmi sovet iqtisadi statistikası və dövrün sənaye hesabatlarına əsasən, respublikadan Ümumittifaq dövriyyəsinə, o cümlədən Ermənistan SSR-ə neft və neft məhsulları, neft-kimya sənayesi üçün xammallar, eləcə də pambıq və tütün kimi kənd təsərrüfatı məhsulları göndərilirdi.

Eyni zamanda, Ermənistan SSR-dən ölkəmizə elektronika və cihazqayırma məhsulları, müxtəlif ölçü cihazları və texniki avadanlıqlar göndərilirdi. Kimya və rezin sənayesi məhsulları, tekstil və ayaqqabı kimi yüngül sənaye malları da bu siyahıya daxil idi. Bundan başqa, Ermənistanın ənənəvi məhsullarından sayılan konyak və konservləşdirilmiş qida məhsulları, eləcə də tikinti materialları, xüsusilə tuf və sement Azərbaycan bazarında yer alırdı. Qeyd edək ki, hazırda iki ölkə arasında iqtisadi əlaqələrin bərpa olunması sülh prosesinin tərkib hissəsidir. Siyasi təmasların qurulması, danışıqlar prosesinin gələcəkdə iqtisadi əlaqələr daha geniş miqyas ala biləcəyini göstərir. Bu da öz növbəsində region iqtisadiyyatının inkişafına xüsusi töhfə verə bilər.

Nəhayət ki, uzun illərdən sonra Ermənistanın ali siyasi elitası Azərbaycanla münasibətlərin sülh prinsipi üzərində qurulmasının ölkə üçün faydalı ola biləcəyini anlayıblar. Baş nazir Nikol Paşinyan və onun administrasiyasının nümayəndələri dəfələrlə çıxışlarında bildiriblər ki, Azərbaycanla ticarətin bərpa olunması Ermənistana iqtisadi fayda verir. Bu günlər parlamentdə çıxış edən Nikol Paşinyan qeyd edib ki, Azərbaycandan Ermənistana neft məhsullarının idxalı sayəsində ölkə vətəndaşları və sakinləri on milyardlarla qənaət ediblər: "Azərbaycan neft məhsullarının idxalı - bazarda 8 il davam edən monopoliya vəziyyətinin aradan qaldırılması əməliyyatını başa çatdırmağımıza imkan verən son amil oldu. Niyə 8 il? Çünki biz mafiya ilə mübarizə aparırıq. Bu mafiya təkcə daxili erməni mafiyası deyil, onun bəzən başqa yerlərdə də digər filialları olur". O əlavə edib ki, əgər Azərbaycan dəmir yolu ilə Ermənistana tədarüklər başlamasaydı, mümkün böhranlar, o cümlədən Hörmüz boğazı ətrafındakı vəziyyət ölkə iqtisadiyyatına daha güclü təsir edərdi.

Ermənistan baş nazirinin sonuncu çıxışı onu deməyə əsas verir ki, Azərbaycan aktiki olaraq bu ölkə üçün alternativ enerji mənbəyidir. N. Paşinyanın ritorikasına görə, Azərbaycan neft məhsullarının idxalı Ermənistan üçün üç əsas nəticə doğurub: İqtisadi effekt – böyük maliyyə qənaəti, bazar islahatı – monopoliyanın aradan qalxması, enerji təhlükəsizliyi – alternativ və daha sabit tədarük kanalı.

***Ekspert rəyi***

**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**



Azərbaycan sülh gündəliyinə sadiq qalaraq Ermənistan istiqamətində enerji məhsullarının ixracını həyata keçirir. Eyni zamanda, Azərbaycanın üzərindən daşınan və Ermənistanla əlaqəli bütün ölkələrə yük daşımaları üzrə məhdudiyyətlər aradan qaldırılır. Bu, təbii ki, Azərbaycanın regionda sülh təşəbbüslərini və dəstəyini bir daha təsdiq edir.

Təbii ki, Zəngəzur dəhlizinin açılması və istifadəsi, eləcə də kommunikasiyaların bərpası ilə bağlı qərarların genişləndirilməsi vacib məqamlardandır. Bu, regionda dayanıqlı sülhün formalaşmasına töhfə verəcək. Bu kontekstdə Azərbaycan və Ermənistan arasında aparılan qiymətləndirmələr göstərir ki, təxminən 38 məhsul üzrə, ümumilikdə, idxal–ixrac fəaliyyətlərinin qurulması mümkündür.

Bu o deməkdir ki, iqtisadi əlaqələr tam bərpa olunduqdan sonra iki ölkə arasında ticarət dövriyyəsi illik olaraq təxminən 300 milyon dollar ətrafında dəyişə bilər. Bu rəqəmə birbaşa Ermənistan–Azərbaycan idxal və ixrac əməliyyatları daxildir. Yəni, söhbət idxal–ixrac əməliyyatlarının geniş spektrindən gedir. Amma sözsüz ki, Zəngəzur dəhlizinin istifadəyə verilməsi region üzrə yük daşımalarının həcmini artıracaq, eyni zamanda, region ölkələrinin bundan daha çox faydalanmasına imkan yaradacaq.

Bu kontekstdə daşınma xərclərinin azalması ölkələrin əlavə gəlir əldə etməsinə şərait yarada bilər ki, bu da praktik olaraq həm dayanıqlı sülhün möhkəmlənməsi, həm də regional iqtisadi inkişaf baxımından vacib amildir.

***Musa BAĞIRLI***
***XQ***

# 3 ayda 10-dan çox ölkəyə 5,8 milyon ton neft göndərilib



**Bu ilin yanvar-mart aylarında Azərbaycandan 10-dan çox ölkəyə 2 milyard 500 milyon 709,51 min dollarlıq 5 milyon 77 min 834,33 ton neft ixrac edilib. Bu barədə Dövlət Gömrük Komitəsi məlumat yayıb.**

Bildirilib ki, hesabat dövründə ölkəmizdən İtaliyaya 1 milyard 614 milyon 411,76 min dollar dəyərində 3 milyon 273 min 515 ton neft ixrac olunub. Bununla da İtaliya Azərbaycanın ümumi neft ixracında birinci yerdə qərarlaşıb.

Cari ilin ilk 3 ayında Azərbaycanın neft satdığı ölkələrin siyahısında 2-ci yeri Çexiya tutub. Hesabat dövründə bu ölkəyə 184 milyon 328,19 min dollar dəyərində 355 min 470,34 ton neft ixrac edilib. İlk üçlüyü isə Rumıniya tamamlayıb. Belə ki, yanvar-mart aylarında bu ölkəyə 178 milyon 619,93 min dollar dəyərində 372 min 51,77 ton neft satılıb. Ümumilikdə isə, yanvar-mart aylarında ölkəmiz Almaniya, Portuqaliya, Tunis, Bolqarıstan, Xorvatiya, Türkiyə, Fransa və digər dövlətlərə xam neft satıb.

Bununla yanaşı, hesabat dövründə ölkəmiz 130 milyon 938,65 min dollar dəyərində 187 min 341,29 ton neft məhsulları ixrac edib. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 2,3 dəfə, həcm etibarı ilə isə 53,1 faiz çox olub.

Xatırladaq ki, qeyd olunan göstəricilərdə hesabat dövründə gömrük orqanlarında rəsmiləşdirilməsi başa çatdırılmış ixrac olunan xam neft və neft məhsullarının dəyərinə dair məlumatlar nəzərə alınıb.

***XQ***

# Azad Qarabağda müasir yol infrastrukturu yaradılır

**İşğaldan azad olunmuş ərazilərdə yol-nəqliyyat infrastrukturunun bərpası və yenidən qurulması istiqamətində genişmiqyaslı layihələr icra olunur. Həmin layihələr çərçivəsində ümumi uzunluğu 3 min 878 kilometrdən çox olan 68 layihə üzrə tikinti işlərinin aparılması nəzərdə tutulur.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən verilən məlumata əsasən, ötən müddətdə ümumi uzunluğu 1454,3 kilometr olan 30 layihənin icrası başa çatdırılıb. Hazırda isə ümumi uzunluğu 2 min 432,8 kilometr təşkil edən 38 layihə üzrə tikinti işləri davam etdirilir.

Qarabağ və Şərqi Zəngəzurda yol infrastrukturu layihələri çərçivəsində tunellərin tikintisi də diqqət mərkəzində saxlanılır. Bu



məqsədlə həmin ərazilərdə ümumi uzunluğu 71,2 kilometr olan 48 tunelin inşası planlaşdırılıb. Artıq ümumi uzunluğu 13,6 kilometr təşkil edən 7 tunelin tikintisi yekunlaşıb. Hazırda isə 57,6 kilometr uzunluğunda 41 tunel üzrə işlər davam edir.

Ötən müddətdə körpü tikintisi sahəsində də mühüm irəliləyişlər əldə olunub. Ümumilikdə, uzunluğu 9 min 581,6 metr olan 447 körpünün tikintisi nəzərdə tutulur. Artıq ümumi uzunluğu 8 min 839,1 metr təşkil edən 392 körpü istifadəyə verilib. Bununla yanaşı, ümumi uzunluğu 3 min 871 metr olan 16 viadukun inşası planlaşdırılıb. İndiyədək 1965 metr uzunluqda 9 viadukun tikintisi başa çatdırılıb.

Bütün bu işlər nəticəsində işğaldan azad olunmuş ərazilərdə müasir yol infrastrukturunun formalaşdırılması istiqamətində mühüm addımlar atılır, bölgənin sosial-iqtisadi inkişafı üçün möhkəm zəmin yaradılır.

***XQ***

*Qərb ixrac marşrutu – 27*

**1994-cü il sentyabrın 20-də Bakıda "Əsrin müqaviləsi" imzalanarkən ulu öndər Heydər Əliyev böyük uzaqgörənliklə Azərbaycan neftinin şaxələndirilmiş boru kəmərləri ilə nəqli ideyasını irəli sürmüş və bu təklif saziş iştirakçıları tərəfindən də razılıqla qarşılanmışdı. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) rəhbər komitəsi dövlətimizin başçısının bu sahədə irəli sürdüyü təklifləri nəzərə alaraq 1995-ci il oktyabrın 9-da ilkin neftin ixracı üçün Rusiya ərazisindən Novorossiysk və Gürcüstan ərazisi ilə Supsa limanlarına iki neft kəmərinin tikilməsi haqqında qərar qəbul edib. Bununla da sözügedən kəmərlərin çəkilişi ilə bağlı danışıqlar intensivləşib.**

# Bakı–Supsa kəməri: Xəzərdən Qara dənizə enerji yolu

1996-cı il martın 8-də Azərbaycan Respublikası ilə Gürcüstan arasında neftin Gürcüstan ərazisindən nəql olunmasına dair hökumətlərarası saziş imzalanıb. Həmin ilin dekabr ayında ABƏŞ Bakı–Supsa (Qərb ixrac boru kəməri) kəmərinin inşası üçün müsabiqə elan edib. ABŞ, İtaliya, Avstraliya, Türkiyə, Fransa, Böyük Britaniya, Azərbaycan və digər ölkələrin şirkətlərindən daxil olan təklifləri öyrənən ABƏŞ 1997-ci ilin aprelində Bakı-Supsa boru kəmərinin Azərbaycan hissəsini "Tekfen-Azfen" Azərbaycan–Türkiyə birgə müəssisəsinə, Gürcüstan hissəsini isə Avstraliyanın "Makkonnell Douell midl ist" şirkətinə həvalə edib.




Layihəyə əsasən, Azərbaycan ərazisində – Səngəçal terminalından Gürcüstan sərhədinədək 421 kilometr uzunluğunda mövcud boru kəməri bərpa olunmalı və 47 kilometr uzunluğunda yeni xətt çəkilməli idi. Gürcüstan ərazisində isə 340 kilometr uzunluğunda boru kəmərinin bərpası, 39 kilometr məsafədə isə yeni hissəsinin çəkilişi nəzərdə tutulurdu.

1998-ci ilin martında başlanan tikinti işləri qrafik əsasında davam etsə də, podratçı şirkətlər tərəfindən kəmərin mövcud hissəsində həyata keçirilən sınaq işləri zamanı vaxtilə çəkilmiş boruların təzyiqə davam gətirmədiyi üzə çıxıb. Buna görə də layihədə edilmiş düzəlişlərə əsasən, əlavə boru xətti çəkilib. Beləliklə, tikinti işləri tamamlandıqdan sonra dekabrın 10-da Bakı-Supsa kəmərinin xam neftlə doldurulmasına başlanılıb. 1999-cu il martın 11-də neft Qara dəniz sahilində inşa olunmuş Supsa terminalına çatıb.

Həmin il aprelin 8-də Supsa limanında ilk neftin tankerlərə yüklənməsinə başlanılıb. Bu münasibətlə aprelin 17-də Supsada Azərbaycan, Gürcüstan və Ukrayna prezidentlərinin, eləcə də ABŞ prezidentinin və dövlət katibinin Xəzər regionu üzrə xüsusi müşavirinin iştirakı ilə Qərb ixrac boru kəmərinin və terminalın rəsmi açılış mərasimi keçirilib. Mərasimdə çıxış edən xalqımızın ümummilli lideri Heydər Əliyev Bakı-Supsa neft kəmərini Azərbaycanın müstəqil iqtisadi siyasətinin və neft strategiyasının böyük uğuru, ölkənin dünya bazarlarına çıxışını təmin edən vacib Qərb ixrac boru kəməri kimi qiymətləndirərək deyib: "Bu gün biz tarixi bir hadisənin şahidiyik. Bakı-Supsa neft kəmərinin inşasına dair böyük səmərəli iş başa çatdırılmışdır və biz Azərbaycanın Xəzər nefti yüklənmiş ilk tankerinin dünya bazarlarına yola salınmasını təntənəli şəraitdə qeyd edirik. Bu, Gürcüstanın, Azərbaycanın və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə daxil olan neft şirkətlərin birgə səyləri sayəsində mümkün olmuşdur. Bu, 1995-1996-1997-ci illərdə başlanmış səylərimizin məntiqi nəticəsidir. Bu, Azərbaycanda 1994-cü il sentyabrın 20-də Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın 7 ölkəsini təmsil edən 11 ən iri neft şirkətləri arasında imzalanmış "Əsrin müqaviləsi"nin praktiki surətdə həyata keçirilməsidir".

Xəzərin Azərbaycan sektorunda hasil edilən neftin Gürcüstandan keçməklə dünya bazarlarına nəqlini həyata keçirən Bakı-Supsa boru kəməri Səngəçal terminalından başlayaraq Gürcüstan sahilindəki Supsa terminalına qədər uzanır. Uzunluğu 833 kilometr olan "qara qızıl" marşrutunun 772 kilometrlik hissəsi 530 millimetrlik yeni polad borularla çəkilib, qalan 55 kilometrlik hissəsi isə əsaslı təmir edilib. Boru kəməri obyektlərinə 3-ü Azərbaycanda və 3-ü Gürcüstanda olmaqla 6 nasos stansiyası, 2 təzyiqazaltma stansiyası (hər ikisi Gürcüstanda), 1 ərzinburaxma stansiyası (Azərbaycanda) aiddir. Layihə çərçivəsində, həmçinin Supsada ümumi həcmi 1 milyon barel olan 4 iri neft çəni inşa olunub. Kəmərin illik nəqletmə gücü isə 7,2 milyon ton təşkil edir.

İlk vaxtlarda bu kəmərlə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Çıraq" və "Azəri" yataqlarından çıxarılan neft Səngəçal terminalından Qara dəniz sahilində yerləşən Supsa limanına nəql olunub. Xam neft buradan tankerlərə yüklənərək Bosfor boğazından keçməklə Avropa bazarlarına yola salınıb. Son illər isə Bakı–Supsa boru kəmərinin fəaliyyətində ən məhsuldar dövr 2021-ci ilə təsadüf edib. Belə ki, həmin il kəmərlə 4,2 milyon ton neft nəql olunub. 2022-ci ilin mayında isə Rusiya–Ukrayna müharibəsi səbəbindən fəaliyyəti dayandırılmış bu kəmər daha sonra spot daşımalar üçün qismən aktivləşdirilib. Ümumilikdə, istismara verildiyi vaxtdan 2025-ci il aprelin 1-dək Qərb ixrac marşrutu ilə 738 milyon barel və ya 100 milyon tona yaxın xam neft nəql edilib.

Bakı-Supsa neft kəməri Azərbaycan və Gürcüstanın iqtisadi və siyasi həyatında mühüm rol oynayıb. Belə ki, regionda investisiya qoyuluşunun artmasında, sosial rifahın yüksəlməsində və siyasi sabitliyin təmin olunmasında Qərb ixrac marşrutu xüsusi əhəmiyyət daşıyıb. Eyni zamanda, Şimal marşrutu ilə müqayisədə daşınma tariflərinin xeyli aşağı olması Qərb ixrac boru kəmərinin rəqabət qabiliyyətini xeyli artırıb. Bu baxımdan neft ixracında sözügedən kəmərdən istifadə edilməsi həm xarici şirkətlər, həm də Azərbaycan üçün iqtisadi baxımdan sərfəli olub.

Azərbaycan neftinin Qərb istiqamətinə nəqlini həyata keçirən Bakı–Supsa kəmərinin işində fasilə davam etsə də, sözügedən ixrac marşrutu bu gün də öz aktuallığını qoruyub saxlayır. Hazırda ölkəmiz Bakı-Supsa kəməri ilə neft ixrac etmir. Bununla belə, kəmərin fəaliyyəti tam dondurulmayıb. Neft nəqli üçün tam hazır vəziyyətdə olan bu kəmərdən istənilən vaxt istifadə edilə bilər. Elə 2023-cü ilin fevralında kəmərin fəaliyyətinin qısa müddətə bərpa edilməsi də bunu təsdiq edir. Fevralın 6-da qardaş Türkiyə Respublikasının ərazisində baş vermiş zəlzələ səbəbindən bu ölkənin Aralıq dənizi sahilindəki Ceyhan terminalı müvəqqəti olaraq bağlandığından "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan çıxarılan neft Qərb ixrac marşrutu ilə Supsa terminalına nəql olunub. Həmin vaxt Supsa limanından Azərbaycan nefti yüklənmiş bir neçə tanker dünya bazarına göndərilib. Yeri gəlmişkən, dəniz qonşumuz, ölkəmizlə tranzit neft ixracı sahəsində fəal əməkdaşlıq edən Qazaxıstan adıçəkilən kəmərlə ildə 3 milyon tonadək neft nəql etməyi planlaşdırır.

Yeri gəlmişkən, 1996-cı il martın 8-də Gürcüstanın Beynəlxalq Neft Korporasiyası və neft şirkətləri arasında Bakı-Supsa kəmərinin ölkə ərazisindən keçən hissəsinin tikintisi və istismarı barədə imzalanmış sazişin müddəti bu il aprelin 24-də başa çatır. Bu məqsədlə Bakı-Supsa neft kəmərinin Gürcüstandan keçən hissəsinin istismar müddəti ilə bağlı qanunvericilik təşəbbüsü hazırlanıb.

Layihə parlamentin İqtisadi siyasət komitəsinin iclasında təqdim olunub və dəstək qazanıb. Gürcüstanın iqtisadiyyat və dayanıqlı inkişaf nazirinin müavini İnqa Pxaladzenin sözlərinə görə, məsələ ilə bağlı xarici neft şirkətləri və boru kəmərinin operator şirkəti ilə razılıq əldə olunub. Buna uyğun olaraq 2026-cı il iyunun 8-dək boru kəmərinin istismarı ilə bağlı bütün xərclər onlar tərəfindən maliyyələşdiriləcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan iqtisadiyyatı son 10 ildə

## *Kəmiyyət artımından keyfiyyət yeniləşməsinə keçid*

**Azərbaycan iqtisadiyyatı son 10 ildə mürəkkəb sınaqlardan keçərək yeni inkişaf mərhələsinə daxil olmuşdur. 2015-ci ildə dünya bazarında neftin qiymətinin 100 dollardan 40 dollara qədər enməsi ölkə iqtisadiyyatında ciddi dalğalanmalar yaratmış, makroiqtisadi sabitliyə təsirsiz ötüşməmişdir.**

Həmin dövrdə ümumi daxili məhsulun artım tempinin 1 faiz ətrafına qədər zəifləməsi, inflyasiyanın 12–13 faizə yüksəlməsi və milli valyutanın iki dəfə dəyər itirməsi iqtisadi modelin xarici şoklara həssaslığını açıq şəkildə nümayiş etdirmişdi. Lakin 2025-ci ilin göstəricilərinə nəzər saldıqda tamamilə fərqli mənzərə formalaşır. İqtisadi artım artıq 4 faizdən yuxarı intervalda sabitləşmiş, inflyasiya 5–6 faiz səviyyəsində saxlanılmış və manat uzun müddətdir ki, 1 ABŞ dollarına qarşı 1,7 səviyyəsində sabitliyini qoruyur. Bu, sadəcə, rəqəmlərin yaxşılaşması deyil, eyni zamanda, iqtisadi sistemin keyfiyyət transformasiyasıdır.

**Kəmiyyət artımından keyfiyyət mərhələsinə:** 2015-ci ildə Azərbaycanın ÜDM-i təxminən 54 milyard ABŞ dolları səviyyəsində olmuşdursa, son on ildə baş verən dəyişikliklər nəticəsində bu göstərici 2025-ci ildə 129 milyard manata yüksələrək 2 dəfədən çox artım nümayiş etdirmişdir. Lakin burada əsas məsələ artımın həcmi deyil, onun strukturudur. Əgər əvvəlki dövrdə iqtisadiyyatın əsas hissəsi neft sektorunun payına düşürdüsə, son illərdə qeyri-neft sektorunun ÜDM-də payı 70 faizə qədər yüksəlmişdir.

Bu meyil göstərir ki, iqtisadi artım artıq yalnız enerji gəlirlərinə əsaslanmır. Belə ki, qeyri-neft sənayesində istehsal həcmi son on ildə, təxminən, 2 dəfə artmış, kənd təsərrüfatı məhsulları istehsalı isə 1,5 dəfə genişlənmişdir. Xidmət sektorunun payı 40 faizdən 50 faizə yüksələrək iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən birinə çevrilmişdir.

**Dayanıqlılığın formalaşması:** 2015-ci ildə dövlət büdcəsinin gəlirləri 17 milyard manat təşkil edirdisə, son on ildə bu göstərici 40 milyard manata yaxınlaşmışdır.



Beləliklə, cəmi bir onillik ərzində büdcə gəlirləri təxminən iki dəfə artmışdır. Lakin ən mühüm dəyişiklik strukturda baş vermişdir. Əgər əvvəl büdcə gəlirlərinin əsas hissəsi neft sektorundan formalaşırdısa, hazırda qeyri-neft gəlirlərinin payı 50 faizə yaxınlaşmışdır. Bu, iqtisadiyyatın daha dayanıqlı maliyyə bazasına keçdiyini göstərir. Qeyd olunan artımın arxasında vergi inzibatçılığının təkmilləşdirilməsi, iqtisadi aktivliyin genişlənməsi və kölgə iqtisadiyyatının azalması kimi amillər dayanır.

**İxracın yeni keyfiyyəti:** Müqayisə edilən dövrdə Azərbaycanın ixrac strukturunda ciddi dəyişikliklər baş vermişdir. Ümumi ixrac həcmi, təxminən, iki dəfə artdığı halda, qeyri-neft ixracı 3 dəfəyə qədər genişlənmişdir. Bu isə onu göstərir ki, ölkə artıq yalnız xammal ixrac edən iqtisadi modeldən tədricən uzaqlaşaraq daha geniş məhsul çeşidi ilə beynəlxalq bazarlarda mövqeyini möhkəmləndirir. Bu dəyişiklik xüsusilə aqrar məhsullar, kimya sənayesi və emal sənayesi məhsulları üzrə özünü daha qabarıq şəkildə göstərir və ixracın şaxələndirilməsi istiqamətində mühüm nəticələrdən xəbər verir.

**Risklərin effektiv idarə olunması:** 2015–2016-cı illərdə inflyasiyanın 12–15 faiz səviyyəsində dəyişməsi əhalinin real gəlirlərinə ciddi təsir göstərmişdi. Lakin son illərdə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində inflyasiya tədricən azaldılaraq 2025-ci ildə 5–6 faiz səviyyəsində sabitləşdirilmişdir. Eyni zamanda, milli valyutanın sabitliyi təmin edilmişdir. Bu sabitlik təsadüfi deyil. Onun arxasında maliyyə ehtiyatlarının qorunması, idxal strukturunun optimallaşdırılması və monetar siyasətin daha sərt və koordinasiyalı şəkildə həyata keçirilməsi dayanır. Nəticədə, iqtisadiyyat qlobal şoklara qarşı daha davamlı xarakter almışdır.

**İqtisadi coğrafiyanın transformasiyası:** Müqayisə edilən dövrün əvvəlində iqtisadi fəallığın əsas hissəsi Bakıda cəmləşmiş, regionlarda isə iqtisadi imkanların məhdudluğu müşahidə olunmuşdur. Lakin son illərin nəticələri göstərir ki, bu mənzərə əhəmiyyətli dərəcədə dəyişmişdir. Regionlarda sənaye istehsalı iki dəfədən çox artmış, kənd təsərrüfatı genişlənmiş və yeni iş yerləri yaradılmışdır. Yol, enerji və logistika infrastrukturu üzrə həyata keçirilən layihələr regionların iqtisadi dövriyyəyə daha fəal qoşulmasına şərait yaratmışdır. Bu isə ölkə daxilində iqtisadi balansın formalaşmasına və regional inkişafın sürətlənməsinə gətirib çıxarmışdır.

**Əldə olunan nəticələrin əsas mənbəyi:** Qeyd olunan bütün dəyişikliklərin əsasında Prezident İlham Əliyev tərəfindən həyata keçirilən ardıcıl sosial-iqtisadi siyasət dayanır. Son 10 ildə müəyyən edilmiş prioritet istiqamətlər – iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, sosial rifahın qorunması və regionların dirçəldilməsi – praktik nəticələr vermişdir. Bu siyasətin əsas üstünlüyü onun qısamüddətli artıma deyil, uzunmüddətli dayanıqlılığa yönəlməsidir.

Son 10 ilin statistikası göstərir ki, Azərbaycan iqtisadiyyatı yalnız böyüməyib, eyni zamanda, struktur baxımından yenidən qurulmuşdur. ÜDM-in 2 dəfədən çox olmaqla büdcə gəlirlərinin artması qeyri-neft sektorunun aparıcı mövqeyə yüksəlməsi və makroiqtisadi sabitliyin təmin edilməsi bu transformasiyanın əsas göstəriciləridir.

Bu gün iqtisadiyyatın gücü yalnız enerji sektorunda deyil, onun idarə olunma modelində, çevikliyində və dayanıqlılığındadır. Məhz bu xüsusiyyətlər Azərbaycanın növbəti inkişaf mərhələsinə daha inamla keçidini təmin edir. Nəticə olaraq qeyd edilməlidir ki, Azərbaycan iqtisadiyyatının son 10 ildə müsbət yöndə belə dəyişməsinin əsas göstəricisi isə rəqəmlərin artımı deyil, həmin rəqəmləri diqtə edən mükəmməl iqtisadi məntiqdir.

*Yaşar MƏMMƏDOV,*
*ETN İqtisadiyyat İnstitutunun şöbə müdiri,*
*iqtisad elmləri doktoru*

*Biz deməsək…*

# Pərakəndə ticarətdə "kampaniya" və "endirim" oyunları

## *Yaxud "astarı üzündən baha" mallar*

**Son dövrlərdə paytaxtın ticarət müəssisələrində və sosial şəbəkələrdə tez-tez rast gəlinən "Mağaza bağlanır", "Bütün mallar maya dəyərinə", "Hər şey yarı qiymətinə" kimi cəlbedici reklamlar istehlakçı davranışına ciddi təsir göstərir. İlk baxışdan alıcı üçün sərfəli görünən bu kampaniyalar bir çox hallarda reallığı əks etdirmir və bazarda şəffaflıqla bağlı ciddi suallar yaradır.**

Müşahidələr göstərir ki, bu tip reklamlar əsasən alıcı axınını artırmaq məqsədi daşıyır. Lakin mağazaya daxil olduqda diqqətə çatdırılan böyük endirimlərin yalnız məhdud sayda məhsula şamil edildiyi və ya ümumiyyətlə mövcud olmadığı üzə çıxır. Bu isə ekspertlər tərəfindən klassik "aldadıcı marketinq" strategiyası kimi qiymətləndirilir.

İstehlakçıların mediaya bildirdiyi fikirlər də bunu təsdiqləyir. Alıcıların əksəriyyəti qeyd edir ki, belə hallarla qarşılaşdıqdan sonra həmin mağazalara etibarları azalır və təkrar alış qərarları mənfi istiqamətdə dəyişir. Bu isə uzunmüddətli perspektivdə biznes subyektlərinin özləri üçün də risk yaradır.

Azərbaycan qanunvericiliyi bu sahədə kifayət qədər aydın tələblər müəyyən edir. Bu baxımdan, xüsusilə, "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu istehlakçıların aldadılmasının qarşısının alınmasında daha çox diqqət çəkir. Qanuna görə, reklam istehlakçı seçimlərini stimullaşdırmalı, lakin heç bir halda yanlış təsəvvür yaratmamalıdır. Qiymət endirimləri ilə bağlı reklamlar isə konkret və şəffaf məlumatları əhatə etməli, kampaniyanın müddəti, təqdim olunan məhsullar, əvvəlki və yeni qiymətlər açıq şəkildə göstərilməlidir. Əks halda, bu, qanun pozuntusu kimi qiymətləndirilir.

Bu istiqamətdə nəzarət funksiyasını həyata keçirən Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi daxil olan müraciətlər əsasında araşdırmalar aparır və qanun pozuntusu aşkar edildiyi təqdirdə müvafiq tədbirlər görür. Bu mexanizm bazarda nizam-intizamın qorunması baxımından mühüm rol oynayır.




### "Endirim var, gəlin ha…"

Aldadıcı endirim kampaniyalarının ən ciddi nəticələrindən biri istehlakçı etimadının zəifləməsidir. Müasir bazar iqtisadiyyatında etimad əsas kapital hesab olunur. Bir dəfə aldadıldığını düşünən alıcı təkcə konkret mağazadan deyil, həm də oxşar kampaniyalardan uzaqlaşmağa başlayır. Bu isə bütövlükdə pərakəndə ticarət sektorunda mənfi tendensiyalara səbəb olur. Yəni real endirim kampaniyalarına inam azalır, rəqabət mühiti qeyri-sağlam formalaşır, hər hansı bir dürüst sahibkar haqsız rəqabətlə üzləşir.

Problemin iqtisadi və sosial miqyasına gəldikdə isə, məsələ təkcə fərdi istehlakçı hüquqlarının pozulması ilə məhdudlaşmır. Bu cür halların geniş yayılması iqtisadi sistemdə daha dərin problemlərin mövcudluğuna diqqət çəkir. Şəffaflığın zəifləməsi, qeyri-formal satış strategiyalarının çoxalması və nəzarət mexanizmlərinin səmərəliliyinin müzakirə mövzusuna çevrilməsi bazar institutlarının inkişafına mənfi təsir göstərir.

Bu məsələ sosial baxımdan daha çox narahatlıq doğurur. Çünki aşağı və orta gəlirli əhali qrupları endirim kampaniyalarına daim həssas yanaşır və belə hallarda zərər çəkən tərəfə çevrilir. Mövcud vəziyyətdən çıxış üçün bir neçə istiqamətdə addımların atılması vacibdir. Birincisi, nəzarət mexanizmləri gücləndirilməli, pozuntulara görə tətbiq olunan sanksiyalar daha çəkindirici olmalıdır. İkincisi, istehlakçı maarifləndirilməsinə xüsusi önəm verilməli, vətəndaşlar öz hüquqları barədə daha geniş məlumatlandırılmalıdır. Üçüncüsü, biznes subyektləri üçün etik reklam standartları təşviq edilməli və özünütənzimləmə mexanizmləri formalaşdırılmalıdır. Nəhayət, rəqəmsal platformalarda yerləşdirilən reklamların monitorinqi daha sistemli şəkildə həyata keçirilməlidir.

Yalançı endirim kampaniyaları qısamüddətli qazanc məqsədi daşısa da, bu, uzunmüddətli perspektivdə həm biznesə, həm də bazar iqtisadiyyatının sağlamlığına ciddi zərər vurur. Şəffaflıq, dürüstlük və istehlakçı hüquqlarına hörmət isə dayanıqlı iqtisadi inkişafın əsas şərtləridir. Bu baxımdan həm dövlət qurumlarının nəzarəti, həm də sahibkarların məsuliyyətli davranışı bazarda etimad mühitinin bərpası üçün həlledici rol oynayır.

Yeri gəlmişkən, rəsmi statistikaya əsasən, Azərbaycanda pərakəndə ticarət dövriyyəsi son illərdə davamlı artım nümayiş etdirir. Dövlət Statistika Komitəsi tərəfindən açıqlanan məlumatlara görə, ölkədə pərakəndə ticarət dövriyyəsi illik olaraq milyardlarla manat həcmində ölçülür və bu artım əsasən istehlak bazarının genişlənməsi ilə əlaqədardır. Eyni zamanda, rəqəmsal platformalarda reklam yerləşdirmə imkanlarının genişlənməsi nəticəsində sosial şəbəkə üzərindən satış edən subyektlərin sayı artır, qeyri-rəsmi reklam kampaniyalarının payı yüksəlir, nəzarət mexanizmləri üçün yeni çağırışlar yaranır. Bu isə ənənəvi mağazalarla yanaşı, onlayn satış kanallarında da aldadıcı endirimlərin miqyasının genişlənməsi deməkdir.

### Qiymət aldatması cinayətdir

Aldadıcı reklam problemi təkcə Azərbaycanda yaşanılmır. Belə narahatlığa bir çox inkişaf etmiş ölkələrdə də rast gəlinir, amma həmin dövlətlərdə bu məsələyə ciddi nəzarət edilir, vəziyyət hüquqi mexanizmlərlə tənzimlənir. Məsələn, ABŞ-da reklamların doğruluğu daim diqqət mərkəzində saxlanılır. Mövcud qaydalara görə, "endirim" ifadəsi yalnız real qiymət azaldılması olduqda istifadə edilir. Eyni zamanda, məhsulun əvvəlki qiyməti süni şəkildə artırılıb sonra endirim kimi təqdim edilərsə, bu qanun pozuntusu sayılır. Bundan başqa, istehlakçını çaşdıran istənilən vizual və ya mətn elementi cərimə ilə nəticələnir.

Avropa İttifaqında qəbul edilən istehlakçı hüquqları təlimatlarına əsasən, son 30 gün ərzində tətbiq olunan ən aşağı qiymət "əvvəlki qiymət" kimi göstərilir, endirim kampaniyaları zamanı isə qiymət manipulyasiyalarına qarşı xüsusi monitorinq aparılır. Qonşu Türkiyədə də bu sahədə nəzarət daim diqqətdə saxlanılır. Qardaş ölkənin Ticarət Nazirliyinin son dövrlər apardığı yoxlamalar nəticəsində yüzlərlə şirkət aldadıcı endirimlərə görə cərimələnib. Xüsusilə "70 faiz endirim" kimi iddiaların əsaslandırılması ciddi şəkildə araşdırılıb.

Azərbaycan qanunvericiliyi, o cümlədən "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu ümumi çərçivə baxımından beynəlxalq standartlara uyğun olsa da, tətbiq mexanizmlərində müəyyən boşluqlar narahatlıq doğurur. Belə ki, inkişaf etmiş ölkələrdə bu sahədə önləyici nəzarət üstünlük təşkil edir, respublikamızda isə hər hansı bir qanun pozuntusuna daha çox şikayət əsasında reaksiya verilir. Lakin qiymət tarixçəsinin izlənilməsi üçün xarici ölkələrdən fərqli olaraq rəqəmsal sistemlərdən istifadə arxa plana keçirilir, cərimələrin çəkindiricilik səviyyəsi bəzi hallarda kifayət qədər yüksək olmur.

Bu baxımdan Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi tərəfindən həyata keçirilən nəzarət tədbirləri mühüm önəm daşısa da, daha sistemli və texnoloji əsaslı yanaşmaya ciddi ehtiyac duyulur. Bundan başqa, aldadıcı endirimlərin bazar iqtisadiyyatının əsas prinsiplərindən biri olan ədalətli rəqabəti pozduğu hallara tez-tez rast gəlinir. Bu vəziyyətin isə bir neçə istiqamətdə mənfi təsir göstərməsi müşahidə edilir. Məsələn, real bazar qiymətləri ilə süni endirimlər arasında fərq yarandıqda istehlakçı düzgün qərar vermək imkanından məhrum olur. Qanuna uyğun fəaliyyət göstərən sahibkarlar isə qeyri-etik hərəkətlərə yol verən rəqiblərlə mübarizə apara bilmədiklərindən "kölgə" iqtisadiyyatı genişlənir. Başqa sözlə, qeyri-rəsmi satış və nəzarətsiz reklamlar vergi itkilərinə gətirib çıxarır.

### Yalançının evi yandı…

Maraqlıdır ki, bu tip kampaniyalar təkcə iqtisadi deyil, həm də psixoloji təsir mexanizmlərinə əsaslanır. "Mağaza bağlanır", "Bütün mallar maya dəyərinə", "Hər şey yarı qiymətinə" kimi ifadələr istehlakçıda təcili qərarvermə hissi yaradır. Nəticədə alıcı məhsulu real ehtiyacdan çox emosional təsir gücü ilə aldığından qiymət müqayisəsi aparmır, sonradan məyusluq yaşayır və bazara etimadı itir.

Bu məqamda bir atalar sözü yada düşür: "Yalançının evi yandı, heç kim inanmadı". Endirim kampaniyaları bu deyimi bir daha xatırladır. Yəni istehlakçı ticarət müəssisəsində belə bir yolla bir dəfə aldadılırsa, o, ikinci dəfə bu proses şəffaflıqla keçirilsə belə, yenidən hadisənin təkrarlanacağına inanaraq mağazaya daxil olmaq fikrindən daşınır. Sosial şəbəkələrdə fəaliyyət göstərən mağazalar və fərdi satıcılar isə bu problemi daha da aktuallaşdırır. Çünki onların bir hissəsi rəsmi qeydiyyatdan keçmir, reklamlar sürətlə yayılır və qısa müddətdə geniş auditoriyaya çatır.

Belə bir məsələdə məsuliyyət mexanizmlərinin tətbiqi, təəssüf ki, yada düşmür. Bu baxımdan rəqəmsal ticarətin tənzimlənməsi yaxın gələcək üçün prioritet istiqamətlərdən biri hesab olunur. Ekspertlərin bir çoxu bu və digər problemlərin həlli məqsədilə kompleks tədbirlərin zəruriliyini bildirir, rəqəmsal qiymət monitorinqi sisteminin yaradılmasının əhəmiyyətini vurğulayır, yalnız bu yolla məhsulların qiymət tarixçəsinin ictimaiyyət tərəfindən izlənmə mümkünlüyünün gerçəkləşə biləcəyini diqqətə çatdırır.

**Qida eksperti Asif Gülalıyev** vurğulayır ki, endirim kampaniyalarında aşkarlanan qanun pozuntularına yol verən müəssisələrə tətbiq olunan cərimələr artırılmalı və ictimai açıqlıq (ticarət şirkətlərinin adlarının bildirilməsi) təmin edilməlidir. İstehlakçı hüquqları üzrə maarifləndirmə gücləndirilməlidir. Media və sosial platformalar bu istiqamətdə daha fəal rol oynamalıdır. Onlayn ticarət subyektlərinin məsuliyyət mexanizmlərini daha gücləndirmək üçün onların qeydiyyatı da məcburi olmalıdır.

Beləliklə, aldadıcı endirim kampaniyaları qısamüddətli satış artımı yaratsa da, uzunmüddətli perspektivdə bazarın sağlamlığına ciddi zərbə vurur. Etimadın itirilməsi, rəqabətin pozulması və istehlakçı hüquqlarının zəifləməsi bu prosesin əsas nəticələri olaraq ciddi narahatlıq doğurur. Buna görə də müasir iqtisadi şəraitdə şəffaflıq təkcə hüquqi tələb deyil, həm də biznesin davamlılığı üçün strateji zərurətdir. Azərbaycan bazarının daha sağlam və rəqabətqabiliyyətli inkişafı üçün isə həm dövlət nəzarəti, həm də sahibkar məsuliyyəti paralel şəkildə gücləndirilməlidir.

*Ekspert rəyi*



**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**

Mağaza vitrinlərində "Mağaza bağlanır", "Bütün mallar maya dəyərinə", "Hər şey yarı qiymətinə" kimi cəlbedici reklamların yerləşdirilməsində əsas məqsəd istehlakçıları mağazaya cəlb etməkdir. Problemlər də məhz bundan sonra başlanır. İstehlakçı ticarət müəssisəsinə daxil olaraq məhsul seçir, lakin sonradan ona həmin malın endirimə aid olmadığı bildirilir. Bəzi hallarda isə alıcı endirimlə aldığı malın tələbatına uyğun gəlmədiyini görsə də, onu dəyişdirmək və ya geri qaytarmaq reallaşmır. Məsələn, bir sıra hallarda mağazalarda endirimli geyimlərin dəyişdirilməsinin, yaxud qaytarılmasının mümkün olmadığı iddia edilir ki, bu da qanunvericiliyə ziddir.

Endirimlə alınan mallar da dəyişdirilə və ya qaytarıla bilər. Bunun üçün istehlakçı kassa çekini saxlamalı və 14 gün müddətində mağazaya müraciət etməlidir. Lakin ticarət müəssisəsində alıcının bu istəyinə qarşı çıxılması isə istehlakçı hüquqlarının pozulmasıdır. Belə məqamlarda biz dövlət orqanları qarşısında məsələlər qaldırırıq, ancaq bəzən deyirlər ki, bu marketinq siyasətidir. Belə çıxır ki, marketinq siyasəti istehlakçının aldadılmasına yönəlib. Təəssüf ki, daha çox bayram ərəfələrində endirim kampaniyaları zamanı istehlakçıların kütləvi şəkildə aldadılması halları baş verir.

Nazirlər Kabinetinin 94 saylı qərarına əsasən, malların üzərində maddi məsul şəxsin imzası olan rəsmi qiymət sənədi olmalıdır. İstehlakçının malın əvvəlki və sonrakı qiymət sənədləri ilə tanış olmaq hüququ da var. Lakin hazırda ölkədə satış şəbəkələrindəki məhsulların, təxminən, 80 faizinin heç bir rəsmi sənədi yoxdur və bu da istehlakçıları öz hüquqlarından məhrum edir. Bütün bu məsələlər qaydaya salınmalıdır. Əks halda, bu şəraitdə istehlakçı hüquqlarının pozulması davam edəcək.

Bizim mağazalarda, sadəcə, etiketlərin üzərində müəyyən bir qiymət yazılır, endirim olduqda isə qələmlə üstündən xətt çəkilərək yeni qiymətlər göstərilir. Qanunvericiliyə əsasən, istehlakçı rəsmi sənədlər əsasında endirimin nə qədər olmasını bilməlidir.

Ümumiyyətlə, ticarət müəssisələrində şişirdilmiş qiymətlər və yalançı endirimlərlə bağlı böyük problem var. Bu da ölkəmizdə mükəmməl və perspektivli istehlakçı siyasətinin formalaşmadığını göstərir. Saxta kampaniyaların təbliği isə insanların cibini, bir növ, soymağa hesablanıb.

*Vaqif BAYRAMOV*
*XQ*

*Təqvim yada salır*

# İnşaatçı-memarın ömür yolunun 40 illik yüksəliş pillələri

**Həyat və fəaliyyətinin "hesabat dövrü"nü qələmə aldığımız təcrübəli inşaatçı - memar Övsət Həmidovun ali məktəb illərindən başlayan peşə fəaliyyəti 40 ildir ki, tikinti və memarlıqla ayrılmaz şəkildə bağlıdır. Həm soyundan olan insanlar, həm kəndliləri və dostları, həm də onu tanıyan iş adamları bu istedadlı inşaatçı-memarla həmişə fəxr edir, onun peşəsinə necə böyük sevgi ilə yanaşmasından, işinə olan məsuliyyətindən və intizamından heyranlıqla danışırlar.**



Övsət Gülhəsən oğlu Həmidov 10 fevral 1961-ci ildə Lerik rayonunun Çayrud kəndində, ali təhsilli, tanınmış meşə təsərrüfatı işçisinin ailəsində dünyaya gəlib. Bu çoxuşaqlı ailədə göz açan uşaqların təlim-tərbiyəsinin qiyməti onların təhsildə və elmdə qazandıqları uğurlarla dəyərləndirildiyi üçün bütün qardaşlar yüksək ali təhsil almağa çalışıblar. Bu "rəqabətdə" də Övsət həmişə öndə olub. Orta məktəbdə ona dərs demiş Nəsir müəllim Rzayev deyir ki, "Övsət çox çalışqan, əla qiymətlərlə oxuyan, ictimai işlərdə fəal olan ağıllı bir oğlan idi".

Kənd orta məktəbini əla qiymətlərlə bitirən Övsət Həmidov Azərbaycan Memarlıq və İnşaat Universitetinin inşaat fakültəsində "Sənaye və mülki tikinti" ixtisası üzrə ali təhsil alıb. Universitetdə tələbə elmi cəmiyyətinin fəal üzvü olan gənc inşaatçı 4 elmi işi ilə müəllim-professor heyətinin diqqətini çəkib. Amma elmi biliklərin praktik təcrübədə sınaqdan keçirilməsini daha doğru yol hesab edərək 1978-ci ildə "İstilik İzolyasiya" Bakı quraşdırma idarəsində fəhlə kimi əmək fəaliyyətinə başlayıb. 8 il bu müəssisədə müxtəlif vəzifələrdə çalışaraq peşəsinin incəliklərinə yiyələnməklə yanaşı, idarəçiliyin sirlərini də öyrənməyə səy göstərib. Bütün bu illər ərzində onun qurduğu xəyallarda paytaxt Bakıda möhtəşəm binalar layihələndirmək, Xəzərin qoynundakı bu doğma şəhəri öz ideyaları ilə daha da gözəlləşdirmək xüsusi bir yer tuturdu.

"Rəhmətlik atam çox savadlı və meşə təsərrüfatı işini yüksək səviyyədə bilən, həmkarları arasında böyük hörmət sahibi olan bir insan idi, – deyə Övsət müəllim xatirələrə baş vurur. – Bizə qarşı çox tələbkar idi. Onun bir ifadəsi bu gün də yaddaşımdan mənə səslənir: "Həyatda kim olursan-ol, vicdanlı, məsuliyyətli və işinin ustası ol!"

Peşəsindən böyük sevgi ilə danışan Övsət müəllimdən nədən inşaatçı olmasını soruşanda xəyalən keçmişə qayıdaraq deyir: "Yeniyetmə yaşlarında Bakıya gələndə şəhər, buradakı binalar, tikililər, xüsusilə tarixi memarlıq abidələri məni valeh edirdi. Məsələn, Venesiya üslubunda inşa olunmuş Murtuza Muxtarovun evi – "Səadət sarayı", qotik üslublu "İsmailiyyə sarayı", intibah memarlığının nümunəsi olan Filarmoniya binası, Barokko üslubunda tikilmiş Bakı Şəhər İcra Hakimiyyətinin binası, "Atlantalı ev", Hacı Zeynalabdin Tağıyevin sarayı və sair binalardan gözümü ayıra bilmirdim".

Bütün bunlar ucqar kənddən gəlmiş yeniyetmə üçün bir möcüzə olur. Beləcə, bu ehtiras aydın bir istəyə çevrilir və o vaxtdan Övsət inşaatçı olub binalar, körpülər, müəssisələr tikmək xəyalları qurur.

1980-1982-ci illərdə ordu sıralarında xidmətə çağırılır. Mükəmməl ali təhsili, az bir vaxtda qazandığı təcrübə, iti mühəndis təfəkkürü, layihələndirdiyi binalara yaradıcı yanaşma qabiliyyəti ordu sıralarında xidmət zamanı da komandanlığın diqqətini çəkir və Rusiya Federasiyasının Primorsk diyarının Vladivostok şəhərində Hərbi Mühəndis İşləri İdarəsinin rəisi kimi məsuliyyətli vəzifəyə təyinat alır. Bu vəzifədə çalışdığı 2 ildə Övsət Həmidov göstərilən etimadı 24 beşmərtəbəli yaşayış binasının, 1 gəmi körpüsünün, 1 gəmi təmiri üçün nəzərdə tutulan bərənin və hərbi hava limanının uğurlu inşasına rəhbərlik etməklə doğruldur.

Ordu sıralarından tərxis olunduqdan sonra peşəsinin kamilləşməsi yolunda daha səylə çalışmağa başlayır. Ən müasir tikinti metodlarının, modern memarlıq üslublarının mənimsənilməsinin və işə tətbiqinin gerçək yolunu oxumaqda və öyrənməkdə görən gənc inşaatçı-memar 1990-1998-ci illərdə "Polad konstruksiya" Bakı Quraşdırma İdarəsində istehsalata hazırlıq sahəsinin rəisi vəzifəsinə təyin olunur. Az sonra müəssisənin plan və istehsalat şöbəsinə rəhbərlik etməyə başlayır. Amma praktik iş onu daha çox cəlb etdiyi üçün tikinti meydanını seçir və 4 il sahə rəisi vəzifəsində çalışır.

"Memarın işi canlı bir dialoqdur, – deyir Övsət müəllim. – Bu, sıradan bir peşə deyil. Memarlıq zaman qarşısında məsuliyyətdir. Memar heç vaxt tək işləmir. Onun əsl dialoqu yer, məkan və təbiətlə olur".

Övsət müəllimin layihə hazırlığının ilkin mərhələsinə necə başlaması ilə təsadüfi tanışlığımdan onu kəşf etməyə başladım. Hər hansı bina üçün verəcəyi layihənin yeri ilə tanışlıq zamanı ətrafındakılarla ünsiyyəti dərhal kəsir, sanki məkanla "dialoqa girir", düşüncələrini sorğuya çəkməyə başlayır. Yerindəcə günəşin hardan boy verəcəyini, küləyin istiqamətini və torpağın xüsusiyyətlərini araşdırmağa və təhlil etməyə başlayır...

Fəaliyyətinin ən qiymətli dövrlərindən biri kimi tez-tez 1993-cü ili yada salır. Həmin dövrdə 32 yaşına yenicə qədəm qoyan Övsət Həmidov paytaxtdakı Musiqili Komediya Teatrının yenidən qurulması layihəsinin həyata keçirilməsində iştirak edir və burada Azərbaycanın görkəmli dövlət xadimi, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar mühəndis və tanınmış inşaatçı Əliş Ləmbəranski ilə çiyin-çiyinə işləməyə başlayır.

"Bu şəxsiyyətlə tanışlığım mənim peşə düşüncəmdə sanki bir inqilab yaratdı, – deyə Övsət müəllim ustadını minnətdarlıqla xatırlayaraq söhbətinə davam edir. – Əliş müəllim, ilk tanışlığımızdan peşəmə olan sevgimi görəndə mənə çox qiymətli məsləhət və tövsiyələr verməyə başladı. Tövsiyələrindən biri bu oldu ki, "inşaatçı-memar inkişaf etmiş məkan düşüncəsinə malik olmalı, bir obyekti 3 ölçüdə görə bilməli və onun müxtəlif bucaqlardan və günün müxtəlif vaxtlarında necə görünəcəyini təsəvvür edə bilməlidir. Memar müxtəlif mütəxəssislərin – mühəndislərin, dizaynerlərin, inşaatçıların və landşaft memarlarının səylərini birləşdirən "dirijordur". Yəni memar yalnız yaradıcı qabiliyyətlərə deyil, həm də təşkilati bacarıqlara malik olmalıdır". Bu fikirlər sonrakı peşə fəaliyyətimdə mənə bələdçi oldu".

Bundan sonra qəhrəmanımızın fəaliyyətində vəzifələr bir-birini əvəz etməyə başlayır. 1998-ci ildə Bakı Şəhər Tikinti Trestinin 22 nömrəli tikinti idarəsində plan-istehsalat şöbəsinin rəisi, 2000–2015-ci illərdə "SNT İnşaat" şirkətində direktor müavini, 2016-cı ildə "Narın MTK"da memar, 2016–2017-ci illərdə "Lider Monolit" MMC-də direktor kimi fəaliyyət göstərir. Bu illərdə müxtəlif bölgələrdə inşaatçı-memar kimi öz izini qoydu. Bunların sırasında Sumqayıtda 48-ci məhəllədə inşa edilən 4 binadan ibarət yaşayış kompleksini, Qəbələ, Zaqatala və Balakən Tütün Fermentasiya zavodlarını, Lənkəran və Bakı mebel fabriklərini, Lənkəran və Qusar konserv zavodlarının binalarını və sair layihələrinin vaxtında, uğurlu tikilib fəaliyyətə başlamalarını qeyd etmək olar.

Təcrübəli inşaatçı-memar 2020-ci il 44 günlük müharibədə qazanılan Zəfərdən sonra azadlığa qovuşan Qarabağda həyata keçirilən möhtəşəm Qayıdış layihəsində iştirakını əmək fəaliyyətinin ən mühüm dövrü hesab edir. Həm də rəhbər vəzifədə iştirakını əmək fəaliyyətinə və təcrübəsinə verilən böyük dəyər hesab etdiyi bu hadisəni belə xatırlayır: "Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyevin Zəfərdən dərhal sonra imza atdığı Qayıdış Proqramı haqqında məlumatları diqqətlə izləyir və çox istəyirdim ki, erməni vandallarının viranəyə çevirdikləri bu torpaqlarda sıravi bir inşaatçı mütəxəssis kimi də olsa, mən də iştirak edim və ölkəmə öz töhfəmi verim. Çünki bu torpaqların azad edilməsində Azərbaycanın qəhrəman oğullarından biri kimi mənim soyumdan olan, qardaşım oğlu Cavanşir Həmidov şəhid olub, qardaşım, 300-dən artıq qazimizi əlil olmaqdan xilas edən hərbi travmotoloq-həkim, polkovnik-leytenant Əbülfət Həmidov yaxından iştirak edib.

Şükürlər olsun ki, məni tanıyan və fəaliyyətimə yaxından bələd olan insanlar bu arzumun gerçəyə çevrilməsində böyük rol oynadılar. 2021-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə yaradılan "Qarabağ iqtisadi rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxsin (sonradan Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxsinin) icraçı direktoru vəzifəsinə təyinat aldım. Qürurla deyə bilərəm ki, həmin dövrdən başlayaraq, azad edilmiş torpaqlarımızda Qayıdış Proqramı çərçivəsində reallaşdırılan layihələr son dərəcə möhtəşəm, gələcəyə hesablanmış layihələrdir və onların miqyası dövlət başçısının nə qədər böyük təmkinlə bu layihələrin hazırlanıb həyata keçirilməsinə diqqət ayırdığına heyran qalmaya bilmirsən...".

Bu təyinatdan sonra Övsət Həmidov böyük enerji ilə bütün potensialını və inşaatçı-memar kimi yaradıcı təfəkkürünü Qarabağın dirçəlişinə yönəldir. Az müddət sonra onun rəhbərliyi altında bərpaolunan və Qarabağa qayıdışın ilk ünvanlarından birinə çevrilən Talış kəndi xarabalıqlardan doğan tərəqqi məşəli kimi parlayır. Müasir memarlığın və şəhərsalma qaydalarının tələblərinə cavab verən bu yaşayış məntəqəsinin açılışında Azərbaycan Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva şəxsən iştirak edirlər. Qısa müddətdə həyata keçirilən tikinti işləri dövlət səviyyəsində yüksək qiymətləndirilir.

Gerçəkləşən elə bu ilk tikinti layihəsi zamanı Övsət Həmidovun həyata vəsiqə alan səmərəli təklifi hamının diqqətini çəkir. Təcrübəli inşaatçı dağıntılardan yaranan milyonlarla ton tikinti tullantısının təbiətə yük deyil, faydaya çevrilməsi təklifini irəli sürür və bunu əsaslandırır. Onun təşəbbüsü ilə bu tullantılar təkrar emal edilərək yol yataqlarında və tametaltı əsaslarda istifadə olunmağa başlanır, nəticədə, həm xərclərə böyük qənaət edilir, həm də ekoloji fəsadların qarşısı alınır. Bu səmərələşdirici təkliflə yanaşı, Övsət Həmidovun ümumən tikinti-bərpa işlərinin həyata keçirilməsi zamanı enerji səmərəliliyinin artırılması, istilik tutumluluğu yüksək olan evlərin inşası kimi yenilikçi ideyaları da həyata vəsiqə alır və özünü doğruldur.

Onun rəhbərliyi dövründə Ağdam rayonunun Xıdırlı, Sarıcalı və Kəngərli kəndlərinin layihələndirilməsi tamamlanır, bu yaşayış məntəqələrində genişmiqyaslı tikinti işlərinə start verilir. Ümumiyyətlə, dövlət başçısının 2026-cı ilin sonunadək 50 mindən çox insanın doğma yurda qaytarılması tapşırığının yerinə yetirilməsi üçün yorulmadan çalışan Övsət Həmidov Qarabağın dirçəlişində öz inşaatçı imzasını qoyur və bölgəyə həyat qayıtdıqca, daha böyük şövqlə işlyir.

Övsət Həmidovun fəaliyyəti yalnız tikinti meydançalarındakı işi ilə bitmir. O, həm də təcrübəli, peşəkar inşaatçı-memar kimi Azərbaycan Memarlıq və İnşaat Universitetində tələbələrə keçdiyi ustad dərsləri ilə gənc mühəndislər nəslinin formalaşmasına böyük töhfə verir. Axı o, həm də inşaat mühəndisliyi sahəsində fəlsəfə doktoru elmi dərəcəsi almış çox az sayda mütəxəssislərimizdəndir. Onun elmi tədqiqatları – inşaat materiallarının keyfiyyəti, seysmik dayanıqlılığı və müasir layihələndirmə metodları bu gün ölkəmizin tikinti sektorunda mühüm tətbiqi əhəmiyyət kəsb edir.

Ustad memar gənc həmkarlarına tövsiyə və məsləhətlərində deyir: "Məsələ heç də binaları ucaltmaq, təmir edib istifadəyə vermək deyil. Memarın əsas vəzifələrindən biri estetika və funksionallıq, gözəllik və praktiklik arasında tarazlığı tapmaqdır".

Övsət Həmidov ailə ocağına, nəsil şəcərəsinə və yurd yerinin adət-ənənələrinə, dini əqidəsinə sədaqəti ilə də seçilən bir insandır. Əsas amalı mənəvi və fiziki sağlam həyat tərzi və onun bütün nəsillər arasında təbliği olan Övsət müəllim İslamın vacib şərtlərinə əməl edən və müqəddəs Həcc ziyarətində olan möhkəm əqidə sahiblərindəndir.

Hacı Övsət vətənsevərliyi ilə bərabər, gözəl ailə başçısı, nümunəvi və qayğıkeş ata, baba və mehriban qardaşdır. Böyük oğlu Vüsal yüksək ixtisaslı göz həkimi, kiçik oğlu Nicat kompüter elmləri üzrə proqramçı mütəxəssis, qızı Humay isə uşaq həkimidir. Hər 3 övladın peşələrinə münasibəti babalarından gələn vəsiyyətə söykənir: "Kim olursan-ol, peşənin ustası ol!"

İşdə bir qədər sərt və prinsipial olan Hacı Övsət, həyatda olduqca təvazökar, şəfqətli və xeyirxah insandır. Yaşı 65-i adlasa da, bu illər onun Çayrud kəndinin saf dağ havasından, suyundan, təbiətindən cilalanan sağlamlığına güc gələ bilməyib. Yenə gənclik həvəsi, yaradıcılıq enerjisi, vurğunu olduğu peşəsi ilə Vətənə xidmət etməkdədir.

***İlqar RÜSTƏMOV,***
***Əməkdar jurnalist***

*"Molla Nəsrəddin" – 120*

# Satirik jurnalistikamızın möhtəşəm təməl abidəsi



**AMEA Naxçıvan Bölməsində "Molla Nəsrəddin" jurnalının yaranmasının 120-ci ildönümünə həsr olunan konfrans keçirilib.**



Elmi məclisdə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev "Molla Nəsrəddin" jurnalının Azərbaycan ictimai fikir tarixində oynadığı rolu vurğulayaraq bu satirik nəşr ətrafında yaranmış ədəbi-publisistik məktəbin azərbaycançılıq məfkurəsinin ərsəyə gəlməsinə verdiyi töhfədən söz açıb.

Akademik qeyd edib ki, jurnalın Azərbaycan və Şərq ictimai-siyasi düşüncəsinə güclü təsiri yalnız müxtəlif səpkili tənqidi mətnlərində deyil, həm də bu yazıların bədii-estetik üslubunda, xüsusilə gerizəkalılığa ayna tutan karikaturalarında özünü parlaq şəkildə göstərirdi. Bu karikaturalar dövrün ictimai eyiblərini sadə, anlaşıqlı və təsirli dillə təqdim edir, geniş oxucu kütləsinə birbaşa təsir göstərirdi.

Bölmə sədri jurnalın nəşr coğrafiyasına da diqqət çəkərək bildirib ki, "Molla Nəsrəddin"in türk-müsəlmanların mədəni mərkəzləri kimi inkişaf etməkdə olan, dövrün ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayan Tiflis, Təbriz və Bakı kimi şəhərlərdə çap olunmasının tarixi zərurət kimi baş verib. Ədəbi yaradıcılıqda tənqidi realizm metodunun əsasını qoymuş görkəmli ədib Cəlil Məmmədquluzadənin jurnalın naşiri, redaktoru və ideya rəhbəri olaraq yaratdığı məktəbdə yetişən qələm sahibləri cəmiyyətə yeni baxış bucağı gətiriblər, istiqlal məfkurəsinin dövlətçiliyimizin bərpası ilə kama çatmasına çalışıblar.

Akademik İsmayıl Hacıyev sonda qeyd edib ki, ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev Cəlil Məmmədquluzadənin zəngin irsinə, "Molla Nəsrəddin"in şərəfli mübarizə yoluna böyük dəyər verərək ədibin və jurnalın yubileylərinin yüksək səviyyədə qeyd edilməsinə qərar veriblər. "Molla Nəsrəddin" məktəbinin keçdiyi yolu yeni nəsillər xalqa xidmətin tarixi örnəklərindən biri kimi öyrənir və ondan bəhrələnir.

Konfransın davamında AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru Ramiz Qasımov "Molla Nəsrəddin" jurnalının yaranışı və ənənələri" mövzusunda məruzə edib. O bildirib ki, jurnal Azərbaycan mətbuat tarixində ən uzunömürlü və ardıcıl fəaliyyət göstərən nəşrlərdən biri olub. Məruzəçi Ömər Faiq Nemanzadə ilə Cəlil Məmmədquluzadənin birgə fəaliyyəti nəticəsində jurnalın ilk nömrəsindən etibarən böyük nüfuz qazandığını diqqətə çatdırıb.

AMEA Naxçıvan Bölməsinin beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı, fəlsəfə doktoru Mehriban Sultanova isə "Mollanəsrəddinçilik ədəbi məktəbi və təlimi" mövzusunda məruzə edib. Alim Cəlil Məmmədquluzadənin publisistik irsinə, xüsusilə "Azərbaycan" məqaləsinə diqqət çəkərək jurnalın ictimai geriliyə, milli bəlalara qarşı ardıcıl və inadla mübarizə apardığını vurğulayıb, "Molla Nəsrəddin" jurnalının fəaliyyətinin Naxçıvanın həyatı və ziyalıları ilə də sıx bağlı olduğundan söz açıb.

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə doktoru Aygün Orucova "Molla Nəsrəddin" satirik şeir üslubunun yaranması və inkişaf məsələlərindən bəhs edib. O vurğulayıb ki, misilsiz poetik külliyat olan Mirzə Ələkbər Sabirin "Hophopnamə"si də qaynağını bu jurnaldan alıb və əsasən, onun səhifələrində ərsəyə gəlib.

Məclisdə bildirilib ki, anadilli jurnalistikamızın ikinci bir nəşri öz ərtafında "Molla Nəsrəddin" kimi ünlü ədəbi məktəb yarada bilməyib, Şərqdə onun qədər geniş yayılmayıb və İslam dünyasına bu jurnal kimi güclü təsir göstərə bilməyib. Bütün bunlar onu zəmanəsinin qoca "Molla Nəsrəddini" kimi tanıdıb və şöhrətləndirib.

***Tahir AYDINOĞLU***
***XQ***

# Tarixi abidələr keçmişimizin canlı yadigarıdır



**18 Aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü münasibətilə Qax rayonunda elmi-praktik konfrans keçirilib. "Şəhərsalma və Memarlıq İli" çərçivəsində Qax Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin və Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin birgə təşkil etdiyi məclisin məqsədi tarixi abidələrin qorunmasına ictimai diqqəti atırmaq, mədəni irs nümunələrinin təbliği və milli-mənəvi dəyərlərimizin yaşadılmasına töhfə verməkdir.**

Konfransın açılış mərasimində Qax Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev bildirib ki, Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü hər il bəşəriyyətin ortaq sərvəti sayılan tarixi abidələrin, qədim tikililərin və mədəniyyət nümunələrinin qorunmasının vacibliyini bir daha gündəmə gətirməklə aktuallaşdırır. Tarix və mədəniyyət abidələrini xalqımızın milli sərvəti hesab edən ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi hər iki dövrdə tarixi-mədəni irsimizin qorunub saxlanılması üçün zəruri işlər görüb, həmin dövrdə bu sahədə zəngin qanunvericilik bazası yaradılıb. Bu siyasəti son 23 ildə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva uğurla davam etdirirlər.

Bildirilib ki, ölkəmizdə tarixi abidələrin tədqiqi, mühafizəsi və bərpası prosesində abidələr öz əvvəlki görkəminə qaytarılır və mədəniyyətimizin canlı rəmzləri kimi qorunur. Mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində də böyük işlər görülür, mədəniyyətlərarası dialoq prioritet sahə kimi inkişaf etdirilir. Heydər Əliyev Fondunun dəstəyilə işğaldan azad edilmiş torpaqlarımızda tarixi abidələrimizin bərpası və konservasiyası üzrə genişmiqyaslı layihələr reallaşdırılır, qədim tarixi məkanlarımızın müasir muzey komplekslərinə çevrilir.

Şəki–Zaqatala Regional Mədəniyyət İdarəsinin rəisi Tural Kərimov və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Qəbələ Regional İdarəsinin rəisi vəzifəsini icra edən Tərxan Tahirli bölgədə tarixi abidələrin qorunması və daha geniş tanıdılması ilə bağlı qarşıda duran vəzifələrdən söz açıblar.

Sonra "Ulu öndər Heydər Əliyev və mədəni irsimiz " və "İrs ziyarəti – Qax" videoçarxları nümayiş etdirilib. Məclis İçəri Bazar Turizm Kompleksində bədii hissə ilə davam edib. İştirakçılar tarixi abidələrimizi əks etdirən materiallardan ibarət sərgi və mədəni irsimizi əks etdirən rəsm, toxuculuq və digər sənətkarlıq nümunələri ilə tanış olublar.

Sonda "Mədəni İrsimizi yaşadaq" müsabiqəsinin qalibləri mükafatlandırılıblar.

***İlqar MUSAOĞLU,***
***XQ-nin bölgə müxbiri***

# Azərbaycan və özbək nağıllarının Daşkənd nəşri

**Azərbaycanın Özbəkistandakı səfirliyi nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə Daşkənddə "Uşaq ədəbiyyatı – mədəni dialoqun təməli" şüarı altında "Azərbaycan nağılları" və "Özbək nağılları" kitablarının təqdimatı keçirilib.**

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev bildirib ki, ölkələrimiz arasında münasibətlər 14-cü əsrdən başlayıb və bu gün də bütün sahələrdə uğurla inkişaf edir. Dövlət başçılarımızın qarşılıqlı səfərləri münasibətlərimizin inkişafına təkan verir. Çox xoşdur ki, Azərbaycan nağılları özbək dilinə, özbək nağılları isə Azərbaycan dilinə tərcümə olunaraq nəşr edilib. Belə kitablar vasitəsilə özbək uşaqları Azərbaycan, Azərbaycan uşaqları isə Özbəkistan haqqında bilgi əldə edirlər.



Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Akif Marifli bildirib ki, nəşrlər Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi və F.Köçərli adına Respublika Uşaq Kitabxanasının birgə layihəsi əsasında hazırlanıb. Kitablarda Azərbaycan və özbək xalqlarının xalq və müəllif nağılları yer alıb. Nağıllarda xeyir və şər, dostluq, dürüstlük və zəhmət kimi dəyərlər bədii süjetlər vasitəsilə təqdim olunur.

Qonaqlar – Firudin bəy Köçərli adına Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova, 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Lalə Qəti, "Təhsil" nəşriyyatının baş direktoru Tural Axundov və rəssam Nərmin Abdullayeva çıxış edərək belə layihələrin uşaqlar arasında mütaliə marağının artırılmasına və Azərbaycan ilə Özbəkistan arasında mədəni əlaqələrin möhkəmlənməsinə xidmət etdiyindən danışıblar.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

*Təqdimat mərasimləri*

# “İrəvan: tarixin və itirilmiş irsin əks-sədası”





**Aprelin 15-də Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində filologiya elmləri doktoru, professor Fəridə Səfiyevanın Leyla Əliyevanın dəstəyi ilə Azərbaycan, rus, ingilis və fransız dillərində çap olunmuş “İrəvan: tarixin və itirilmiş irsin əks-sədası” kitabının təqdimatı keçirilib.**

Təqdimat mərasimində Leyla Əliyeva və Alena Əliyeva iştirak ediblər.

Tədbirdən əvvəl Azərbaycanın görkəmli oftalmoloq-alimi, akademik və ictimai xadim Zərifə Əliyevanın anım günü ilə əlaqədar xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin direktoru Anna İbrahimbəyova çıxış edərək təqdim olunan kitabın maraqlı və əhəmiyyətli olduğunu vurğulayıb, onun məhz bu məkanda təqdim olunmasından məmnunluğunu ifadə edib.

“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Rüfət Mahmud İçərişəhərin yalnız turizm deyil, eyni zamanda, incəsənət, yaradıcılıq və intellektual mərkəz kimi mühüm əhəmiyyətə malik olduğunu deyib, bu cür tədbirlərin keçirilməsinin həmin funksiyanın təzahürü olduğunu bildirib.

AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Qərbi Azərbaycan tarixi şöbəsinin rəhbəri, kitabın redaktoru Cəbi Bəhramov layihənin həm tarixi, həm də hüquqi baxımdan mühüm əhəmiyyət daşıdığını xatırladıb, İrəvanın qədim tarixə malik olduğunu və bölgədəki toponimlərin mənşəyinin çox qədim dövrlərə təsadüf etdiyini vurğulayıb.



Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva isə çıxışında belə kitabların hazırlanmasının və ictimaiyyətə təqdim olunmasının vacibliyini xüsusi qeyd edib.

Kitabın müəllifi Fəridə Səfiyeva irəvanlı olduğunu xüsusi vurğulayaraq bu əsəri yazmağın onun üçün, sadəcə, elmi fəaliyyət deyil, həm də mənəvi məsuliyyət və borc olduğunu deyib. O qeyd edib ki, doğma yurdunun tarixi, mədəni irsi və yaddaşı ilə bağlı həqiqətlərin qorunub gələcək nəsillərə çatdırılması hər bir irəvanlının üzərinə düşən mühüm vəzifədir.

Tədbir bədii hissə ilə davam edib, iştirakçılara maraqlı və zəngin mədəni proqram təqdim olunub.

Qeyd edək ki, kitab İrəvan şəhərinin Azərbaycan xalqına məxsus qədim sivilizasiya və mədəniyyət mərkəzi olduğunu elmi əsaslarla sübut etməyə yönəlib. Əsərdə şəhərin çoxəsrlik tarixi, zəngin mədəni irsi və onun formalaşmasında mühüm rol oynamış şəxsiyyətlərin həyat və yaradıcılığı geniş şəkildə tədqiq olunur. XIX–XX əsrlərdə baş vermiş faciəvi hadisələr nəticəsində İrəvanın azərbaycanlı kimliyinin məqsədyönlü şəkildə silinməsinə cəhd göstərilməsinə baxmayaraq, onun həqiqi siması arxiv sənədlərində, fotoşəkillərdə və elmi mənbələrdə öz əksini tapıb. Bu tədqiqat əsəri həmin həqiqətlərin bərpasına, İrəvanın unudulmuş Azərbaycan milli-mədəni irsinin öyrənilməsinə və gələcək nəsillərə çatdırılmasına xidmət edən mühüm elmi mənbədir.

***XQ***

# “At gücü” sənədli filminə baxış



**Aprelin 16-da Nizami Kino Mərkəzində “At gücü” (“Horse Power”) sənədli filminin təqdimatı keçirilib.**




Təqdimat mərasimində Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, mədəniyyət naziri Adil Kərimli, dövlət rəsmiləri, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Əvvəlcə qonaqlar tədbir çərçivəsində Azərbaycan Rəssamlıq Akademiyasının



tələbələrinin “At gücü” mövzusunda hazırladıqları rəsm əsərlərindən ibarət sərgi ilə tanış olublar.

Daha sonra film nümayiş etdirilib.

Film dünyanın ən seçilən atlarının hekayəsindən, onların qeyri-adi gücündən və insanla unikal bağlılığından bəhs edir. Layihə vəhşi təbiət haqqında məzmun yaradan və filmləri 70-dən çox ölkədə yayımlanan məşhur “Plimsoll Productions” və “Eos Films” istehsal şirkətlərinin birgə məhsuludur.

Filmin çəkilişləri ABŞ, Azərbaycan, Böyük Britaniya, Çin, Qətər və Niderlandda aparılıb. Azərbaycandakı çəkilişlər Heydər Əliyev Fondunun təşəbbüsü və Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) dəstəyi ilə həyata keçirilib. Filmdə təqdim olunan məşhur at cinsləri arasında Azərbaycanın milli irsi olan Qarabağ atları da öz layiqli yerini tutub.

Bu ekran əsəri “Mavi Planet II” və “Yer kürəsi II” kimi layihələrin yaradıcıları tərəfindən atlar haqqında indiyədək çəkilmiş ən iddialı sənədli filmlərdən biri hesab olunur.

Şərq təqviminə görə, 2026-cı ilin “At ili” olması ilə əlaqədar filmin nümayişləri dünyanın müxtəlif ölkələrində bu mövzuya həsr edilib. Proqnozlara əsasən, ekran əsərinin auditoriyası 100 ölkədə 300 milyon izləyicini ötəcək. Bu göstəriciyə televiziya yayımı, onlayn platformalar, kinoteatr nümayişləri, eləcə də dünyanın müxtəlif muzeylərində təşkil edilən təqdimatlar vasitəsilə nail olunması gözlənilir.

Qeyd edək ki, filmin ərsəyə gəlməsində beynəlxalq təcrübəyə malik peşəkar komanda iştirak edib. Layihənin məsləhətçiləri sırasında Böyük Britaniyanın tanınmış fotoqrafı, Kral Coğrafiya Cəmiyyətinin üzvü Henri Dallal (Henry Dallal) da daxil olmaqla, elm və mədəniyyət sahəsinin aparıcı mütəxəssisləri yer alır.

Filmin rejissoru Mark Braunlou (Mark Brownlow) “Yer kürəsi II” və “Eden: Untamed Planet” kimi layihələri ilə tanınır. O, həmçinin “Mavi planet II”, “Kiçik nəhənglər 3D”, “Okeanlar: bizim mavi planetimiz 3D” və digər sənədli serialların prodüseri və rejissoru kimi çoxsaylı mükafatlara layiq görülüb.

Filmin prodüseri Sun Şuyun (Sun Shuyun) beynəlxalq əməkdaşlıq sahəsində tanınan və məhsuldar fəaliyyət göstərən mütəxəssislərdəndir.

İkinci rejissor Rob Sallivan (Rob Sullivan) sənədli seriallar üzrə təcrübəli prodüser və rejissor kimi yerli hekayələrin təqdimatı və unikal çəkiliş məkanlarına çıxış imkanları ilə seçilir.

Filmin kadrarxası mətni “Oskar” mükafatı nominantı aktyor Coş Brolin (Josh Brolin) tərəfindən səsləndirilib, musiqinin müəllifi isə “Emmy” mükafatı laureatı bəstəkar Barnabi Teylordur (Barnaby Taylor).

***XQ***

# “Mən, Lalə, bir də Şerlok Holms 2”

**Aprelin 15-də Nizami Kino Mərkəzində İctimai Televiziya və Radio Yayımları Şirkəti ilə Elm və Təhsil Nazirliyinin birgə təşəbbüsü əsasında hazırlanan “Mən, Lalə, bir də Şerlok Holms 2” çoxseriyalı bədii televiziya filminin ikinci mövsümünün təqdimatı keçirilib.**



Təqdimat mərasimində Leyla Əliyeva və Alena Əliyeva, mədəniyyət naziri Adil Kərimli, elm və təhsil naziri Emin Əmrullayev iştirak ediblər.

Tədbirdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev layihənin ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirib. Nazir İctimai Televiziya və Radio





Yayımları Şirkətinin fəaliyyətini yüksək qiymətləndirərək, son illər televiziya məkanında keyfiyyətli məzmunun təqdim olunmasının, xüsusilə təhsilyönümlü layihələrə göstərilən diqqətin təqdirəlayiq olduğunu vurğulayıb. Onun sözlərinə görə, bu kimi layihələr uşaqların maariflənməsinə, dünyagörüşünün formalaşmasına mühüm töhfə verir.

Layihənin ideya müəllifi Tural Sevdimalı çıxışında bildirib ki, layihənin əsas məqsədi uşaqlara düzgün dəyərləri aşılamaqdır. “Biz istəyirik ki, uşaqlar dostluğu düzgün seçməyi, doğru qəhrəmanları tanımağı və ən əsası, güvənə biləcəkləri insanları ayırd etməyi öyrənsinlər”, – deyə o vurğulayıb.

Tural Sevdimalı gələcək planlarla bağlı məlumat verərək qeyd edib ki, artıq Kino Agentliyi ilə əməkdaşlıq formalaşıb. Onun sözlərinə görə, layihə “pitching” mərhələsini uğurla keçib və yaxın zamanda “Mən, Lalə, bir də Şerlok Holms” filminin tammetrajlı versiyasının çəkilişi planlaşdırılır. Filmin gələcəkdə kinoteatrlarda nümayişi nəzərdə tutulur.

Qeyd edək ki, layihənin ideya müəllifi Tural Sevdimalı, ssenari müəllifləri isə Tural Sevdimalı və Vüqar Hüseynovdur. Ailəvi, detektiv və komediya janrlarını özündə birləşdirən serial hər biri 50 dəqiqə olmaqla 12 seriyadan ibarətdir.

Serialın birinci mövsümündə hadisələr Muradın yay tətilini keçirdiyi kənddə cərəyan edir. Onun kitablarla tanışlığı, xüsusilə Artur Konan Doylun əsərləri vasitəsilə Şerlok Holms obrazının təxəyyülündə canlanması süjetin əsas xəttini təşkil edir. Layihənin başlıca məqsədi mütaliənin insan həyatındakı rolunu ön plana çıxarmaqdır. Eyni zamanda, Muradın zəngin təxəyyülü vasitəsilə müxtəlif tarixi və mədəni şəxsiyyətlər canlandırılır ki, bu da seriala maarifləndirici məzmun qazandırır. Layihədə uşaqlara dürüstlük, məsuliyyət, böyüklərə hörmət, ətraf mühitə qayğı və ictimai davranış qaydaları kimi dəyərlər aşılanır.

Yeni mövsümdə hadisələr 11 yaşlı Muradın ətrafında inkişaf edir. O, “Əlaçı” bilik yarışmasının qalibi olmağı arzulasa da, qaydalara əsasən yarışmada iştirak hüququnu itirir. Buna baxmayaraq, Murad Lalənin öz kəndlərini təqdim etməsi üçün ona dəstək olur və hazırlıq prosesində fəal iştirak edir. Süjet xəttində uşaqlar arasında rəqabət, dostluq münasibətləri və seçim qarşısında qalmaq kimi mövzular ön plana çıxır. Muradın xəyali dostu olan məşhur detektiv Şerlok Holms bu mövsümdə də ona dəstəyini davam etdirir.

“Mən, Lalə, bir də Şerlok Holms 2” serialı aprelin 19-dan etibarən İctimai Televiziya və Radio Yayımları Şirkətinin efirində tamaşaçılara təqdim olunacaq.

***XQ***

# “İRS” jurnalı ərəb dilində

**“İRS” beynəlxalq jurnalının ərəb dilində növbəti buraxılışı işıq üzü görüb. Bu nəşr Vətən müharibəsində qazanılmış tarixi Zəfərin 5-ci ildönümünə həsr olunub. Buraxılışda Azərbaycanın müasir inkişafını, tarixi irsini və beynəlxalq münasibətlərini müxtəlif aspektlərdən işıqlandıran elmi və publisistik məqalələr öz əksini tapıb.**




Misirli tədqiqatçı Əhməd Tərabikin “Azərbaycan və İslam Əməkdaşlıq Təşkilatı: İslam dünyasında səmərəli tərəfdaşlığın nümunəsi” adlı məqaləsində ölkəmizin İslam aləmində rolu və beynəlxalq əməkdaşlığa töhfələri təhlil edilib. Milli Məclisin deputatı, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü Gülşən Paşayevanın “Qadın İslam və mədəni müxtəliflik arasında: Azərbaycan təcrübəsinə baxış” məqaləsində isə Azərbaycan qadınının cəmiyyətdəki mövqeyi və multikultural mühitdə rolu araşdırılıb.

Misirin Eyn Şəms Universitetinin professoru, filologiya üzrə fəlsəfə doktoru, azərbaycanşünas alim Əhməd Sami əl-Aydinin “İkinci Qarabağ müharibəsinin 5 ili: Qələbə, yenidənqurma və sülh yoluna baxış” məqaləsində işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa işləri və gələcək inkişaf perspektivləri təqdim edilib. Jurnalın bu buraxılışında Azərbaycan ilə ərəb dünyası arasında mədəni və elmi əlaqələrə, memarlıq irsinə və təbiət gözəlliklərinə həsr olunmuş məqalələr də yer alıb.

***XQ***

# “Aqrarkredit” Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının

*balansındakı bəzi aktivlər üzrə borcların tələb hüquqlarının müsabiqə yolu ilə satışının keçirilməsi barədə*

## ELAN

Müsabiqəyə çıxarılan aktivlər üzrə borcların tələb hüquqları barədə məlumat:

1. “Kavkasis Betoni 2007” Məhdud Məsuliyyətli Cəmiyyətinin borcu üzrə tələb hüququ

Tələb hüququnun ilkin satış dəyəri 21.547.587,01 (iyirmi bir milyon beş yüz qırx yeddi min beş yüz səksən yeddi manat 01 qəpik) manat.

2. “Solid Consulting LTD” Məhdud Məsuliyyətli Cəmiyyətinin borcu üzrə tələb hüququ.

Tələb hüququn ilkin satış dəyəri 45.947.231,7 (qırx beş milyon doqquz yüz qırx yeddi min iki yüz otuz bir manat 70 qəpik) manat.

Ərizələrin qəbulunun başlanma və bitmə tarixi: 17 aprel 2026-cı il saat 10.00-dan – 15 may 2026-cı il saat 16.00-dəkdir.

Müsabiqə qalibinin müəyyən edilməsi tarixi və saatı: 20 may 2026-cı il saat 11.00-dır.

Müsabiqənin keçirildiyi ünvan: Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, AZ-1022 Bakı şəhəri, Nəsimi rayonu, S.Vurğun küçəsi 135.

Aktivin parametrləri ilə bağlı sənədlərlə tanış olmaq qaydası və müddəti: 17 aprel 2026-cı il tarixdən 18 may 2026-cı il tarixədək, həftənin 3-cü və 5-ci günləri, “Aqrarkredit” QSC-nin baş ofisində, Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125 nömrəli ünvanda baxılmalıdır.

Əlaqələndirici şəxs: Şahin Seyidov 050-235-99-90.

Əhəd Vəhədzadə 050-374-27-27.

İddiaçıların qarşısında irəli sürülən şərtlər.

1. İddiaçı tərəfindən aktivin elan olunan ilkin satış dəyərinin 0,5% faizi həcmində beh məbləği ödənilməlidir. Müsabiqənin qalibi hər hansı səbəbdən aktivi almaqdan imtina etdiyi halda onun tərəfindən ödənilmiş beh məbləği geri qaytarılmır.

2. İddiaçılar tərəfindən təqdim edilmiş təklifdə aktiv üçün təklif olunan məbləğ aydın şəkildə rəqəmlə və Azərbaycan dilində sözlə yazılmalı, iddiaçılar və ya onların etibarnamə üzrə nümayəndələri tərəfindən imzalanmalıdır. Sözlə rəqəm arasında fərq aşkar edildikdə, sözlə ifadə olunmuş yazı əsas götürülür. Təklif müsabiqənin keçirilməsi haqqında məlumatda göstərilən müddət ərzində imzalanmış (hüquqi şəxsdirsə möhürlənmiş) qapalı zərfdə “Aqrarkredit” QSC-yə təqdim edilməlidir.

3. Bir iddiaçı müsabiqədə iştirak etmək üçün yalnız bir ərizə verə bilər. İddiaçı Müsabiqə Komissiyasına yazılı bildiriş verməklə ərizələrin qəbulu müddəti bitənədək ərizəsini geri götürə bilər.

4. Müsabiqə günü iddiaçı və ya onun etibarnamə üzrə nümayəndəsi müsabiqədə iştirak etməlidir. Təqdim edilmiş zərflər iddiaçılar və ya onların etibarnamə üzrə nümayəndəsinin iştirakı ilə açılır.

5. Müsabiqə zamanı aktivin start qiymətindən ən yüksək qiymət təklif etmiş iddiaçı müsabiqənin qalibi elan olunur. İddiaçılar tərəfindən təqdim edilmiş təkliflər eyni məbləğ olduqda həmin iddiaçılar aktiv üçün təklif olunan məbləği göstərməklə yenidən təklif təqdim edirlər. Bu zaman da təklif məbləğləri eyni olduqda proses fərqli təklif olanadək davam etdirilir. Yenidən təklif verməkdən imtina edən iddiaçı müsabiqədə iştirak etmir.

6. Müsabiqənin qalibi aktivin dəyərinin 30 (otuz) bank günü ərzində tam ödənilməsini təmin etmək barədə yazılı zəmanət verməlidir.

**Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər:**

1. İddiaçının ərizəsi (ərizə forması “Aqrarkredit” QSC tərəfindən veriləcək).
2. İddiaçının şəxsiyyətini təsdiq edən sənəd.
3. Təklif olunan qiymət (bağlı zərfdə rəqəmlə və sözlə göstərilməklə).
4. İddiaçı tərəfindən ödənilmiş beh məbləğini təsdiq edən qəbz.
5. Etibarnamə (nümayəndə iştirak etdikdə).

Qeyd: iddiaçı hüquqi şəxs olduqda-(dövlət qeydiyyatı haqqında şəhadətnamə, nizamnamə, qanuni təmsilçinin və ya nümayəndənin şəxsiyyətini təsdiq edən sənəd (surəti).

Beh ödənilməsi üçün bank rekvizitləri
Kod: 501587
VÖEN: 1300025711
SWIFT BIC- ACJTAZ22
M/h: Mərkəzi Bankda –
AZ45NABZ 01350 1000 000 000 35944
H/h: AZ67ACJT45019192794010094401
Ünvan: Bakı şəhəri, AZ 1006. Qədirli küçəsi 125.

# “Aqrarkredit” Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının

*balansındakı bəzi əmlakların müsabiqə yolu ilə satışının keçirilməsi barədə*

## ELAN

Müsabiqəyə çıxarılan əmlaklar barədə məlumat:

1. İmişli rayonunda yerləşən 2 ədəd əmlak kompleksi kimi müəssisə (8,5 hektar torpaq sahəsində yerləşən 21,675.00 kv.m və 1.23 hektar torpaq sahəsində yerləşən 12,054.90 kv.m tikili) və 8 çıxarışdan ibarət cəmi 7,4 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahələri (Quşçuluq kompleksi). Əmlak yüklü deyil.

Start qiymət - 5.000.000,0 (beş milyon) manat.

2. Gəncə şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti 391 nömrəli ünvanda yerləşən 2000 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

Start qiymət – 2.160.000,00 (iki milyon bir yüz altmış min) manat.

3. Abşeron rayonu, Xırdalan şəhəri, H.Əliyev prospekti 167 nömrəli ünvanda yerləşən 1625.6 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

Start qiymət – 1.620.000,0 (bir milyon altı yüz iyirmi min) manat.

4. Şəki rayonu, Daşüz kəndində yerləşən, kənd təsərrüfat təyinatlı 500 hektar torpaq sahəsi (örüş yeri) üzərində icarə hüququ. Əmlak yüklü deyil.

Start qiymət – 346.000,0 (üç yüz qırx altı min) manat.

5. Şəki şəhəri, Salman Mümtaz küçəsində 7,3 hektar sahəsi (yaşayış məntəqələrinin torpaqları). Əmlak yüklü deyil.

Start qiymət – 795.000,0 (yeddi yüz doxsan beş min) manat.

6. Şəki şəhəri, Salman Mümtaz küçəsində 7,1 hektar sahəsi (yaşayış məntəqələrinin torpaqları). Əmlak yüklü deyil.

Start qiymət – 770.000,0 (yeddi yüz yetmiş min) manat.

7. Şəki şəhəri, Salman Mümtaz küçəsində 29,8 hektar sahəsi (yaşayış məntəqələrinin torpaqları). Əmlak yüklü deyil.

Start qiymət – 3.235.000,0 (üç milyon iki yüz otuz beş min) manat.

8. Abşeron rayonunun Qobu qəsəbəsində yerləşən 3,8666 hektar torpaq sahəsi (kənd təsərrüfatı təyinatlı torpaqlar). Əmlak yüklü deyil.

Start qiymət – 773.000,00 (yeddi yüz yetmiş üç min) manat.

9. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş 201C nömrəli ünvanda yerləşən 242.3 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi.Əmlak yüklü deyil.

Start qiymət – 390.103,00 (üç yüz doxsan min bir yüz üç) manat.

10. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş 195X nömrəli ünvanda yerləşən 60.9 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi.Əmlak yüklü deyil.

Start qiymət – 102.312,00 (bir yüz iki min üç yüz on iki) manat.

11. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş 197B nömrəli ünvanda yerləşən 214.8 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

Start qiymət – 345.828,00 (üç yüz qırx beş min səkkiz yüz iyirmi səkkiz) manat.

12. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş 197A nömrəli ünvanda yerləşən 164.7 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

Start qiymət – 265.167,00 (iki yüz altmış beş min bir yüz altmış yeddi) manat.

13. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş 199C nömrəli ünvanda yerləşən 51.0 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

Start qiymət – 85.680,00 (səksən beş min altı yüz səksən) manat.

14. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş 199B nömrəli ünvanda yerləşən 61.7 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

Start qiymət – 103.656 (bir yüz üç min altı yüz əlli altı) manat.

15. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş 199D nömrəli ünvanda yerləşən 68.6 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

Start qiymət – 115.248,00 (bir yüz on beş min iki yüz qırx səkkiz) manat.

16. Bakı şəhəri Nərimanov rayonu, Əliyar Əliyev küşəsi 65, 3 nömrəli ünvanda yerləşən 418.10 kv.m və 244.1 kv.m sahədən ibarət 2 qeyri-yaşayış sahəsi bir lot üzrə. Əmlaklar yüklü deyil.

Start qiymət müvafiq olaraq - 750.000,0 (yeddi yüz əlli min) manat və 384.458,00 (üç yüz səksən dörd min dörd yüz əlli səkkiz) manat.

Ərizələrin qəbulunun başlanma və bitmə tarixi: 17 aprel 2026-cı il saat 10.00-dan – 15 may 2026-cı il saat 16.00-dəkdir.

Müsabiqə qalibinin müəyyən edilməsi tarixi və saatı: 20 may 2026-cı il saat 11.00-dır.

Müsabiqənin keçirildiyi ünvan: Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, AZ-1022 Bakı şəhəri, Nəsimi rayonu, S.Vurğun küçəsi 135.

Əmlaka, onun növü və parametrləri ilə bağlı sənədlərlə tanış olmaq qaydası və müddəti: 17 aprel 2026-cı il tarixdən 19 may 2026-cı il tarixədək, həftənin 3-cü və 5-ci günləri, “Aqrarkredit” QSC-nin baş ofisində, Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125 nömrəli ünvanda baxılmalıdır.

Əlaqələndirici şəxs: Şahin Seyidov 050-235-99-90.

Əhəd Vəhədzadə 050-374-27-27.

İddiaçılar qarşısında irəli sürülən şərtlər

1. İddiaçı tərəfindən əmlakın elan olunan ilkin satış dəyərinin 0,5% faizi həcmində beh məbləği ödənilməlidir. Müsabiqənin qalibi hər hansı səbəbdən əmlakı almaqdan imtina etdiyi halda onun tərəfindən ödənilmiş beh məbləği geri qaytarılmır.

2. İddiaçılar tərəfindən təqdim edilmiş təklifdə əmlak üçün təklif olunan məbləğ aydın şəkildə rəqəm və Azərbaycan dilində sözlə yazılmalı, iddiaçılar və ya onların etibarnamə üzrə nümayəndələri tərəfindən imzalanmalıdır. Sözlə rəqəm arasında fərq aşkar edildikdə, sözlə ifadə olunmuş yazı əsas götürülür. Təklif müsabiqənin keçirilməsi haqqında məlumatda göstərilən müddət ərzində imzalanmış (hüquqi şəxsdirsə möhürlənmiş) qapalı zərfdə “Aqrarkredit” QSC-yə təqdim edilməlidir.

3. Bir iddiaçı müsabiqədə iştirak etmək üçün yalnız bir ərizə verə bilər. İddiaçı Müsabiqə Komissiyasına yazılı bildiriş verməklə ərizələrin qəbulu müddəti bitənədək ərizəsini geri götürə bilər.

4. Müsabiqə günü iddiaçı və ya onun etibarnamə üzrə nümayəndəsi müsabiqədə iştirak etməlidir. Təqdim edilmiş zərflər iddiaçılar və ya onların etibarnamə üzrə nümayəndəsinin iştirakı ilə açılır.

5. Müsabiqə zamanı əmlakın start qiymətindən ən yüksək qiymət təklif etmiş iddiaçı müsabiqənin qalibi elan olunur. İddiaçılar tərəfindən təqdim edilmiş təkliflər eyni məbləğ olduqda həmin iddiaçılar əmlak üçün təklif olunan məbləği göstərməklə yenidən təklif təqdim edirlər. Bu zaman da təklif məbləğləri eyni olduqda proses fərqli təklif olanadək davam etdirilir. Yenidən təklif verməkdən imtina edən iddiaçı müsabiqədə iştirak etmir.

6. Müsabiqənin qalibi əmlakın dəyərinin 30 (otuz) bank günü ərzində tam ödənilməsini təmin etmək barədə yazılı zəmanət verməlidir.

Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər

1. İddiaçının ərizəsi (ərizə forması “Aqrarkredit” QSC tərəfindən veriləcək).
2. İddiaçının şəxsiyyətini təsdiq edən sənəd.
3. Təklif olunan qiymət (bağlı zərfdə rəqəmlə və sözlə göstərilməklə).
4. İddiaçı tərəfindən ödənilmiş beh məbləğini təsdiq edən qəbz.
5. Etibarnamə (nümayəndə iştirak etdikdə).

Qeyd: iddiaçı hüquqi şəxs olduqda-(dövlət qeydiyyatı haqqında şəhadətnamə, nizamnamə, qanuni təmsilçinin və ya nümayəndənin şəxsiyyətini təsdiq edən sənəd (surəti).

Beh ödənilməsi üçün bank revizitləri
Kod: 501587
VÖEN: 1300025711
SWIFT BIC-ACJTAZ22
M/h: Mərkəzi Bankda- AZ45NABZ 01350 1000 000 000 35944
H/h: AZ67ACJT45019192794010094401
Ünvan: Bakı şəhəri, AZ 1006. Qədirli küçəsi 125.

## “Azmetko Kompleks Sazlama və Avtomatlaşdırma” ASC səhmdarlarının nəzərinə!

4 iyun 2026-cı il saat 15.00-da “Azmetko Kompleks Sazlama və Avtomatlaşdırma" ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. “Azmetko KSA” ASC-nin 2025-ci il üzrə fəaliyyətinə aid illik hesabatın təsdiq edilməsi.
2. “Azmetko KSA” ASC-nin 2025-ci il üzrə illik mühasibat balansının təsdiq edilməsi.
3. 2025-ci ilin yekunlarına görə mənfəətin bölüşdürülməsi, o cümlədən onların məbləği, ödənilmə qaydası, forması və müddətinin müəyyənləşdirilməsi.
4. İstismarda olan köhnə nəqliyyat vasitələrinin, avadanlıqların satılması, yenilərinin alınması üçün, lazım olduqda, çatışmayan vəsaitin kredit vasitəsilə əldə edilməsi.

Telefon- (+994 12) 450- 95- 66.

Ünvan-Bakı şəhəri, Ramana qəsəbəsi, Əmir Bağırov küçəsi 63.

“Azmetko Kompleks Sazlama və Avtomatlaşdırma” ASC-nin direktorlar şurasının sədri Hikmət Lətifov.

# AZƏRTAC-ın şəhid jurnalisti yad edilib



**Dünən şəhid jurnalist Məhərrəm İbrahimovun 44 yaşını doğmaları, dostları, həmkarları dərin hüzn və ehtiramla qeyd etdilər. 5 ildir ki, aprelin 16-da onun adı dillərdən düşmür, əziz xatirəsi ürəkləri göynədir.**

Məhərrəm 2020-ci ilin noyabrından – Qarabağ zəfərinin ilk günlərindən işğaldan azad edilmiş bölgələrin yaşayış məntəqələrini qarış-qarış, şəhərbəşəhər, kəndbəkənd dolaşaraq erməni vandalların xarabalığa çevirdiyi məkanların qəlbağrıdan mənzərəsini tarix üçün salnamələşdirirdi. 2021-ci ilin iyunun 4-də o, doğulduğu Göyçənin Ardanış kəndindən 50 kilometrlik məsafədə yerləşən Kəlbəcərin Susuzluq kəndində şəhidliyə qovuşdu.

AZƏRTAC-ın əməkdaşları Müşfiqabad qəsəbə qəbiristanlığında şəhid-jurnalist Məhərrəm İbrahimovun məzarını ziyarət edərək onun mənalı ömür yolu və fədakar fəaliyyəti barədə ətraflı söhbət açıblar. Şəhid-jurnalistin həmkarı Elçin Hüseynov qeyd edib ki, Məhərrəm azad edilmiş bölgələrə ilk qədəm basanlardan olub, üz tutduğu ünvanlarda erməni qəddarlığı və soyğunçuluğuna şahidlik edən mənzərələrin geniş xronikasını yaradıb. Məhərrəm İbrahimovun xatirəsi doğma kollektivdə həmişə əziz tutulur. AZƏRTAC-da onun adına xüsusi guşə yaradılıb, barelyefi hazırlanıb.

Ailə üzvləri adından jurnalist Əsgər Əlioğlu, İradə İbrahimova və Sevda Əsgərova qardaşlarının xatirəsini əziz tutduqlarına görə AZƏRTAC-ın kollektivinə və ziyarətçilərə minnətdarlıqlarını bildiriblər.

*XQ*

*BEYNƏLXALQ HƏYAT*

# Yaxın Şərqdə hərbi gərginlik enerji böhranını dərinləşdirir

**Dünya gündəmi eyni anda həm enerji siyasətinin sərt qərarları, həm də hərbi-siyasi qarşıdurmaların kölgəsində formalaşır. ABŞ Prezidenti Donald Trampın Kanada ilə neft daşımalarına dair icazələri imzalaması enerji təhlükəsizliyi məsələsini yenidən ön plana çıxarır. Eyni vaxtda Yaxın Şərqdə İsrail–Livan xəttində mümkün atəşkəs və İran ətrafında genişlənən hərbi gərginlik regionu kritik mərhələyə sürükləyir. Hörmüz boğazı ətrafında artan ritorika isə qlobal iqtisadiyyat üçün strateji risklərin hələ də yüksək olduğunu göstərir.**



“BBC”: ABŞ Prezidenti Donald Tramp Kanada ilə neft və neft məhsullarının daşınması ilə bağlı bir neçə sənəd imzalayıb. Məlumata görə, sənədlərdən biri Şimali Dakota ştatının Burke dairəsində boru kəməri infrastrukturunun tikintisi, qoşulması, istismarı və texniki xidməti işləri “Bakken Pipeline Company LP” şirkətinə verilib. Bundan əlavə, “Bakken Pipeline Company” eyni qraflıqda mövcud boru kəməri qurğularının istismarı və texniki xidməti üçün ayrıca icazə alıb.

**“Financial Times”:** Livanda atəşkəs tezliklə elan edilə və bu həftə qüvvəyə minə bilər. Məlumata görə, bu, İsrail qoşunları Livanın cənubundakı sərhəd şəhəri Bint-Cbeyil üzərində nəzarəti ələ keçirdikdən sonra baş verə bilər. Adının çəkilməsini istəməyən Livan rəsmisi qəzetə bildirib ki, mümkün razılaşma İsrailin hücumlarının dayandırılmasını əhatə etsə də, onun qoşunlarının Livan ərazisindən çıxarılmasını özündə ehtiva etmir.

**“Al Jazeera”:** Aprelin 21-dən İranda bütün məktəblər distant təhsilə keçir. Məlumata görə, bu keçid ölkə üzrə bütün təhsil səviyyələrinə və siniflərə şamil edilir və xüsusi sərəncama qədər qüvvədə olacaq.

**“Ynet”:** İsrail Knessetinin “Likud” partiyasından olan deputatı Gila Qamliel baş nazir Benyamin Netanyahunun Livan Prezidenti Cozef Aunla telefon danışığı aparacağını təsdiqləyib. Qamliel bunu “Galei Zahal” radiostansiyasının efirində bildirib. “Ümid edirəm ki, bu addım Livanla münasibətlərin inkişafına gətirib çıxaracaq. Bu, uzun müddət ərzində formalaşan bir prosesdir”, - o qeyd edib.

**“Gulf News”:** Hörmüz boğazından dünya birliyinə siyasi və iqtisadi təzyiq vasitəsi kimi istifadə edilməsi yolverilməzdir. Bu barədə Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Xarici İşlər Nazirliyinin bəyanatında deyilir. XİN-dən bildirilib ki, Hörmüz boğazı qlobal enerji təchizatının təxminən beşdəbiri üçün həyati bir keçiddir və beynəlxalq ticarətdə mühüm rol oynayır. “Hörmüz boğazından iqtisadi məcburiyyət və ya şantaj vasitəsi kimi istifadə edilməsini qəti şəkildə rədd edir və kollektiv beynəlxalq reaksiya tələb edirik, çünki bu, regiondan kənara çıxaraq bütövlükdə qlobal iqtisadiyyata təsir edən iqtisadi müharibə və piratçılıqdır”, - bəyanatda qeyd edilib.

**“The Times of Israel”:** Livan Prezidenti Cozef Aun İsraillə danışıqlara başlamazdan əvvəl atəşkəsin vacibliyini bəyan edib. Aun bildirib ki, Livanın İsraildən xahiş etdiyi atəşkəs iki ölkə arasında birbaşa danışıqlar üçün başlanğıc nöqtəsidir. Qəzet qeyd edir ki, Livan liderinin şərhləri bu gün iki ölkənin danışıqları məsələsinə dair ilk açıqlamalardır. Daha əvvəl ABŞ Prezidenti Donald Tramp İsrail və Livan liderlərinin danışıqlar aparmalı olacağını elan etmişdi.

**“Bloomberg”:** Türkiyə Pakistan, Səudiyyə Ərəbistanı və Misirin iştirakı ilə regional təhlükəsizlik platformasının yaradılmasına dair müzakirələr təşkil edir. Görüş Antalya Diplomatik Forumu çərçivəsində keçirilə bilər. Agentliyin məlumatına görə, Misirin iştirakı hələ təsdiqlənməyib. İştirakçıların region ölkələri arasında əməkdaşlığın gücləndirilməsinə və qarşılıqlı etimad səviyyəsinin artırılmasına diqqət yetirməklə geniş dairədə təhlükəsizlik məsələlərini müzakirə edəcəkləri gözlənilir. Həmçinin Yaxın Şərqdəki münaqişənin nizamlanması məsələsinə xüsusi diqqət yetiriləcək.

**“Reuters”:** Fars körfəzi ölkələri Hörmüz boğazı açıldıqdan sonra bir həftə ərzində onun vasitəsilə neft tədarükünü bərpa etməyə hazırdır. Bu bəyanatla ABŞ-ın maliyyə naziri Skott Bessent Ağ Evdə jurnalistlər üçün keçirilən brifinqdə çıxış edib. Onun sözlərinə görə, o, Vaşinqtonda Beynəlxalq Valyuta Fondunun (BVF) və Dünya Bankının rəhbər orqanlarının yaz sessiyası çərçivəsində Yaxın Şərqdən olan həmkarları ilə görüşüb. Bessent bildirib ki, Hörmüz boğazı açılsa, bir həftə ərzində neft tədarükünə başlaya biləcəklər.

**“Euronews”:** Avropa və Fars körfəzi ölkələri ümumi təhlükəsizlik çağırışları fonunda əməkdaşlığı dərinləşdirməlidir. Bu barədə Avropa Komissiyasının (AK) sədri Ursula fon der Lyayen “X” hesabında yazıb. Onun sözlərinə görə, iki regionun təhlükəsizliyi bir-biri ilə qarşılıqlı surətdə əlaqəlidir və Avropa İttifaqı (Aİ) İranın hücumları şəraitində Fars Körfəzi Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurası ilə tam həmrəydir. Fon der Lyayen Rusiya-Ukrayna müharibəsi kontekstində nümayiş etdirdikləri həmrəylik və vasitəçilik səylərinə görə bir sıra Körfəz ölkələrinə təşəkkür edib.

*Hazırladı:*
***N.BEYDİYEVA***
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 65 (31034) 17 aprel 2026-cı il, cümə

## İDMAN

### Rodriqo Qomeslə görüş

**Aprelin 16-da gənclər və idman naziri Fərid Qayıbov Dünya Kapoeyra Federasiyasının prezidenti Rodriqo Furbino Qomes ilə görüşüb.**



Gənclər və İdman Nazirliyindən verilən məlumata görə, qonağı salamlayan nazir ölkəmizdə idman sahəsində görülən işlər və əldə olunan nailiyyətlər barədə məlumat verib. Söhbət zamanı Azərbaycanda kapoeyra idman növünün inkişaf perspektivləri, beynəlxalq əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub.

Görüşdə Azərbaycan Kapoeyra Federasiyasının prezidenti Günel Muradova və federasiyanın digər məsul şəxsləri də iştirak ediblər.

### Soydaşımız Portuqaliya trekində qalib olub

**Azərbaycanlı pilot Portuqaliyada keçirilən “TAG Livre Portuguese Trophy” yarışında uğur qazanıb.**




Yarışda Portuqaliya, İtaliya, Cənubi Afrika, Anqola və Böyük Britaniyadan olan pilotlar mübarizə aparıblar. Davin Cəfərov hər üç yarışı səhvsiz və qəzasız başa vuraraq yekunda 1-ci yerə layiq görülüb.

Davin Cəfərov yalnız trekdə deyil, trekdən kənarda da Azərbaycanı qürurla təmsil etməyə davam edir. Onun artıq tanınan “44 qələbə jesti” bu dəfə də digər pilotların və komanda üzvlərinin diqqətini cəlb edib. Davin Cəfərov bildirib ki, bu jest Azərbaycanın 44 günlük Zəfərinə həsr olunub və dözümlülüyün, qətiyyətin, eləcə də milli qürurun rəmzidir.

Formula 1-ə yüksəlməyi qarşısına məqsəd qoyan Davin Cəfərov inkişaf yolunda inamla irəliləyir. O, intizamı, istedadı və beynəlxalq təcrübəsi ilə motorsportun ən yüksək səviyyəsinə doğru addımlarını davam etdirir.

Bununla yanaşı, sponsorluq məsələlərinin hələ də tam həllini tapmaması səbəbindən azərbaycanlı pilotun cari ildə Formula 4-də rəsmi debütü ilə bağlı qeyri-müəyyənlik davam edir.

### UEFA Çempionlar Liqasında yarımfinal

**UEFA Çempionlar Liqasında yarımfinal mərhələsinin daha 2 oyunu keçirilib. Almaniynın “Bavariya” komandası İspaniyanın “Real” klubunu qəbul edib. Maraqlı keçən görüş meydan sahiblərinin qələbəsi ilə başa çatıb – 4:3. Əvvəlki görüşdə də 2:1 hesabı ilə qalib gələn Almaniya klubu yarımfinala yüksəlib.**



İngiltərədə keçirilən digər oyunda “Arsenal” – “Sportinq” (Portuqaliya) görüşündə qapılara top vurulmayıb – 0:0. İlk oyunda 1:0 hesabı ilə qalib gələn ingilis klubu yarımfinala vəsiqə qazanıb.

Qeyd edək ki, yarımfinalda “Bavariya” Fransanın PSJ, “Arsenal” isə İspaniyanın “Atletiko Madrid” klubu ilə qarşılaşacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Təbiət idraka çağırır bizi*

# Nəbatat bağı – paytaxtın “yaşıl” möcüzəsi

**2026-cı ilin Azərbaycan Respublikasında “Şəhərsalma və Memarlıq İli” elan olunması paytaxt Bakının müasir inkişaf konsepsiyasında yeni mərhələnin başlandığını aydın şəkildə göstərir. Bu ilin daha bir mühüm hadisəsi – BMT-nin qlobal əhəmiyyətli platforması olan Ümumdünya Şəhərsalma Forumunun (WUF13) məhz Bakıda keçirilməsi isə ölkəmizin şəhərsalma, ekoloji balans və davamlı inkişaf sahəsində qazandığı nailiyyətlərin beynəlxalq səviyyədə təqdimatı baxımından xüsusi əhəmiyyət daşıyır. Bu gün Bakı yalnız müasir memarlıq nümunələri ilə deyil, eyni zamanda, geniş yaşıllıq zolaqları, park və bağları ilə də seçilir. Bu yaşıllıq məkanları sırasında xüsusi yer tutan ünvanlardan biri isə Mərkəzi Nəbatat Bağıdır.**

90 ildən artıq bir müddətdir yaradılan və bu gün Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində fəaliyyət göstərən Mərkəzi Nəbatat Bağı uzun illər ərzində ölkənin flora zənginliyinin qorunması və öyrənilməsi istiqamətində mühüm elmi mərkəz kimi formalaşıb. Onun geniş ərazisində həm yerli, həm də dünyanın müxtəlif regionlarından gətirilmiş yüzlərlə bitki növü yetişdirilir. Bu məkan yalnız elmi-tədqiqat fəaliyyəti üçün strateji əhəmiyyətə malik canlı laboratoriya deyil, həm də istirahət zonasıdır. Burada aparılan araşdırmalar bitkilərin uyğunlaşdırılması, nadir növlərin qorunması və biomüxtəlifliyin təmin olunmasına xidmət edir.





Son illərdə dövlət səviyyəsində həyata keçirilən genişmiqyaslı abadlıq və yenidənqurma işləri Mərkəzi Nəbatat Bağını da əhatə edib. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları əsasında Mərkəzi Nəbatat Bağında həyata keçirilən abadlıq və yenidənqurma tədbirləri ölkəmizdə bitki biomüxtəlifliyinin qorunmasına və səmərəli istifadəsinə göstərilən diqqətin bariz nümunəsidir. Xüsusilə 2024-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Botanika İnstitutunun yeni inzibati binasının açılışı bu məkanın inkişafında yeni mərhələnin başlanğıcı kimi yadda qalıb. Açılışdan sonra bağın ərazisində həyata keçirilən işlər onun həm elmi, həm də ictimai əhəmiyyətini daha da artırıb.

Nəbatat Bağı yarandığı gündən elmi-mədəni mərkəz kimi fəaliyyət göstərib. Həmçinin şəhər sakinlərinin və paytaxta gələn qonaqların ən çox üz tutduğu məkanlardan olub. İnsanları buraya çəkib gətirən floramızın canlı kolleksiyaları ilə istirahətin bir arada cəmləşməsidir. Elə bizi də Nəbatat Bağına gətirən səbəb bu idi. Səs-küylü paytaxt küçələrindən, ardı-arası kəsilməyən maşınların əhatəsindən və insan selindən ayrılıb bağın giriş qapısından içəri daxil oluruq. Sanki meşəyə düşürük. Ucu-bucağı görünməyən bağı bir az seyr etdikdən sonra **Mərkəzi Nəbatat Bağının “Qida və dərman bitkilərinin biokimyası” laboratoriyasının böyük mütəxəssisi Aynurə Seyfullayeva** ilə görüşüb söhbət etdik.

Mütəxəssis bildirdi ki, son dövrdə bioloji müxtəlifliyin qorunması, onun gələcək nəsillərə davamlı olaraq çatdırılması dünyada belə həyati bir məsələdir. Ona görə də Nəbatat Bağında elmi-tədqiqat işləri ilə yanaşı, insanların maarifləndirilməsi, xüsusən də ekoloji maarifləndirmə istiqamətində fəaliyyət genişləndirilir. Mərkəzi Nəbatat Bağı ərazisində təşkil olunan ekskursiyalar zamanı ziyarətçilərin diqqətini xüsusilə bağın müasir infrastruktur elementləri və zəngin landşaft quruluşu cəlb edir. Bunlara yerli və dünyanın müxtəlif regionlarından gətirilmiş nadir bitki növlərinin qorunması və nümayişi üçün inşa edilmiş müasir tipli oranjeriyalar, piyadalar üçün nəzərdə tutulmuş 650 metr uzunluğunda müasir körpü, göl kompleksi, uşaqlar üçün yaradılmış oyun meydançası, eləcə də ziyarətçilər üçün istirahət məkanı kimi formalaşdırılmış labirint daxildir.

Ziyarətçilər tərəfindən xüsusi maraqla qarşılanan bitkilər sırasında bağa yeni introduksiya olunmuş Çin lorapetalumu, respublika ərazisində yalnız Mərkəzi Nəbatat Bağında yetişdirilən Luzitan Sərvi, dünyanın ən nəhəng ağac növlərindən biri hesab olunan Sekvoya, həmçinin dünyanın ən hündür ağac növləri sırasında yer alan Mavi Evkalipt xüsusilə seçilir.

Bununla yanaşı, Çiyələk ağacı, Azərbaycanın Qırmızı kitabına daxil edilmiş uzunsaplaq palıd və Eldar şamı da ziyarətçilərin diqqətini cəlb edən nadir növlər sırasındadır. Oranjeriya şəraitində nümayiş etdirilən kofe ağacı, banan bitkisi və həşəratlarla qidalanan Nepentes (Nepenthes gaya) kimi ekzotik bitkilər də ekskursiya iştirakçılarında böyük maraq doğurur.

A.Seyfullayeva bələdçi kimi ekskursiyalar zamanı bağın əhəmiyyətini daha yaxşı çatdırmaq üçün maraqlı faktlar da danışıldığını bildirdi: “Xüsusilə sərv ağacları haqqında məlumatlar çox diqqət çəkir. Bağda sərv ağacları əsasən küləkqırıcı zolaqlar şəklində əkilib. Bu da ərazidə digər bitkilərin daha yaxşı inkişaf etməsinə kömək edir. Sərv ağacı həmişəyaşıl və uzunömürlü ağaclardandır. Bəzi növləri 800–1000 ilə qədər qala bilir. Buna görə də qədim dövrlərdən sərv ağacı “əbədi həyat” və uzunömürlülük rəmzi kimi qəbul olunub.

Ekskursiyalar zamanı ziyarətçilərin maraq göstərdiyi ağaclardan biri də dağdağan ağacıdır. Bu ağac xalq arasında “göz – nəzərdən qoruyan ağac” kimi tanınır. İnsanlar qədimdən bəri dağdağan ağacına xüsusi inamla yanaşıblar və onu pis enerjidən qoruyan təbii simvol hesab ediblər. Dağdağan ağacı həm də çox davamlı və uzunömürlü ağaclardandır. Şəhər şəraitinə uyğunlaşdığı üçün parklarda və bağlarda geniş istifadə olunur”.

Xarici turistlər üçün Mərkəzi Nəbatat Bağında ən maraqlı məkanlarından danışan bələdçi bunların əsasən oranjeriyalar və körpü hesab olunduğunu vurğuladı. Onun sözlərinə görə, ümumilikdə bağa ay ərzində, təxminən, 600–800 turist gəlir. Yerli ziyarətçilərin sayı xüsusilə həftəsonları 1000 nəfəri keçir. Bayram günlərində isə bu rəqəm 2–3 dəfə artır.

Eyni zamanda, bağın ərazisində ziyarətçilərin rahatlığını təmin etmək üçün müasir infrastruktur yaradılıb. A.Seydullayeva bildirdi ki, ərazidə müxtəlif yaş qrupları üçün nəzərdə tutulmuş istirahət və əyləncə zonaları, yaşıllıq labirintləri və açıq məkanlar salınıb ki, bu da bağa gələnlərin təbiətlə daha yaxından ünsiyyət qurmasına şərait yaradır. Bütün bu yeniliklər Mərkəzi Nəbatat Bağını yalnız istirahət məkanı deyil, müasir şəhərsalma konsepsiyasına uyğun formalaşmış ekoloji və elmi kompleksə çevirib. Bu gün bağ şəhərin səs-küyündən uzaqlaşmaq istəyən insanlar üçün sükut məkanı olmaqla yanaşı, alimlər və tədqiqatçılar üçün də mühüm elmi platformadır.

Bu gün Bakı Ümumdünya Səhərsalma Forumu kimi qlobal bir tədbirə ev sahibliyi etməyə hazırlaşarkən Mərkəzi Nəbatat Bağı da bu prosesin ayrılmaz hissəsinə çevrilir. Çünki müasir şəhərsalmanın əsas prinsiplərindən biri məhz yaşıl məkanların qorunması və artırılmasıdır. Bu baxımdan bağ yalnız bir istirahət məkanı deyil, həm də Azərbaycanın dünyaya təqdim edə biləcəyi uğurlu ekoloji modeldir.

Gün batarkən bağın üzərinə enən sakitlikdə bir həqiqət daha aydın hiss olunur: şəhərlər böyüdükcə insanın təbiətə ehtiyacı daha da artır. Mərkəzi Nəbatat Bağı isə bu ehtiyacın ən gözəl cavablarından biridir. Burada qorunan hər ağac, yaradılan hər yeni guşə gələcəyin şəhərlərinə ünvanlanmış bir mesajdır. Məhz buna görə də Bakıda keçiriləcək WUF13 çərçivəsində bu bağ, sadəcə, bir məkan kimi deyil, bir ideya kimi çıxış edəcək – insanla təbiətin vəhdətinin mümkünlüyünü sübut edən canlı nümunə kimi. Bu, Azərbaycanın dünya şəhərsalma gündəminə verə biləcəyi ən dəyərli töhfələrdən biri olacaq.

*Nurəngiz ADİLQIZI*
*XQ*


## “Bakı Neft Mədən Avadanlıqları” ASC səhmdarlarının nəzərinə!

3 iyun 2026-cı il saat 10.30-da “Bakı Neft Mədən Avadanlıqları” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**İclasın gündəliyi:**

**1.** 2025-ci ilin yekununa aid idarə heyəti sədrinin hesabatı.

**2.** 2025-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasının yekunları üzrə təftiş komissiyası sədrinin hesabatı.

**3.** 2025-ci ilin illik balans hesabatının təsdiq olunması və balans mənfəətinin bölüşdürülməsi.

**4.** Digər cari məsələlər.

**Ünvan:** Bakı şəhəri, Suraxanı rayonu, Bülbülə qəsəbəsi, Aşurbəyovlar küçəsi 112.

***İdarə heyəti***

## “MOSKVİÇTEXXİDMƏT” ASC səhmdarlarının nəzərinə!

6 iyun 2026-cı il saat 10.00-da Bakı şəhəri, Sumqayıt şosesi, 4 nömrəli ünvanda “Moskviçtexxidmət”ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin 2025-ci ilə aid maliyyə-təsərrüfat fəaliyyətinin yekunları haqqında.

**2.** Digər məsələlər.

Ümumi yığıncağın gündəliyinə aid məsələlərlə bağlı cəmiyyətə müraciət etmək olar.

**“YEVLAX KİMYƏVİ TƏMİZLƏMƏ” ASC-yə məxsus olan Yevlax şəhəri, Salamabad kəndi Alı Mustafayev küçəsi 47/A nömrəli ünvanda yerləşən 43,30 kvadratmetrlik qeyri-yaşayış sahəsinə malik bina hərraca və Yevlax şəhəri, M.Füzuli küçəsi 63 A nömrəli ünvanda yerləşən (köhnə ünvan – M.Füzuli küçəsi 27/1 ) qeyri-yaşayış sahəsi olan 24,2 kvadratmetrlik sex satışa çıxarılacaqdır. Hər iki əmlakın satışı 2026-cı il aprelin 19-da Yevlax şəhəri, Heydər Əliyev prospekti 58 nömrəli ünvanda saat 10.00-da keçiriləcəkdir.**

***✓ 2016-cı il fevralın 25-də Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən “KAİZEN” MMC-yə verilmiş (qeydiyyat nömrəsi İSN/L-483), 088600 nömrəli lisenziya itdiyi üçün etibarsız sayılır.***

***✓ 1991-ci ildə Bakıdakı 132 nömrəli tam orta məktəb tərəfindən Qasımov Emin Vaqif oğlunun adına verilmiş tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin kollektivi İşlər İdarəsinin sabiq əməkdaşı

**SULTAN DADAŞOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri Süleyman İsmayılov və şöbənin kollektivi Səkinə-Xanım Səfərovaya qardaşı

**SULTAN DADAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Xalq qəzeti”nin kollektivi keçmiş iş yoldaşları Fariz Ənsərova anası

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Tibb Universiteti uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva və kafedranın kollektivi Ağa Paşayevə və həyat yoldaşı Xumar Ələkbərovaya əzizləri

**FİRUZƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## HAVA

# Aranda yağmursuz, dağlarda yağışlı...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Mülayim cənub-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 9-12, gündüz 17-21 dərəcə isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunu, nisbi rütubət isə 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.



Havanın temperaturu gecə 6-9, gündüz 17-22 dərəcə isti, dağlarda gecə 3-8 dərəcə şaxta, gündüz 5-10 dərəcə isti təşkil edəcək.

*Q.ƏLİYEV*
*XQ*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3168
SİFARİŞ 489
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00